RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 4 (10024) 9 yanvar 2026-cı il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR





# Son 20 ilin növbəti tarixi rekordu

## Prezident İlham Əliyev "Xızı-Abşeron" Külək-Elektrik Stansiyasının rəsmi açılış mərasimində iştirak edib

## İLHAM ƏLİYEV:

"Azərbaycanda enerji sisteminin müasirləşdirilməsi, modernləşdirilməsi, inkişafı son illər ərzində əsas prioritetlərdən biri kimi qəbul edilmişdir. DeməK olar ki, son 20 il ərzində bizim enerji sistemimiz, yəni generasiya gücləri, böyük dərəcəli yarımstansiyalar və ötürücü xətlər tamamilə yenilənmişdir.

Son 20 il ərzində ölkəmizdə yaradılmış generasiya gücləri bütün əvvəlki dövrlə müqayisədə təxminən üç dəfə artmışdır. Bu gün bizim generasiya gücümüz təxminən 10 min meqavata bərabərdir. Bu, əgər belə demək mümkündürsə, tarixi rekorddur. Ancaq nəzərə alsaq ki, bundan sonra növbəti illər ərzində bir çox yeni bərpaolunan enerji generasiya gücü yaradılacaq, əlbəttə ki, bu rəqəm daha da artacaq və bizə imkan verəcək ki, həm artan daxili tələbatı lazımi səviyyədə təmin edək, həm də elektrik enerjisini daha böyük həcmdə ixrac edək.

Onu da bildirməliyəm ki, keçən il Mingəçevirdə yeni elektrik stansiyasının açılışını qeyd edərkən bir daha əmin olduq ki, Azərbaycanda bu iki proses, yəni ənənəvi generasiya gücləri və bərpaolunan generasiya gücləri paralel şəkildə aparılmalıdır. Ancaq o təqdirdə biz istədiyimiz nəticəyə nail ola bilərik. Keçən il Mingəçevirdə istismara verilmiş ənənəvi elektrik stansiyasının generasiya gücü təxminən 2000 meqavata bərabərdir və bu gün Azərbaycan enerji təminatı, enerji təhlükəsizliyi nöqteyi-nəzərindən özünü çox rahat hiss edir. Bu yaxınlarda 230 meqavat gücündə günəş-elektrik stansiyası istismara verilmişdir. Bu gün 240 meqavat gücündə külək-elektrik stansiyası, işğaldan azad edilmiş ərazilərdə - Cəbrayıl rayonunda hazırda üç günəş-elektrik stansiyası inşa edilir. Bu üç stansiyanın ümumi potensialı 340 meqavatdır.

Bu gün ölkəmizin müxtəlif yerlərində bərpaolunan enerji növləri inkişaf edir. Növbəti böyük stansiyaların açılışı Biləsuvarda, Neftçalada, Naxçıvanda, işğaldan azad edilmiş ərazilərdə nəzərdə tutulur. Bu günə qədər Qaradağ rayonunda açılıb, bu gün Xızı, Abşeron rayonlarında. Yəni Azərbaycanın coğrafi vəziyyəti elədir ki, istənilən bölgədə bərpaolunan enerji növlərini istehsal etmək mümkündür. Mən hələ Xəzər dənizinin potensialını demirəm. Xəzər dənizinin Azərbaycan sektorundakı külək potensialı beynəlxalq qiymətləndirməyə görə, 157 qiqavat səviyyəsindədir. Yəni növbəti illərdə artıq bu proses Azərbaycanda geniş vüsət alacaq. Azərbaycan bölgənin çox etibarlı və böyük elektrik generasiya gücünə malik ölkəsi olacaq. Mən buna şübhə etmirəm. Ona görə xarici investorları həm bu sahəyə, həm də böyük həcmdə elektrik enerjisi tələb edən digər sahələrə dəvət edirəm. Xüsusilə süni intellekt, data mərkəzlərinin yaradılması və böyük enerji gücünə tələbat olan digər sahələrə investisiya qoymağa dəvət edirəm. O cümlədən Azərbaycan şirkətlərini də".

2-3

# Haqlı və güclü olmağın Azərbaycan nümunəsi

## 2025-ci il ölkəmizin xarici siyasətində yüksək uğurlarla yadda qaldı



Prezident İlham Əliyevin müxtəlif nüfuzlu platformalardan ölkəmizin həqiqətlərini dünyaya çatdırması, istər Nyu Yorkda BMT Baş Assambleyasının 80-ci sessiyası, istər Azərbaycanın evsahibliyi etdiyi Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının Qəbələdə keçirilən 12-ci Zirvə Görüşü zamanı etdiyi çıxışlar, istərsə də Kopenhagendə keçirilən "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə toplantısındakı mühüm görüşləri zamanı verdiyi mesajlar ölkəmizin xarici siyasətindəki uğurlar silsiləsinə aiddir. Regionda dayanıqlı sülh mühitinin formalaşdırılmasında şəxsi rolu olan Prezident İlham Əliyevin ötən il ABŞ Prezidenti Donald Trampın və Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisinin dəvəti ilə Yaxın Şərq Sülh Sammitində iştirak etməsi də təsadüfi xarakter daşımırdı. Bütün bu sadalananlar ölkəmizin beynəlxalq mövqeyinin xeyli möhkəmlənməsinin və Azərbaycana olan beynəlxalq etimadın göstəricisidir. ABŞ, Çin kimi dünyanın siyasi, iqtisadi güc mərkəzlərinin, eləcə də aparıcı ölkələrinin Azərbaycanla əməkdaşlıq etməkdə maraqlı olmaları dövlətimizin yürütdüyü çoxşaxəli xarici siyasətin bəhrəsidir. Bu mənada ötən il də Azərbaycanın xarici siyasətində qazanılan bol uğurlarla yadda qaldı.

8

## Diplomatik nailiyyətlərin zirvəyə çatdığı il



Prezident İlham Əliyevin müsahibəsində toxunduğu mühüm xarici siyasət uğurlarından biri də Azərbaycanın Mərkəzi Asiya Məşvərət Şurasına tamhüquqlu üzv seçilməsi olub. Dövlət başçısı bu hadisəni əlamətdar siyasi-diplomatik nailiyyət kimi dəyərləndirib. O qeyd edib ki, Azərbaycan coğrafi baxımdan Cənubi Qafqazda yerləşsə də, Mərkəzi Asiya ölkələri ilə həm ikitərəfli, həm də çoxtərəfli formatlarda qurulan sıx münasibətlər və son illərdə həyata keçirilən çoxsaylı birgə layihələr bu qərarın əsasını təşkil edib. Məhz bu ardıcıl və məqsədyönlü siyasətin nəticəsi olaraq Mərkəzi Asiya dövlətləri Məşvərət Şurasına yekdilliklə Azərbaycanın tamhüquqlu üzvlüyünü dəstəkləyiblər.

7

## 907-ci düzəlişin ləğvi ABŞ-Azərbaycan münasibətlərini sağlamlaşdıra bilər



Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmizin özünün ən qüdrətli dönəminə qədəm qoyduğunu qeyd edən deputat deyib ki, siyasi və iqtisadi müstəqilliyi, o cümlədən milli iradə tərəfindən idarə olunması Azərbaycan Respublikasına müasir reallıqları sağlam formada dəyərləndirməyə imkan verir və müstəqilliyini, ərazi bütövlüyünü, konstitusiya quruluşunu, xalqın və ölkənin milli maraqlarını daxili və xarici təhdidlərdən qorumağa yönəlmiş siyasətinin məqsəd, prinsip və yanaşmalarını bütün rakurslardan müəyyənləşdirə bilib.

6

## Zəngəzur dəhlizi - regional və qlobal miqyasda yeni əməkdaşlıq imkanları yaradan layihə



Bu gün Zəngəzur dəhlizinin (TRIIP) tikintisi region üçün yeni mərhələnin başlanğıcı kimi qiymətləndirilir. Uzun illər bağlı qalmış nəqliyyat-kommunikasiya xətlərinin bərpası texniki məsələ olmaqla yanaşı, iqtisadi və siyasi baxımdan da mühüm addımdır. Layihənin reallaşması yük və sərnişin daşımalarını sürətləndirəcək, tranzit imkanlarını genişləndirəcək və regionu beynəlxalq ticarət marşrutlarının vacib halqasına çevirəcək. Logistika xərclərinin azalması, tranzit vaxtının qısalması və alternativ marşrutların formalaşması nəticəsində region ölkələri üçün yeni iqtisadi imkanlar yaranacaq.

8

# Son 20 ilin növbəti tarixi rekordu

## Prezident İlham Əliyev "Xızı-Abşeron" Külək-Elektrik Stansiyasının rəsmi açılış mərasimində iştirak edib

**Yanvarın 8-də Bakıda, "Gülüstan" sarayında Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkəti tərəfindən inşa edilmiş 240 MVt gücündə "Xızı-Abşeron" Külək-Elektrik Stansiyasının rəsmi açılış mərasimi keçirilib.**

**AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə çıxış etdi.**






### Prezident İlham Əliyevin çıxışı

- Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar!

Sizin hamınızı ürəkdən salamlayıram. Bu gün ölkəmizin həyatında əlamətdar bir gündür. "Xızı-Abşeron" Külək-Elektrik Stansiyasının istismara verilməsini qeyd edirik. Bu, çox önəmli hadisədir. Ölkəmizin enerji potensialını gücləndirəcək stansiya bu gün artıq fəaliyyətə başlayır. Əminəm ki, 240 meqavat gücündə stansiya ölkəmizin ümumi inkişafına öz töhfəsini verəcəkdir.

Mən yaxşı xatırlayıram ki, düz dörd il bundan əvvəl - 2022-ci ilin yanvar ayında bu salonda bu stansiyanın təməlini qoymuşduq. Bu illər ərzində fəal iş aparılmışdır və bu gün biz bu gözəl hadisəni birlikdə qeyd edirik. İlk növbədə bu stansiyanın tikintisində əməyi keçmiş bütün insanlara, şirkətlərə təşəkkürümü bildirmək istəyirəm, ilk növbədə investor olan "ACWA Power" şirkətinə, onun rəhbərliyinə. Bu, "ACWA Power" tərəfindən Azərbaycanda inşa edilmiş birinci bərpaolunan elektrik stansiyasıdır, ancaq sonuncu deyil. Şirkətin daha böyük planları var və Azərbaycan dövləti bu planları tam dəstəkləyir. Onu da bildirməliyəm ki, "ACWA Power" şirkəti bu sahədə dünyada aparıcı şirkətlərdən biridir və eyni zamanda Azərbaycan qurumları ilə əməkdaşlıq əsasında yeni layihələrin icra edilməsində maraqlıdır. O cümlədən ölkəmizdə ilk dəfə inşa ediləcək Xəzər dənizinin suyunun duzsuzlaşdırılması layihəsini də yenə də bu şirkət investor kimi icra edəcəkdir.

Bu stansiyanın tikintisində baş podratçı kimi iştirak edən "Power China" şirkətinin fəaliyyətini qeyd etməliyəm. Bu şirkət bu layihədə podratçı kimi iştirak edir, ancaq digər layihələrdə, o cümlədən investor kimi iştirak edəcək. Əminəm ki, bu şirkətin nəzərdə tutduğu bütün planları Azərbaycanda həyata keçəcəkdir.

Təbii ki, Azərbaycan energetiklərinin əməyini qiymətləndirməliyəm. Çünki son illər ərzində ölkəmizdə yeni generasiya güclərinin istismara verilməsi həm çox mürəkkəb, həm məsuliyyətli bir prosesdir. O cümlədən bərpaolunan enerji növlərinin böyük həcmdə ümumi enerji sistemimizə inteqrasiya etməsi də, əlbəttə ki, böyük peşəkarlıq tələb edir, böyük vəsait tələb edir. Nəzərə alsaq ki, bundan sonrakı illərdə bərpaolunan enerji stansiyalarının Azərbaycanda tikintisi çox geniş vüsət alacaq, əlbəttə, Azərbaycan energetiklərinin fəaliyyəti daim yüksək səviyyədə olmalıdır. Yəni burada biz çox uğurlu beynəlxalq əməkdaşlıq nümunəsini görürük. Onu da bildirməliyəm ki, bundan sonra bərpaolunan enerji növlərinin yaradılması ilə daha çox xarici investorlar məşğul olacaqlar. Halbuki Azərbaycan şirkətləri də bu məsələyə maraq göstərməyə başlamışlar və artıq bir neçə günəş-elektrik stansiyasının tikintisinə də başlanılmışdır.

Bütövlükdə deyə bilərəm ki, Azərbaycanda enerji sisteminin müasirləşdirilməsi, modernləşdirilməsi, inkişafı son illər ərzində əsas prioritetlərdən biri kimi qəbul edilmişdir. Demək olar ki, son 20 il ərzində bizim enerji sistemimiz, yəni generasiya gücləri, böyük dərəcəli yarımstansiyalar və ötürücü xətlər tamamilə yenilənmişdir.

Son 20 il ərzində ölkəmizdə yaradılmış generasiya gücləri bütün əvvəlki dövrlə müqayisədə təxminən üç dəfə artmışdır. Bu gün bizim generasiya gücümüz təxminən 10 min meqavata bərabərdir. Bu, əgər belə demək mümkündürsə, tarixi rekorddur. Ancaq nəzərə alsaq ki, bundan sonra növbəti illər ərzində bir çox yeni bərpaolunan enerji generasiya gücü yaradılacaq, əlbəttə ki, bu rəqəm daha da artacaq və bizə imkan verəcək ki, həm artan daxili tələbatı lazımi səviyyədə təmin edək, həm də elektrik enerjisini daha böyük həcmdə ixrac edək.

Onu da bildirməliyəm ki, keçən il Mingəçevirdə yeni elektrik stansiyasının açılışını qeyd edərkən bir daha əmin olduq ki, Azərbaycanda bu iki proses, yəni ənənəvi generasiya gücləri və bərpaolunan generasiya gücləri paralel şəkildə aparılmalıdır. Ancaq o təqdirdə biz istədiyimiz nəticəyə nail ola bilərik. Keçən il Mingəçevirdə istismara verilmiş ənənəvi elektrik stansiyasının generasiya gücü təxminən 2000 meqavata bərabərdir və bu gün Azərbaycan enerji təminatı, enerji təhlükəsizliyi nöqteyi-nəzərindən özünü çox rahat hiss edir. Bu yaxınlarda 230 meqavat gücündə günəş-elektrik stansiyası istismara verilmişdir. Bu gün 240 meqavat gücündə külək-elektrik stansiyası, işğaldan azad edilmiş ərazilərdə - Cəbrayıl rayonunda hazırda üç günəş-elektrik stansiyası inşa edilir. Bu üç stansiyanın ümumi potensialı 340 meqavatdır.

Bu gün ölkəmizin müxtəlif yerlərində bərpaolunan enerji növləri inkişaf edir. Növbəti böyük stansiyaların açılışı Biləsuvarda, Neftçalada, Naxçıvanda, işğaldan azad edilmiş ərazilərdə nəzərdə tutulur. Bu günə qədər Qaradağ rayonunda açılıb, bu gün Xızı, Abşeron rayonlarında. Yəni Azərbaycanın coğrafi vəziyyəti elədir ki, istənilən bölgədə bərpaolunan enerji növlərini istehsal etmək mümkündür. Mən hələ Xəzər dənizinin potensialını demirəm. Xəzər dənizinin Azərbaycan sektorundakı külək potensialı beynəlxalq qiymətləndirməyə görə, 157 qiqavat səviyyəsindədir. Yəni növbəti illərdə artıq bu proses Azərbaycanda geniş vüsət alacaq. Azərbaycan bölgənin çox etibarlı və böyük elektrik generasiya gücünə malik ölkəsi olacaq. Mən buna şübhə etmirəm. Ona görə xarici investorları həm bu sahəyə, həm də böyük həcmdə elektrik enerjisi tələb edən digər sahələrə dəvət edirəm. Xüsusilə süni intellekt, data mərkəzlərinin yaradılması və böyük enerji gücünə tələbat olan digər sahələrə investisiya qoymağa dəvət edirəm. O cümlədən Azərbaycan şirkətlərini də.

Ölkəmizdə gözəl investisiya iqlimi vardır. Biz ölkəmizə 300 milyard dollardan çox xarici sərmayə cəlb edə bilmişik. Bu gün ölkəmizin maliyyə vəziyyəti çox müsbətdir. Mən bu yaxınlarda bu məsələ ilə bağlı geniş danışmışam. Sadəcə olaraq, onu bildirməliyəm ki, bizim bu sahədə apardığımız islahatlar, əldə edilmiş uğurlar dünyanın aparıcı reytinq agentlikləri tərəfindən də qiymətləndirilir. Təsadüfi deyil ki, bu gün bizim kredit reytinqimiz daha da artırılıb, investisiya və müsbət proqnozu olan reytinq səviyyəsinə qaldırılıb.

Bizim xarici borcumuz çox aşağı səviyyədədir, ümumi daxili məhsulumuzun təqribən 6 faizindən bir qədər çoxdur. Valyuta ehtiyatlarımız xarici borcu 16-17 dəfə üstələyir və bu göstəriciyə görə, Azərbaycan dünya miqyasında aparıcı ölkələr sırasındadır. Yəni bütün bu və başqa amillər deməyə əsas verir ki, Azərbaycana qoyulan sərmayə xeyir gətirəcək, mənfəət gətirəcək. Bu gün Azərbaycan sərmayə qoyuluşu üçün çox gözəl bir məkandır. Ölkəmizdə siyasi, iqtisadi və sosial sabitlik hökm sürür. Beş ildir ki, ölkəmiz rəsmən sülh şəraitində yaşayır, ölkəmizdə genişmiqyaslı quruculuq işləri aparılır. Ona görə bugünkü mərasimin timsalında xarici şirkətlərin bizə olan inamını da görürük və bu inam tam əsaslıdır.

Gələcək planlarla bağlı. Nəzərə alsaq ki, bizdə bərpaolunan enerji potensialı çox artacaq, əlbəttə, biz bu enerjini saxlamaq üçün infrastruktur yaratmalıyıq. Bu məqsədlə ölkəmizdə tarixdə ilk dəfə olaraq Batareya Enerji Saxlanc Sistemi də yaradılır. Birinci layihə 250 meqavatlıqdır. Bunu "Azərenerji" öz vəsaiti hesabına icra edir. Ancaq bizim artan potensialımız tələb edəcək ki, belə Batareya Enerji Saxlanc sistemlərinin sayı daha da çoxalsın və mən xarici investorları da bu işə dəvət edirəm.

Generasiya gücləri ilə bağlı isə təkcə bunu demək kifayətdir ki, imzalanmış kontraktlar əsasında 2030-cu ilə qədər 6, 2032-ci ilə qədər isə, ümumiyyətlə, 8 qiqavat gücündə külək və günəş-elektrik stansiyaları inşa ediləcək. Əgər biz su-elektrik stansiyalarının potensialını əlavə etsək, bizim potensialımız, təbii ki, daha da böyüyəcək. Biz son beş il ərzində Qarabağda və Şərqi Zəngəzurda dövlət vəsaiti hesabına 40-a yaxın kiçik su-elektrik stansiyası inşa etmişik. Bu gün onların ümumi potensialı 300 meqavatdan çoxdur.

Azad edilmiş ərazilərin potensial su-elektrik stansiyalarının xəritəsi də tərtib edilib və ancaq o bölgədə biz təqribən 500, bəlkə də 600 meqavat gücündə kiçik su-elektrik stansiyalarını inşa edəcəyik. Demək olar ki, bunun yarısı artıq hazırdır və bütün ölkə, o cümlədən azad edilmiş ərazilər vahid şəbəkə ilə birləşdirilib və enerji axınının istənilən istiqamətə göndərilməsi, qəbul edilməsi də təmin olunubdur.

Bu gün isə biz bu gözəl hadisəni qeyd etməklə həm görülmüş işlərə bir növ yekun vururuq və ən əsası gələcək planlarla bağlı da öz baxışlarımızı bölüşürük. Çünki yenə də deyirəm, Azərbaycanda bərpaolunan enerji növlərinin yaradılması xarici investorlar tərəfindən həyata keçirilən genişmiqyaslı layihələrdir. Bu layihələrə bu günə qədər 100 milyonlarla dollar vəsait qoyulub. Mən bir daha həm xarici, həm yerli investorların fəaliyyətini bu qərara görə qiymətləndirirəm və onlara bir daha deyirəm ki, Azərbaycana sərmayə qoyun. Azərbaycan dövləti xarici sərmayələri daim qoruyur, bizim bir çox neft kontraktlarımız artıq uzun illərdir icra edilir və qəbul edilmiş qərarlarda, kontraktlarda bir dənə də olsun nəinki paraqraf, nəinki maddə, hətta bir söz də dəyişilmir və dəyişilməyəcək. Bu da xarici investorları ölkəmizə cəlb etmək üçün çox vacib bir amildir. Çünki Azərbaycan etibarlı dövlətdir. Sözümüz imzamız qədər dəyərlidir və qanunidir.

Bütövlükdə energetika sahəsində gedən proseslərə nəzər saldıqda görürük ki, bu gün bəlkə də enerji təhlükəsizliyi məsələləri daha qabarıq şəkildə ortaya çıxır. Biz uzun illərdir bu istiqamətdə fəaliyyət göstəririk. Bizim neft ixracımız, qaz ixracımız, neft məhsullarının ixracı, elektrik enerjisinin ixracı, neft-kimya məhsullarının, gübrələrin ixracı bu gün bir çox ölkələr üçün, onların enerji təhlükəsizliyini təmin etmək üçün imkan yaradır. Azərbaycan burada çox məsuliyyətli və etibarlı tərəfdaş kimi özünü göstərir, dünya miqyasında gözəl imic və etibarlı tərəfdaş adı qazanmışdır.

Əziz dostlar, bu gözəl hadisə münasibətilə sizi bir daha təbrik edirəm. Stansiyanın fəaliyyətinə uğurlar arzulayıram. Sağ olun.

❖ ❖ ❖

Səudiyyə Ərəbistanı Krallığının energetika nazirinin müavini **Nasser Əl-Qahtani** çıxış edərək dedi:

- Zati-aliləri, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Zati-aliləri Prezident İlham Əliyevin iştirakı ilə "Xızı-Abşeron" Külək-Elektrik Stansiyasının bu gün açılışında sizinlə olmaq şərəfdir.

Bərpaolunan enerji sahəsində bu aparıcı layihə Səudiyyə Ərəbistanı Krallığı ilə Azərbaycan Respublikası arasında tərəfdaşlığın gücünü və dərinliyini nümayiş etdirir. Krallıq bunları, bu tərəfdaşlığı xüsusən energetika sahəsində uzunmüddətli strateji münasibətlər kimi görür. Tərəfdaşlığımız daha geniş, sistemli əməkdaşlığa doğru fərdi layihələrin hüdudlarını keçir. Mövcud çərçivə sazişlərində əlavə külək gücləri, o cümlədən elektrik enerji şəbəkəsinin çevikliyini və etibarlılığını artırmaq üçün batareyalarda enerji saxlanılması sistemləri əsasında quruda və dənizdə həyata keçiriləcək layihələri nəzərdə tutan uzunmüddətli inkişaf yolu əks olunur. Bu, dayanıqlı energetika sistemlərinin planlaşdırılması və inkişafı sahəsində ümumi öhdəliyimizi göstərir. Əməkdaşlığımız enerji istehsalından əlavə, həmçinin elektrik enerjisinin ötürülməsini, şəbəkənin inteqrasiyasını və kadr hazırlığını əhatə edir. Krallıq enerji stansiyaları sisteminin planlaşdırılması, bərpaolunan enerjinin şəbəkəyə daxil edilməsi və enerjinin ötürülməsi işlərinin inkişafında ekspert biliklərini Azərbaycanla mübadilə etmək üçün ölkənizlə sıx çalışır.

Biz həmçinin regional enerji təhlükəsizliyini artıra biləcək, təmiz enerjinin daha geniş bazarlara ixracını mümkün edəcək regional interkonnektor təşəbbüsləri, həmçinin "yaşıl dəhliz" üzrə əməkdaşlıq üçün geniş imkanlar görürük.

Biz həmçinin gələcək təşəbbüsləri, o cümlədən planlaşdırılan 200 meqavatlıq külək enerjisinin genişləndirilməsi layihəsində enerjinin batareyada tam yığılmasında və nəhayət, regional və beynəlxalq tərəfdaşlarla əməkdaşlıq edərək Xəzərdə külək potensialının qiymətləndirilməsində əldə olunmuş irəliləyişi alqışlayırıq. Bu təşəbbüslər güclü tərəfdaşlıq və etibarlı texniki təməl əsasında Azərbaycanı regional təmiz enerji qovşağına çevirməkdə ümumi məqsədimizin təzahürüdür.

Zati-aliləri, "Xızı-Abşeron" Külək-Elektrik Stansiyası layihəsi aydın mesaj verir ki, Səudiyyə Ərəbistanı və Azərbaycan nəinki bugünkü enerji layihələrinin icrasında, o cümlədən dayanıqlı enerji sistemlərinin gələcəyində tərəfdaşdırlar. Burada qarşılıqlı etimad, güclü təsisatlar, həmçinin iqtisadi inkişaf, enerji təhlükəsizliyi və ətraf mühit üzrə məsuliyyət sahələrində ümumi öhdəliklər nəzərdə tutulur.

Səudiyyə Ərəbistanı Krallığının Hökuməti adından mən Azərbaycan Respublikasının Hökumətinə, tərəfdaşlarımıza, həmçinin bu layihənin uğurlu olmasına töhfə vermiş bütün şəxslərə dərin təşəkkürümüzü çatdırıram. Biz gələn illərdə bu əməkdaşlığı daha yüksək səviyyədə davam etdirməyi və tərəfdaşlığımızı inkişaf etdirməyi səmimiyyətlə arzulayırıq. Sağ olun.

❖ ❖ ❖

Sonra Çin Xalq Respublikasının Azərbaycandakı səfiri xanım **Lu Mey** çıxış edərək dedi:

- Hörmətli Prezident, Zati-aliləri!

Hörmətli qonaqlar, xanımlar və cənablar, salam, sabahınız xeyir.

240 meqavatlıq "Xızı-Abşeron" Külək-Elektrik Stansiyasının rəsmi açılışında iştirak etməkdən olduqca məmnunam. Bu, böyük nailiyyətdir və bərpaolunan enerji sektorunda Çin, Azərbaycan və Səudiyyə Ərəbistanının uğurlu əməkdaşlığının bariz nümunəsidir. Mən belə bir mühüm layihənin həyata keçirilməsinə görə Azərbaycandakı Çin səfirliyi adından sizə təbriklərimi çatdırıram. Belə bir mühüm layihənin həyata keçirilməsinə dəstək vermiş bütün dostlara, yorulmadan çalışan və uğurlar qazanan bütün tərəflərə səmimi təşəkkürümü bildirirəm. Burada Çinin "Power China", Səudiyyə Ərəbistanının "ACWA Power" şirkətlərinə minnətdaram ki, onlar bu inanılmaz uğurun qazanılmasında yorulmaz fəaliyyət göstərmişlər. "Yaşıl keçid" və dayanıqlı inkişaf həm Çin, həm də Azərbaycan üçün prioritetdir. Hər iki tərəf məhz "yaşıl" və aşağıkarbonlu inkişaf, enerjinin inkişafı sahəsində Anlaşma Memorandumu imzalamışlar. Azərbaycan COP29 tədbirinə uğurla sədrlik etmişdir və o vaxtdan etibarən "yaşıl enerji" sahəsində inkişafa sadiq qalır. Bu, həmçinin aparıcı qlobal "yaşıl enerji"nin inkişafında Azərbaycanın çox mühüm rolunu göstərir.

Çin və Azərbaycan bu gün yaxşı dostlar və etibarlı tərəfdaşlardır. İllər boyu müxtəlif sahələrdə aparılan məhsuldar əməkdaşlıq bizim hərtərəfli münasibətlərimizin inkişafına böyük təkan vermişdir və xalqlarımızın faydasına xidmət edir. Prezident İlham Əliyev ötən il Çinə iki dəfə səfər etmişdir və Sədr Si Cinpin ilə hərtərəfli strateji tərəfdaşlığın məhz qurulması ilə bağlı Birgə Bəyannaməyə imza atmışdır. Beləliklə, iki ölkə arasında münasibətlərdə yeni bir səhifə açılmışdır. Məhz Sədr Si Cinpinin və Prezident İlham Əliyevin birgə rəhbərliyi ilə Çin və Azərbaycan əhatəli strateji tərəfdaşlığı inkişaf etdirir. Bu işlər sürətlə gedir. Bu, siyasi qarşılıqlı iradəyə əsaslanır və bizim praqmatik əməkdaşlığımız tarixən ən yüksək səviyyəyə çatmışdır.

*Ardı 3-cü səh.*

# Son 20 ilin növbəti tarixi rekordu

## Prezident İlham Əliyev "Xızı-Abşeron" Külək-Elektrik Stansiyasının rəsmi açılış mərasimində iştirak edib













*Əvvəli 2-ci səh.*

Məhz ikitərəfli iqtisadi-ticari əməkdaşlığımızın miqyasına gəldikdə, bu gün o davam edir, infrastruktur, "yaşıl enerji", rəqəmsal innovasiyalar və maşınqayırma sahələrinə investisiyalar yatırılır. Biz "Bir kəmər, bir yol" layihəsində də çox yüksək səviyyədə əməkdaşlıq edirik. O cümlədən Çin-Avropa dəmir yolu bağlantısı və Trans-Xəzər dəhlizi istiqamətində işlər sürətlə davam edir və burada Azərbaycanın rolu güclənir.

Prezident İlham Əliyevin ilin yekunları ilə bağlı mətbuata verdiyi müsahibəsində qeyd edildiyi kimi, Çin şirkətləri Azərbaycanda bərpaolunan enerjinin inkişafı sahəsində fəaldırlar və Azərbaycan Çin şirkətlərini strateji tərəfdaş kimi seçib. Bu da onların peşəkarlığı, işinin keyfiyyəti və layihənin sürətlə icra olunması ilə bağlıdır. Bu layihə, əslində, Azərbaycanda həyata keçirilən ilk və çox böyük külək elektrik enerjisi layihəsidir. Bir halda ki, bu artıq istismara verilir, deməli, 300 minə yaxın ailə məhz bundan faydalanacaqdır. Bu, Azərbaycanın, həmçinin regionun səmərəli və davamlı inkişafına dəstək olacaqdır.

"Yaşıl inkişaf" hər zaman Çində müasirləşmənin bir hissəsi olubdur. Biz artıq XV beşillik planımıza başladığımız bir vaxtda Çin "yaşıl enerjinin" inkişafını prioritetləşdirən məsələlərə xüsusi diqqət yetirir. Çin iqtisadiyyatı qlobal səviyyədə artır və daha dayanıqlı şəkildə inkişaf edir. Çinin elm və texnologiya sahəsində dayanıqlı şəkildə əldə etdiyi nailiyyətlər bu gün qlobal iqtisadiyyata yeni bir güc gətirir. Ən vacibi isə odur ki, Çinin texnoloji innovasiyası inklüzivdir və hamı üçün açıqdır. Buna görə də biz istərdik ki, Çinin inkişaf imkanlarını da sizinlə bölüşək, Azərbaycanla və Səudiyyə Ərəbistanı ilə mübadilə edək.

Yekun olaraq vacib bir məsələni qeyd edim. 2026-cı ili biz "At İli" kimi qeyd edirik. Çin mədəniyyətində bu, uğur deməkdir. Biz bu ildə Azərbaycana da uğur arzu edirik. Bir halda ki, at varsa və həmin ünvana gəlirsə, deməli, o, özü ilə uğur gətirir. İstərdik ki, Azərbaycanda da uğurlar bol olsun.

Çox sağ olun.

❖ ❖ ❖

Daha sonra "ACWA Power" şirkətinin təsisçisi və İcraçı direktoru **Məhəmməd Əbunəyyan** çıxış edərək dedi:

- Zati-aliləri!

Sizin qarşınızda çıxış etməkdən böyük şərəf və sevinc hissi duyuram. Olduqca mühüm bir layihədə iştirak edirik. Bu layihə Sizin rəhbərliyinizlə həyata keçirildi.

Cənab Prezident, Azərbaycan çox xoşbəxtdir ki, Sizin kimi rəhbəri var. Uzaqgörənliyi ilə seçilən şəxs kimi Siz islahatların necə aparılmasında, inkişafın necə təmin edilməsində, insanların, vətəndaşların həyatının yaxşılaşdırılmasında ən yaxşı nümunəsiniz. Bunlarla ölkəniz çox böyük nailiyyətlərə imza atmışdır. Onlar çox yüksəksəviyyəli nəticələrdir və məhz "yaşıl enerji" də bu istiqamətdə inkişaf etmişdir. Bu gün biz artıq başa çatdırılmış işi qeyd edirik və "yaşıl enerji" sahəsində bu addımı atırıq.

İcazənizlə, cənab Prezident, mən əvvəlki dövrə qayıdım. COP29-da Siz çox mühüm bir çıxış etdiniz. Müxtəlif tərəflər müəyyən strategiyalar haqqında danışırdılar, fikirlərini bölüşürdülər. Amma Siz söylədiniz ki, dünya ən yaxşı formada necə inkişaf etməlidir, hansı istiqamətdə getməlidir. Siz qeyd etdiniz ki, bu, məhz müxtəlif enerjilərin ümumi kombinasiyası sayəsində mümkündür. Düşünürük ki, bu, ümumiyyətlə, Azərbaycanın zəngin ehtiyatları ilə yanaşı, qlobal inkişafa verdiyi çox yaxşı bir töhfə idi. Bu da, əslində, böyük bir üstünlükdür ki, Azərbaycan belə zəngin ehtiyatlara malikdir. Siz öz açılış nitqinizdə bunu qeyd etdiniz və məhz bir neçə qiqavatlıq güclər haqqında danışdınız.

Cənab Prezident, Siz bu planı müəyyən etdiniz. Siz ölkənizdə həmin bu ekosistemi yaradırsınız. Əslində, bu addımları atmaqla, bu işləri görməklə Siz Azərbaycana gələn hər bir xarici sərmayədar üçün əlverişli mühit yaradır, onların işlərini daha da asanlaşdırırsınız. Buna görə də ölkələrimizin bu qədər sıx münasibətlər qurmasına müvəffəq olursunuz. Ona görə də bizim kimi insanlar Sizin ölkənizə gəldikdən və fəaliyyət göstərdikdən sonra Azərbaycanın nailiyyətlərinin, uğurlarının carçısına çevrilirik. Biz burada - Azərbaycanda ona görəyik ki, Siz çox gözəl rəhbərlik keyfiyyətlərinizi göstərirsiniz və dünyada hər bir kəsin maraqlarına xidmət edəcək vacib qərarlar qəbul edirsiniz. Sizin rəhbərlik etdiyiniz Azərbaycan çox gözəl ölkədir. Azərbaycan xalqı çox qonaqpərvərdir və uğur hər zaman sizinlə olacaqdır.

Cənab Prezident, bu "yaşıl enerji" layihəsi məhz Sizin planınız əsasında həyata keçirildi və gördüyünüz kimi, biz bunu yerlərdə işləyərək reallığa çevirdik. Əlbəttə ki, bu, həmçinin "yaşıl enerji"nin gələcək inkişafı ilə bağlı məsələdir.

Mən çox əminəm ki, Azərbaycan böyük ölkə kimi bundan sonra da bir tərəfdən, neft və qaz ixracatçısı, digər tərəfdən, "yaşıl enerji" ixracatçısı olacaqdır. Buna görə də kralımızın və şahzadəmizin rəhbərliyi, onların təlimatları ilə bu enerji imkanlarını genişləndiririk və görürük ki, biz dünyada ən iri neft hasilatçısı olmaqla yanaşı, həmçinin "yaşıl enerji" sahəsində də irəlidə gedirik. Cənab Prezident, əlbəttə ki, bu işdə Sizin rəhbərliyiniz çox labüd və lazımlı idi. Biz görürük ki, məhz düzgün rəhbərlik olanda hər bir ölkənin xalqı rifah içində yaşayır və uğurlar qazanılır.

Cənab Prezident, biz bu gün buraya bu layihənin açılışı münasibətilə gəldik. Biz buraya gəldik, öz uğurlarımızı bölüşdük, bütün məsələləri həll etdik. Cənab Prezident, Siz öz rəhbərliyinizlə bizi çox şərəfləndirdiniz. Biz hamımız bir araya gəldik, layihə çərçivəsində çalışdıq, əl-ələ verdik ki, bu uğur əldə olunsun və bu gün həmin uğur artıq göz qabağındadır. Biz onu burada qeyd edirik. Bu, bizim tərəfdaşlığımızın və nümunəvi işgüzar münasibətlərimizin yaxşı bir göstəricisidir. Energetika Nazirliyinin bu işdə bizim etibarlı tərəfdaşımız olmağından çox məmnunuq.

Cənab Prezident, Sizə təşəkkürümüzü bildiririk. O cümlədən Çin şirkətlərinə minnətdarıq ki, onlar da bizimlə birgə işlədilər. Mən həmçinin Azərbaycan şirkətlərinə də minnətdarlığımı bildirirəm. Onlar da təchizat zəncirində bizə dəstək verdilər, digər xidmətləri göstərdilər. Cənab Prezident, biz "ACWA Power" şirkəti olaraq şahzadəmizin və energetika nazirimizin rəhbərliyi ilə sizin müəyyənləşdirdiyiniz planları həyata keçirdik və əlimizdən gələni edəcəyik ki, bütün bu texnologiyalar burada tətbiq edilsin. Çünki Sizin rəhbərliyinizlə Azərbaycan strateji baxımdan irəliyə doğru getməlidir. Bununla bağlı bizim məhdudiyyətlərimiz yoxdur və planlarımız davam edir. Çünki ölkələrimizin gözəl rəhbərləri var və cənab Prezident, biz xoşbəxtik ki, burada - Azərbaycandayıq. Biz xoşbəxtik ki, Siz bizə etimad göstərmisiniz. Siz bizə bu fürsəti yaratdınız. Siz bizə öz dəstəyinizi göstərdiniz.

Biz həmçinin burada duzsuzlaşdırma layihəsi ilə bağlı məsələləri də müəyyən etdik. Qeyd etdik ki, bu da bizim növbəti gözəl layihəmiz ola bilər. Biz bu nadir layihəni Xəzər dənizində icra edəcəyik. Dünyada bir çox ölkələr bu kimi layihələri hələ həyata keçirməyib.

Cənab Prezident, Siz həmçinin su ehtiyatlarının təhlükəsizliyi haqqında düşünürsünüz. Bu haqda hələ heç bir tərəf düşünmür. Lakin biz buradayıq, biz sizin ölkənizi və xalqınızı sevirik. Sizə hər bir məsələdə uğurlar arzu edirik. İstərdik ki, bu planlar reallığa çevrilsin, hətta hələ digər tərəflərin görmədiyi, hazırlaşmadığı bu planları, bu işləri Sizinlə birgə həyata keçirək və hər hansı bir böhrandan sığortalanaq. Təbii ki, bilirik, Azərbaycanı bu gün bu gözəl vəziyyətdə saxlayan məhz Sizsiniz. Sizin rəhbərliyiniz nəinki bu region üçün, bütün dünya üçün ən yaxşı nümunədir. Siz göstərirsiniz ki, uğur uğurun üzərində dayanır. Siz ölkəniz, xalqınız üçün çalışırsınız. Biz Sizə minnətdarıq.

Cənab Prezident, təşəkkür edirik ki, bu gün bu tədbirdə Sizinlə olmaq fürsətini bizə yaratdınız. Təşəkkür edirik ki, bizimləsiniz və arzu edirik ki, bundan sonra da biz digər layihələrin həyata keçirilməsində uğurları birlikdə qeyd edək. Azərbaycanla tərəfdaşlıqdan və uğurlu əməkdaşlıqdan qürur hissi duyuruq.

❖ ❖ ❖

Daha sonra "Xızı-Abşeron" Külək-Elektrik Stansiyası layihəsi haqqında qısa videoçarx nümayiş olunub.

❖ ❖ ❖

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və "ACWA Power" şirkətinin təsisçisi və İcraçı direktoru Məhəmməd Əbunəyyan 240 MVt gücündə "Xızı-Abşeron" Külək-Elektrik Stansiyasını işə saldılar.

❖ ❖ ❖

Qeyd edək ki, bu stansiyanın tikintisi üçün Abşeron rayonunda 14,2, Xızı rayonunda isə 22,6 hektar olmaqla ümumilikdə 37 hektara yaxın torpaq sahəsi bərpaolunan enerji mənbələrinin ərazisi müəyyən edilib. Layihə üzrə burada hər biri 6,5 MVt olan ümumilikdə 37, o cümlədən Abşeronda 12, Xızıda 25 turbin, həmçinin ölçü-müşahidə stansiyaları, quşların mühafizəsi sistemləri quraşdırılıb. Layihənin icrasına təxminən 340 milyon ABŞ dolları xarici investisiya yönəldilib. Stansiyanın illik enerji istehsalı həcmi təqribən 1 milyard kilovat-saat nəzərdə tutulur ki, bunun da nəticəsində 220 milyon kubmetr təbii qaza qənaət olunacaq və 400 min tondan çox karbon qazının atmosferə atılmasının qarşısı alınacaq. Layihənin baş podratçısı Çinin "Power China Group"un törəmə şirkəti olan "Power China Huadong Engineering Co., Ltd."dir.

❖ ❖ ❖

Sonda birgə foto çəkdirildi.

# "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 740 (Cild I); 2024, № 1, maddələr 10, 16, № 6 (I kitab), maddə 637, № 7, maddələr 747, 751, 775, № 8, maddə 933, № 11, maddə 1187, № 12 (II kitab), maddə 1351; 2025, № 1, maddə 1, № 2, maddə 101, № 4 (I kitab), maddələr 318, 322, № 5, maddə 433, № 6, maddələr 521, 524, № 7, maddə 626; Azərbaycan Respublikasının 2025-ci il 9 dekabr tarixli 297-VIIQD nömrəli və 16 dekabr tarixli 313-VIIQD nömrəli qanunları) 9.1.20-ci maddəsinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 9.1.20-1-ci maddə əlavə edilsin:

"9.1.20-1. məişət zorakılığından zərər çəkmiş şəxsə uzunmüddətli mühafizə orderinin verilməsi barədə ərizə üzrə -məişət zorakılığından zərər çəkmiş şəxs olan ərizəçilər;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 dekabr 2025-ci il*

# "Nizamnamə kapitalında dövlətə məxsus səhmlər olan bankların və bank olmayan kredit təşkilatlarının idarə edilməsində dövlətin iştirakı qaydası haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 7 avqust tarixli 144 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Nizamnamə kapitalında dövlətə məxsus səhmlər olan bankların və bank olmayan kredit təşkilatlarının idarə edilməsində dövlətin iştirakı qaydası haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 7 avqust tarixli 144 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 8, maddə 620 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1. 1-ci hissə üzrə:

1.1. birinci abzasda "aşağıdakı dövlət orqanlarına" sözləri "aşağıdakılara" sözü ilə əvəz edilsin.

1.2. 1.1-ci və 1.2-ci bəndlər müvafiq olaraq 1.2-ci və 1.3-cü bəndlər hesab olunsun və aşağıdakı məzmunda 1.1-ci bənd əlavə edilsin:

"1.1. Azərbaycan Respublikasının Prezidentinə:

1.1.1. kredit təşkilatının yenidən təşkili və ləğvi;".

1.3. 1.2.1-ci yarımbəndə "kredit" sözündən əvvəl "Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırılmaqla," sözləri əlavə edilsin.

2. 2-ci hissədə "1.1-ci" sözləri "1.2-ci" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 yanvar 2026-cı il*

# Təhsil haqqında dövlət sənədlərinin təsvirlərinin və onların verilməsi qaydalarının təsdiq edilməsi və "Təhsil haqqında dövlət sənədlərinin nümunələri və onların verilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 29 aprel tarixli 82 nömrəli Qərarının ləğv edilməsi barədə

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 1** **Bakı şəhəri, 7 yanvar 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 18 dekabr tarixli 218-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 1 mart tarixli 203 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 5 fevral tarixli 1282 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Ali təhsil pilləsinin bakalavriat, əsas (baza ali) tibb təhsili, magistratura və rezidentura səviyyələrində təhsil haqqında dövlət sənədlərinin təsvirləri və onların verilməsi Qaydası" təsdiq edilsin (əlavə olunur).

2. Orta ixtisas təhsili haqqında dövlət sənədlərinin təsvirləri və onların verilməsi Qaydası təsdiq edilsin *(əlavə olunur)*.

3. Peşə təhsili haqqında dövlət sənədlərinin təsvirləri və onların verilməsi Qaydası" təsdiq edilsin *(əlavə olunur)*.

4. Ümumi təhsil haqqında dövlət sənədlərinin təsvirləri və onların verilməsi Qaydası" təsdiq edilsin *(əlavə olunur)*.

5. "Təhsil haqqında dövlət sənədlərinin nümunələri və onların verilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 29 aprel tarixli 82 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 4, maddə 372, (Cild I); 2025, № 9, maddə 858) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə*
*www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# "Müxtəlif səbəblərdən təhsilin hər hansı pilləsini və səviyyəsini başa vurmayan şəxslərə arayışın verilməsi Qaydası"nın təsdiq edilməsi və "Müxtəlif səbəblərdən təhsilin hər hansı pilləsini və səviyyəsini başa vurmayan şəxslərə arayışın verilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 21 yanvar tarixli 12 nömrəli Qərarının ləğv edilməsi barədə

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 2** **Bakı şəhəri, 7 yanvar 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 18 dekabr tarixli 218-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 1 mart tarixli 203 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 5 fevral tarixli 1282 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Müxtəlif səbəblərdən təhsilin hər hansı pilləsini və səviyyəsini başa vurmayan şəxslərə arayışın verilməsi Qaydası" təsdiq edilsin *(əlavə olunur)*.

2. "Müxtəlif səbəblərdən təhsilin hər hansı pilləsini və səviyyəsini başa vurmayan şəxslərə arayışın verilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 21 yanvar tarixli 12 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 1, maddə 58, (Cild I); 2025, № 9, maddə 858) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə*
*www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 12 yanvar tarixli 4 nömrəli Qərarı ilə təsdiq edilmiş "Tikintilərin Dövlət reyestrinə daxil edilən məlumatların tərkibi, həmin məlumatların təqdim edilməsi və reyestrin aparılması Qaydaları"nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 3** **Bakı şəhəri, 7 yanvar 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Meşə Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində, "İcra haqqında" və "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 3 iyun tarixli 209-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 25 iyun tarixli 424 nömrəli Fərmanına əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 12 yanvar tarixli 4 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 1, maddə 56 (Cild I); 2024, № 4, maddə 440, № 6 (II kitab), maddə 730, № 9, maddə 1090; 2025, № 7, maddə 720) ilə təsdiq edilmiş "Tikintilərin Dövlət reyestrinə daxil edilən məlumatların tərkibi, həmin məlumatların təqdim edilməsi və reyestrin aparılması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 4.2-ci bənddə "verildikdə" sözü "verildiyi andan dərhal" sözləri ilə əvəz edilsin;

2. 4.2-1-ci bəndin birinci cümləsinə "yarandıqda," sözündən sonra "həmin müddətin bitdiyi andan dərhal" sözləri əlavə edilsin;

3. 4.2-2-ci bəndin birinci cümləsindən "sifarişli poçt göndərişi ilə" sözləri və həmin bəndin ikinci cümləsi çıxarılsın;

4. 4.7-ci bənddə "Tikinti obyektinin istismarına icazə verildiyi gündən, habelə məlumatlandırma icraatının tətbiq olunduğu tikinti obyektlərinin tikintisinin başa çatması barədə sifarişçi tərəfindən məlumat verildikdən sonra, istismara icazə verən və ya tikinti barədə məlumatlandırılan orqan (qurum) bu Qaydaların 3.1.2-ci yarımbəndində və 4.2-2-ci bəndində nəzərdə tutulmuş sənədləri və məlumatları 5 (beş) iş günü müddətində Reyestrə təqdim edir" sözləri "Tikinti obyektlərinin istismarına icazə verildiyi andan, habelə məlumatlandırma icraatının tətbiq olunduğu tikinti obyektlərinin tikintisinin başa çatması barədə sifarişçi tərəfindən məlumat verildikdən sonra, dərhal bu məlumatların Reyestrə ötürülməsi təmin edilir" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Prezident İlham Əliyevin yaratdığı "vətən dili": məramdan əmələ

**Prezident İlham Əliyevin yanvarın 5-də yerli televiziya kanallarına verdiyi müsahibə hər zamankı kimi, Azərbaycan üçün strateji xəritə rolunu oynamağın bariz nümunəsi kimi dəyərləndirilməlidir. Müsahibədə hər bir sahəyə dair verilən cavablar təkcə ötən ilin yekunlarını şərh etmir, həm də gələcək illərin prioritetlərini açıq şəkildə müəyyən edir. Regional sülh, çoxvektorlu xarici siyasət, milli təhlükəsizlik, iqtisadi sabitlik, insan kapitalının inkişafı və mədəniyyətin qorunması Azərbaycanın uzunmüddətli və inteqrasiyalı strateji baxışının tərkib hissələridir. Müsahibə bir daha göstərdi ki, Azərbaycan regionda subyekt kimi çıxış etmək, milli maraqlarını qorumaq və dayanıqlı inkişaf modeli yaratmaq niyyətindədir. Prezidentin müsahibədə xüsusi olaraq vurğuladığı məqamlardan biri də Ana dili amili oldu.**

İstər sosial tərəqqidə, istərsə də milli şüur hadisəsi kimi üstündə "Ana dili" yazılan kitablar daha böyük iş görüb. Bəlkə buna görə XIX əsrin sonunda maarifçi dalğa şüur, kimlik hərəkatına "Vətən dili" dərsliyini hasilə gətirməkdən başladı. O dərsliyin yetişdirdiyi nəsil sonradan Azərbaycanda milli məfkurənin, dövlət müstəqilliyinin qurucuları oldular. Bu gün ən vacib faktorlardan biri etnomədəni sistem sayılır ki, onu qoruyan amil, ilk növbədə, ana dilidir. Bura etnomədəni yaddaş amilini də əlavə etməliyik. Və bu etnomədəni yaddaş, hər şeydən əvvəl dil saflığına borcludur. Onu zədələmək millətin bütövlüyünü, milli kimliyini zədələyə bilər. Bu gün etnomədəni sistemi qorumaq, xüsusən, qloballaşmanın milli dil üzərindəki təhdidlərini dəf etməkdə də yardımçı olar.

Azərbaycanda milli birlik və həmrəylik ideyasının uğurla həyata keçirilməsi azərbaycançılıq idealına xidmətin ifadəsidir. Azərbaycan xalqı anlayışı ilə yanaşı, Azərbaycan dili anlayışının da var olması milli mövqenin qorunub saxlanılması ilə yanaşı, müstəqil dövlətin daxili sabitliyinin təmin edil-məsinə, ölkədə yaşayan xalqlar və etnik qruplar arasında tolerantlıq mühitinin formalaşdırılmasına xidmət edir.

Ulu Öndər Heydər Əliyev hakimiyyətdə olduğu hər iki dönəmdə dil məsələsinə xalqın milli kimliyini təyin edən ümummilli amil kimi yanaşdı. Yaxşı bilirdi ki, yalnız yaddaşı olan xalq azadlığının qədrini bilər, ləyaqətini qoruyar. Heydər Əliyev üçün "yaddaş-dil-birlik" eyni məna kəsb edən anlayışlar idi. Ona görə əksər çıxışlarında refren olaraq vurğulayırdı: "Azərbaycan dilinin bundan sonra da inkişaf etməsi mənim həyatımın ən birinci vəzifəsidir. Çünki millətin dilini əlindən alsan, onu öz dilindən məhrum etsən, o millət çox şey itirər. Amma millətin öz doğma dili, ana dili olanda, onu heç nə dəyişdirə bilməz... Bizim gənclərə deyirəm ki, rus dilini yaxşı bilin, ingilis, fars, ərəb, fransız dillə-rini də yaxşı bilin. Amma bunların hamısından yaxşı öz Azərbaycan dilinizi öyrənin. Əgər bunu bilməsən, sən tam azərbaycanlı olmursan".

Heydər Əliyev həmişə Azərbaycan dilinə, onun siyasi-hüquqi təminatlarına geniş yer vermiş, fərman, qərar və sərəncamlar imzalamış, praktik həlli istiqamətində ciddi fəaliyyət göstərmişdir. Ulu Öndər bəyan etmişdir: "Bu gün müstəqil bir dövlət kimi ən fəxr etdiyimiz bir də odur ki, bizim gözəl Azərbaycan dilimiz var. Azərbaycan dilinin formalaşmasında, inkişaf etməsində, bugünkü səviyyəyə çatmasında yazıçılarımızın, şairlərimizin, ədəbiyyatşünasların, dilçi alimlərin böyük xidməti var".

Təsadüfi deyil ki, böyük rəhbər ilk "İstiqlal" ordenini Bəxtiyar Vahabzadə, Xəlil Rza və Məmməd Araza verərkən, bu barədə 16 aprel 1995-ci il tarixli çıxışında bu şairlərin dil məsələsinə həssaslıqlarını önə çəkmişdir.

Ümummilli Lider Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə, konkret olaraq 1978-ci ildə Azərbaycan dilini ölkəmizin konstitusiyasına dövlət dili kimi daxil etdirməyə nail olması çağın reallıqları prizmasından yanaşdıqda misilsiz tarixi nailiyyət sayılır. Sovetlər İttifaqında vahid beynəlmiləlçilik prinsiplərinin həyata keçirildiyi bir zamanda Azərbaycan dilinin rəsmi olaraq dövlət dili kimi qəbul olunması çoxəsrlik dövlətçilik tariximizin nadir hadisəsi olmaqla yanaşı, gələcək müstəqilliyimizin mühüm təminatlarından birinə çevrildi.



Dil siyasəti hər zaman Azərbaycan Prezidenti İlham Əliyevin də siyasi fəaliyyətinin əsas qayəsini təşkil edib. Onun "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli sərəncamına əsasən, 2004-2008-ci illərdə latın qrafikası ilə çap olunacaq əsərlərin siyahısı hazırlanmışdır. Yaxud 2004-cü il 14 yanvar tarixli "Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında", eləcə də 2007-ci il 30 dekabr tarixli "Dünya ədəbiyyatının görkəmli nümayəndələrinin Azərbaycan dilində nəşri nəzərdə tutulan əsərlərinin siyahısının təsdiq edilməsi haqqında" sərəncamları ilə ana dilinin həyatımızın bütün sahələrində müfəssəl tətbiqi gerçəkləşdi. Dillə bağlı çıxışlarında Prezident İlham Əliyev dəfələrlə qeyd edib ki, "Azərbaycan dili o qədər zəngindir ki, heç bir xarici kəlməyə ehtiyac yoxdur. ... biz əsrlər boyu dilimizi qorumuşuq. Bu gün də qorumalıyıq. Biz Azərbaycan dilinin saflığını təmin etməliyik".

Bütün bunlar göstərir ki, ölkə rəhbəri Azərbaycan ədəbi dilinə ayrıca diqqət yetirir, dilin taleyini diqqət mərkəzində saxlayır, bu istiqamətdə ardıcıl, məqsədyönlü siyasət aparır. Xüsusilə Azərbaycan klassiklərinin, ana dilinin saflığı uğrunda məramla çalışan yaradıcı ziyalıların irsinin qorunması və təbliği yönündə gördüyü işlər Prezidentin Azərbaycan milli ruhuna göstərdiyi ən önəmli xidmət olaraq dəyərləndirilməlidir. Yanvarın 5-də, yerli televiziya kanallarına verdiyi müsahibə zamanı dövlət başçısının dillə bağlı etdiyi çağırışları da elə bu kontekstdə - görülən işlərin, aparılan islahatların davamı kimi qəbul etməliyik. Bu müsahibədə də möhtərəm Prezident İlham Əliyev dil məsələsinə xüsusi toxundu. Qeyd etdi ki, Azərbaycan dili bizə xalq kimi var olmaq imkanı verib, milli kimliyimizin əsasında dayanıb: "Əgər biz müstəmləkəçilik illərində dilimizi qoruya bilmişiksə və bizim əcdadlarımız onu bizə əmanət veriblərsə, necə ola bilər ki, biz bu gün dilimizi qorumayaq? Bəzən bilərəkdən, bəzən bilməyərəkdən dilimizə daxil olan xarici kəlmələr - onlar dilimizi zənginləşdirmir və o kəlmələri istifadə edənləri daha ağıllı etmir. Çox dil bilmək yaxşıdır, mən də onun tərəfdarıyam. Amma sən xarici dillərdə lazım olan vaxtda danış, biz öz dilimizi qorumalıyıq. Xarici kəlmələr dilimizi pozur, zənginləşdirmir və milli kimliyimizi də sarsıdır, damcı-damcı, yavaş-yavaş. Bəlkə də özümüz heç buna fikir vermirik, damcı-damcı sarsıdır. Dil əldən gedəndən sonra, yaxud da ki, pozulandan sonra, ya da başqa dilə tamamilə uyğunlaşandan sonra onda milli kimlik də gedəcək, ondan sonra dövlətçilik də gedəcək, ondan sonra, Allah eləməsin, ölkəmiz də, necə deyərlər, böyük fəlakətlə üzləşə bilər. Ona görə Azərbaycan dilini qorumaq hər birimizin vəzifəsidir. Bunu mən tam əminliklə deyirəm və hamını bu mübarizəyə dəvət edirəm".

Azərbaycan Prezidenti İlham Əliyevin Azərbaycan dilinin qorunması ilə bağlı səsləndirdiyi fikirlər təkcə dil məsələsinə münasibət deyil, eyni zamanda milli təhlükəsizlik, milli kimlik və dövlətçilik fəlsəfəsinə dair mühüm çağırış kimi qiymətləndirilməlidir. Dövlət başçısının vurğuladığı kimi, əcdadlarımız müstəmləkəçilik dövrlərində belə ana dilini qoruyub gələcək nəsillərə əmanət etmişlərsə, bu gün müstəqil dövlət şəraitində dilimizi qorumaq hər bir vətəndaşın mənəvi və ictimai borcudur. Prezidentin çıxışı cəmiyyətə ünvanlanan açıq mesaj olmaqla yanaşı, hər kəsi ana dilinə qarşı məsuliyyətli davranmağa, milli kimliyimizi qorumaq naminə birgə mübarizəyə səsləyən prinsipial mövqedir. Bu çağırış əlbəttə ki, ana dilinə həssaslığı artırmağa xidmət edəcək, onun saflığının keşiyində daha əmin, arxayın dayanmağa səbəb olacaq. Dilə qarşı müdaxilədə daha mühafizəkar olmaq lazımdır. Sistemli tədqiqatlar da öz yerində. Bu, onsuz da Azərbaycan alimləri tərəfindən daim aparılıb. Eyni zamanda şair və yazıçıların mətnlərində Azərbaycan dilinin incəlikləri qorunub. İndi buna daha konseptual yanaşılacaq. Çünki Prezident İlham Əliyevin hər çıxışı dillə bağlı yaxşı bir məfkurə dalğası yaradır. Bir daha sübut edir ki, dil həm bir xalqın kimliyinin qoruyucusu, həm də cəmiyyətin formalaşmasının əsas dayağıdır. Onun qorunması və inkişafı yalnız elm və təhsil sahəsi üçün deyil, milli birliyin və dövlətin davamlılığı üçün strateji məsələdir.

Azərbaycan dilinin qorunması həm dövlət, həm də cəmiyyət səviyyəsində aparılmalı olan mühüm və çoxşaxəli bir prosesdir. Bunu bir neçə istiqamətdə görüləcək işlərlə uğurlu şəkildə gerçəkləşdirmək olar. Məsələn, dövlət səviyyəsində tədbirlər təşkil etməklə. Daha sonra elm, texnologiya, hüquq, tibb və digər sahələrdə Azərbaycan dilinə uyğun terminlərin yaradılması və standartlaşdırılması ilə.

Mediada dilin saflığına diqqət yetirilməsi mütləqdir. Televiziya, radio, internet və küçə reklamlarında dil normalarına riayət olunmasına ciddi nəzarət olmalıdır. Həmçinin Azərbaycan dilinin süni intellekt, mobil tətbiqlər və axtarış sistemlərində dəstəklənməsi üçün texnoloji layihələrə investisiya qoyulmalıdır.

Digər əsas yük dillə bağlı təhsil və elm sahəsində aparılacaq işlərin üzərinə düşür. Tədris keyfiyyətinin artırılması bu gün ən vacib məsələdir. Azərbaycan dili və ədəbiyyatı dərslərində müasir, interaktiv tədris metodlarının tətbiqi lazımdır. Dil müəllimlərinin peşəkar inkişaf proqramları, seminar və treninqlər ilə təmin olunmasına ehtiyac var. Amma ən vacib məsələ dərsliklərimizdə ana dilinə olan sevginin bitkin şəkildə olmasıdır. Daha çox öz yazıçılarımızın əsərlərinə yer verilməli, ana dilinin gözəlliklərini, incəliklərini ehtiva edən zövqlü bədii nümunələr dərsliklərdə yer almalıdır. Bu işə kortəbii yanaşmaq olmaz.

Dillə bağlı elmi tədqiqatlar dərinləşməlidir. Dilin tarixi, dialektləri və müasir inkişafı ilə bağlı tədqiqatlara dəstək verilməlidir.

Digər vacib məqam, dilin düzgün işlədilməsini təşviq edən sosial kampaniyalar, televiziya verilişləri və sosial media layihələri hazırlanmalıdır. Yazı müsabiqələri, ədəbi gecələr, gənclər üçün dil mədəniyyəti forumları təşkil olunmalıdır.

Bütün bunlar əlbəttə ki, məişət səviyyəsində məsuliyyəti istisna etmir. Hər kəsin gündəlik ünsiyyətdə ana dilinə hörmətlə yanaşması, yad sözlərin yersiz istifadəsindən çəkinməsi önəmli məsələdir.

Martin Haydegger dili "varlıq evi" adlandırırdı. Bu, doğrudan da belədir. Xalqın, millətin varoluşunun başlıca şərti, gücü onun dilini qorumaqdır. Bütün yaradıcı resurslar məhz bu amilin yaşarılığına - dilin işığını qorumağa xidmət etməlidir. Səsimizi və sözümüzü gələcək nəsillərə aydın eşitdirmək üçün!

***Elnarə AKİMOVA,***
***Milli Məclisin deputatı,***
***YAP İdarə Heyətinin üzvü,***
***filologiya elmləri doktoru***

# Ölkəmizin strateji yol xəritəsi

## Bu, Azərbaycan Prezidentinin yerli televiziya kanallarına müsahibəsində aydın əksini tapıb



**İlin əvvəli ənənəvi olaraq, ötən ilə dair yekunların çıxarıldığı, əldə olunan nailiyyətlərin təhlili və qarşıda duran vəzifələrin müəyyənləşdirildiyi bir dövrdür. Yanvarın 5-də yerli televiziya kanallarına verdiyi müsahibədə Azərbaycan Prezidenti İlham Əliyev bütün sahələrin, o cümlədən ölkə iqtisadiyyatının inkişafının əsas vektorlarını müəyyənləşdirdi. İnvestisiyaların cəlb olunması baxımından ABŞ və Çinlə strateji münasibətlərin üstünlükləri, nəqliyyat dəhlizlərinin inkişafı və yükdaşımaların artımı, "yaşıl enerji" sahəsində perspektivlər və elektrik enerjisinin ixracı istiqamətində atılan addımlar, eləcə də Qarabağ regionunun dirçəldilməsində əldə olunan uğurlar və bu prosesdə turizm sektorunun inkişafı diqqətə çatdırıldı.**



Ötən ilin ən mühüm hadisələrini qeyd edən dövlət başçısı, xüsusilə, avqust ayında Azərbaycan-ABŞ münasibətlərində baş vermiş tarixi irəliləyişi vurğuladı. Bildirildi ki, ABŞ Prezidenti Donald Trampın iştirakı ilə Ağ Evdə keçirilən mərasim zamanı iki ölkə arasında tərəfdaşlığın inkişafına mane olan 907-ci düzəliş dayandırılıb, həmçinin beynəlxalq sülh və rifah naminə "Trump route for international peace and prosperity" (TRIPP) adlı nəqliyyat dəhlizinin yaradılması haqqında saziş imzalanıb. Bu layihənin reallaşması Zəngəzur dəhlizinin inkişafını sürətləndirəcək və Azərbaycanın əsas ərazisi ilə onun Naxçıvan Muxtar Respublikası arasında əlaqənin təmin olunmasına töhfə verəcək.

Bakı və Vaşinqton iki ölkənin işgüzar dairələri arasında birbaşa əlaqələrin qurulmasını, B2B formatında qarşılıqlı biznes səfərlərinin təşkili, turizm sahəsində əməkdaşlığın genişləndirilməsi, Orta dəhliz çərçivəsində nəqliyyat və logistika sahəsində əməkdaşlığın inkişafını zəruri hesab edir. ABŞ-nin qabaqcıl vendorlarının, çip istehsalçılarının, proqram təminatı hazırlayan şirkətlərin, o cümlədən süni intellekt və kibertəhlükəsizlik sahəsində nou-hau təcrübəsinin Azərbaycana cəlb edilməsi, DATA mərkəzlərinin tikintisi imkanları nəzərdən keçirilir. Bununla bağlı Prezident İlham Əliyev dedi: "Eyni zamanda Azərbaycanın hədəflərindən biri də regional süni zəka qovşağına, IT mərkəzinə çevrilməkdir və hesab edirəm ki, bizim buna nail olmaq üçün potensialımız var. Biz indi tərəfdaşlarımızla məlumat mərkəzlərinin yaradılması üzərində çalışırıq. Bildiyiniz kimi, məlumat mərkəzlərinin çoxlu elektrik enerjisinə ehtiyacı var. Bu gün daha geniş regionda elektrik enerjisi üzrə əlavə imkanı olan yeganə ölkə Azərbaycandır. Beləliklə, bu gün daxili məqsədlər üçün istifadə etmədiyimiz ixrac və ya burada istehlak oluna bilən əlavə 2000 meqavat və ya 2 qiqavat həcm varımızdır". Azərbaycan-ABŞ münasibətlərini nəzərdən keçirsək, deyə bilərik ki, ABŞ Cənubi Qafqaza Qara dəniz regionu, Xəzər hövzəsi və Şərqi Aralıq dənizi arasında strateji körpü kimi yanaşır. Bu sxemdə Azərbaycan periferiyaya deyil, logistika qovşağına çevrilir. Qovşaq isə həmişə diqqət, etibarlılığa investisiya, təhlükəsizlik marağı və destabilizasiyaya qarşı diplomatik qoruma əldə edir. Və prosesləri bu mənada təhlil etsək o zaman Azərbaycanın regionda oynadığı əhəmiyyətli rol bir qədər də önə çıxır. Daha bir vacib amil ondan ibarətdir ki, üçtərəfli görüş Azərbaycanın infrastruktur planlarının beynəlxalq legitimliyini gücləndirdi. Söhbət hər detalın təsdiqindən deyil, kommunikasiyaların və iqtisadi açıqlığın gələcək regional quruluşun əsası kimi tanınmasından gedir. Bu isə prosesi pozmağa cəhd edə biləcək tərəflər üçün riskləri ciddi şəkildə artırır, çünki sabotaj artıq yalnız bir tərəfə deyil, ABŞ-nin də daxil olduğu bütöv bir arxitekturaya zərbə kimi görünür.

Ötən ilin mühüm beynəlxalq nəticələrindən biri də Azərbaycan-Çin işgüzar əməkdaşlığının inkişafıdır: "Böyük əhəmiyyət daşıyan hadisələrdən biri də bizim Çinlə olan strateji tərəfdaşlığımızdır. Keçən il mənim Çinə dövlət səfərim zamanı Hərtərəfli strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə imzalanmışdır və bu da çox böyük uğur sayıla bilər. Çünki Çin də dünyada aparıcı ölkələrdən biridir və bu siyasi çərçivə, siyasi platforma, əlbəttə ki, bizim uğurlu diplomatiyamızın təzahürü sayıla bilər", - deyə Prezident İlham Əliyev qeyd edib. Dövlət başçısı ikitərəfli ticarət dövriyyəsinin 4 milyard ABŞ dollarını keçdiyini, 20 faizdən çox artım qeydə alındığını və investisiya xarakterli müqavilələrin imzalandığını vurğulayıb. Çin şirkətləri Azərbaycanda bərpaolunan enerji sahəsinə fəal şəkildə investisiya qoyurlar: günəş və külək-elektrik stansiyaları tikilir, onların sayının artırılması ilə bağlı sorğular var, günəş panellərinin istehsalı üzrə zavodun tikintisinə başlanılıb, elektrobusların yığımı həyata keçirilir və gələcəkdə onların lokallaşdırılmasının artırılması planlaşdırılır.

Azərbaycan-Çin tərəfdaşlığının digər mühüm istiqamətlərindən biri də hərbi-texniki əməkdaşlıqdır. Bu əməkdaşlıq təkcə hərbi texnikanın alınması ilə məhdudlaşmır, eyni zamanda müdafiə sənayesində birgə istehsalın yaradılmasını da əhatə edir. Müsahibədə dövlət başçısı Bakı ilə Pekin arasında nəqliyyat sahəsində əməkdaşlığın fəal inkişafına da toxunub. Çin Mərkəzi Asiya ölkələri ilə yanaşı, yük axınının əsas mənbəyi kimi qiymətləndirilir və Çindən əlavə yüklər "Şərq-Qərb" marşrutunu, Orta dəhlizi tam şəkildə tələbatlı edəcəkdir.

Mərkəzi Asiya-Azərbaycan ittifaqı bu gün müstəqil geosiyasi reallığa çevrilməkdədir. Artıq söhbət ayrı-ayrı ikitərəfli sazişlərdən və ya situativ iqtisadi layihələrdən deyil, regional C5 formatının genişlənmiş C6 konfiqurasiyasına sistemli transformasiyasından gedir. Bu modeldə Azərbaycan kənar tərəfdaş deyil, struktur formalaşdıran əsas element kimi çıxış edir. Bu dəyişiklik dekorativ deyil, ontoloji xarakter daşıyır - Avrasiyanın məkan əlaqəliliyinin məntiqi köklü şəkildə dəyişir. İqtisadi əlaqəlilik, nəqliyyat və logistika bu gün aparıcı beynəlxalq aktorlar üçün xüsusi önəm kəsb edir və Mərkəzi Asiya regionunu Qərblə coğrafi baxımdan birləşdirə bilən ən etibarlı ölkə Azərbaycandır.

Media nümayəndələri ilə görüşdə İlham Əliyev ölkənin iqtisadi sahədə əldə etdiyi nailiyyətlərə də toxunaraq yaxın və uzunmüddətli perspektiv üçün əsas inkişaf istiqamətlərini açıqladı: "İqtisadi fəaliyyətimizlə bağlı, ölkəmiz iqtisadi cəhətdən tamamilə müstəqil olduğuna və hər hansı bir dəstəkdən, istənilən kreditdən və ya nədənsə asılı olmadığına görə bugünkü vəziyyət bizi qane edir. Bu gün bizim xarici borcumuz tarixdə ən aşağı səviyyədədir, hesablamalardan asılı olaraq ÜDM-in 6,3-6,4 faizini təşkil edir. Bizim ehtiyatlarımız xarici borcu 16 və ya 17 dəfə üstələdiyinə görə xarici borcumuzu geri ödəyə bilərik. Nəyə görə bir rəqəmi qeyd etmirəm, çünki ötən il biz həm də qızıl ehtiyatlarımızı artırmaq üçün strateji qərar qəbul etdik. Biz geosiyasi müstəvidə cərəyan edən hadisələri açıq-aydın görürdük və mən tamamilə əmin idim ki, qızılın qiyməti artacaq və qiymət kəllə-çarxa çıxdı. Beləliklə, bu qərar bizə çoxlu pul qazandırdı. Qızıl ehtiyatlarımızı artıraraq Dövlət Neft Fondu yalnız buna görə 10 milyard ABŞ dollarından artıq vəsait qazandı. Lakin qızılın qiyməti aşağı düşərsə, əlbəttə ki, bizim ehtiyatlarımız da azalacaq. Beləliklə, bu gün bizim ehtiyatlarımız hər gün dəyişir. Bu gün ola bilsin 84 və ya 83 milyarddır. Sabah 85 olacaq. Buna baxmayaraq, bu, dünyada adambaşına düşən ehtiyatlar nöqteyi-nəzərindən istənilən ölkədə olan ən yüksək göstəricilərdən biridir, 83-84 milyard ABŞ dolları". Ehtiyatların artması və borc asılılığının azalması Qarabağın və Şərqi Zəngəzurun bərpası, sosial və müdafiə sahələrinə çoxmilyardlı maliyyə vəsaitlərinin ayrılması, iri investisiya layihələrinin icrası fonunda baş verir ki, bu da milli iqtisadiyyatın yüksək dayanıqlılığını aydın şəkildə nümayiş etdirir.

Xarici borcun yüksək sabitliyi nəzərə alınaraq, nəqliyyat layihələrinin, su təchizatı və kanalizasiya sistemlərinin yaxşılaşdırılması, eləcə də ümumi əlaqəliliyin artırılması məqsədilə nisbətən kiçik həcmdə - 3-4 milyard ABŞ dolları məbləğində əlavə borclanma qərarı qəbul olunub. Yaxın vaxtlarda böyük tələbatı nəzərə alaraq Bakı, Sumqayıt və Xırdalan şəhərlərini, ümumilikdə Abşeron yarımadasını əhatə edən genişmiqyaslı su təchizatı və kanalizasiya proqramı qəbul ediləcək. Burada söhbət su ehtiyatlarının idarə olunmasından, o cümlədən Azərbaycanda ilk olacaq və içməli suya olan tələbatın əhəmiyyətli hissəsini ödəyəcək duzsuzlaşdırma qurğusunun yaradılmasından, kənd təsərrüfatı üçün daha çox su təmin etmək məqsədilə yeni kanalların tikintisindən, həmçinin Bakının nəqliyyat problemlərinin həllindən gedir: "Bu sahədə görüləcək işlər hələ çoxdur. Biz artıq Bakıda əlavə 10 metro stansiyasının tikintisini nəzərdə tutan proqram qəbul etmişik. Mənim səlahiyyət müddətim ərzində yeddi stansiya tikilib, lakin bu, kifayət deyil. Buna görə də daha 10 metro stansiyası, eləcə də yeni körpülər və tunellər tikiləcək", - deyə dövlət başçısı bildirib. Vurğulayıb ki, bütün bunlar üçün vəsait cəlb etməliyik, çünki bu, bizə xeyli maliyyə qənaəti edəcək və həmin vəsaiti Qarabağ üçün istifadə edə biləcəyik. Artıq beş ildir ki, işğaldan azad edilmiş ərazilərin inkişafı üzrə dövlət strategiyası icra olunur və bu müddət ərzində çox böyük irəliləyiş əldə edilib. Nəqliyyat, enerji və kommunal infrastruktur sürətlə bərpa olunur, yaşayış binaları, sosial və istehsal obyektləri tikilir. Ölkəmizin rəhbəri bununla bağlı qeyd etdi ki, enerji sistemi - dairəvi enerji sistemi quruldu və bu gün mərkəzdən oraya yox, oradan mərkəzə enerji daxil olur: "Çünki biz beş il ərzində 307 meqavat gücündə su-elektrik stansiyaları yaratmışıq və əlbəttə ki, azad edilmiş bölgələrdə istehlak qat-qat aşağıdır. Ona görə biz bu dairəvi sistemi yaratmaqla bu gün enerji axınını ölkə üzrə lazımi səviyyədə bölə bilərik. Su təchizatı olmadan heç kim oraya köçməz, orada yaşamaz. Bu məsələ də öz həllini tapır və su anbarları - bir neçə su anbarını yenidən qurmuşuq, sıfırdan qurulan, məsələn, Zabuxçay su anbarı, əsaslı təmir olunan Sərsəng, Suqovuşan, Köndələnçayda üç, Xaçınçay.

Eyni zamanda yollar, körpülər, o cümlədən uzunluğu 70 kilometrə çatan tunellər inşa edilir və bu işlərin böyük hissəsi artıq tamamlanıb. İlk növbədə dəmir yolları istismara verilib - Bərdə-Ağdam xətti, hazırda Ağdam-Xankəndi xətti, Zəngəzur dəhlizi üzrə dəmir və avtomobil yolları çəkilir, Cəbrayıl, Hadrut, Laçın, Kəlbəcər və digər istiqamətləri birləşdirən nəqliyyat qovşaqlarında işlər aparılır".

Prezidentin sözlərinə görə, əsas məqsəd işğaldan azad edilmiş ərazilərə keçmiş məcburi köçkünlərin qayıdışını təmin etməkdir. Bu gün həmin ərazilərdə, o cümlədən tikinti işlərində çalışanlarla birlikdə, 32 şəhər və kənddə 70 min nəfər yaşayır. Cari ildə bu rəqəmin əhəmiyyətli dərəcədə artacağı gözlənilir və ən azı 30-50 yaşayış məntəqəsinə köçürülmə planları nəzərə alınmaqla, ilin sonuna qədər daimi yaşayan və işlərə cəlb olunan vətəndaşların sayı 120 min nəfəri keçə bilər.

Prezident, Ali Baş Komandan qeyd etdi ki, son beş il ərzində Azərbaycan Ordusu öz gücünü əhəmiyyətli dərəcədə artırıb və bu gün qarşısına qoyulan istənilən vəzifəni yerinə yetirməyə qadir olan müasir, çevik və yüksək döyüş qabiliyyətli bir struktura çevrilib. Söhbət bəyanatlardan deyil, ardıcıl və sistemli dövlət siyasətinin real nəticələrindən gedir. Ordunun yeni silah və texnika nümunələri ilə, o cümlədən yerli istehsal məhsulları ilə təchiz olunması, xaricdən silah alınmasında mənbələrin şaxələndirilməsi, milli hərbi-sənaye kompleksinin inkişafı - bütün bunlar Azərbaycanın hərbi potensialını keyfiyyətcə yeni mərhələyə yüksəltməyə imkan verir. Silahlı Qüvvələrimizin döyüş qabiliyyəti, Xüsusi Təyinatlı Qüvvələrin şəxsi heyəti bir neçə dəfə artırılıb, son illərdə yaradılan komando qüvvələri isə artıq minlərlə peşəkar hazırlıqlı əsgər və zabiti özündə birləşdirir. Eyni zamanda prinsipial olaraq vurğulamaq lazımdır ki, Azərbaycanda ordunun gücləndirilməsi heç bir halda aqressiv xarakter daşımır. Rəsmi Bakının siyasəti hər zaman beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanmışdır və bu gün də həmin xəttə sadiqdir. Azərbaycan heç vaxt işğalçı dövlət olmayıb, əksinə, onilliklər ərzində o, ərazilərinin böyük hissəsi işğal altında olan, yüz minlərlə vətəndaşı qaçqın və məcburi köçkünə çevrilmiş bir dövlət kimi işğalın qurbanı olmuşdur.

Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün bərpası tək bir amilin deyil, ardıcıl və qarşılıqlı əlaqəli tədbirlər kompleksinin nəticəsi oldu. Ölkə iqtisadi cəhətdən gücləndi, dayanıqlı maliyyə sistemi quruldu, irimiqyaslı enerji və infrastruktur layihələri həyata keçirildi, güclü və müasir ordu formalaşdırıldı, eyni zamanda uğurlu, məqsədyönlü xarici siyasət və diplomatik fəaliyyət aparıldı. Məhz bu amillərin vəhdəti tarixi ədalətin bərpasına imkan verdi.

Elə bu səbəbdən Prezident İlham Əliyevin sülhə dair söylədiyi fikirlər xüsusi dəyər daşıyır: "Mən Yeni il müraciətimdə bildirdim ki, biz müharibəyə hazırlaşmırıq və bu, həqiqətən də belədir. Hesab edirəm və ümidvaram ki, müharibələr arxada qalıb, amma heç kim zəmanət verə bilməz. Axı biz dünyada hadisələrin necə dəyişdiyini görürük". Dövlətimizin başçısı eyni zamanda xatırlatdı ki, müasir dünyada hər bir ölkə öz təhlükəsizliyi barədə ciddi düşünməyə borcludur. Bu bəyanat yetkin və məsuliyyətli dövlət təfəkkürünün təzahürüdür. Beynəlxalq hüquq normalarının getdikcə daha tez-tez pozulduğu, "kim güclüdürsə, o haqlıdır" prinsipinin səssiz qaydaya çevrildiyi bir dünyada sadəlövhlük çox baha başa gələ bilər. Güclü ordu Azərbaycan üçün təzyiq aləti deyil, sülhün təminatıdır. Vətən müharibəsində qalib gəlmiş ölkənin Prezidenti tərəfindən sülhün əhəmiyyətinə dair səsləndirilən fikirlər isə gücün, siyasi yetkinliyin və dinc həyatın dəyərinin dərindən dərk edilməsinin göstəricisidir. Bu sülhü qorumaq, müdafiə etmək və gələcək nəsillərə ötürmək - dövlətin və cəmiyyətin strateji vəzifəsidir.

***Hicran HÜSEYNOVA,***
***Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri, professor***

## *Moldova xəbər portalı:* Azərbaycan iqtisadi cəhətdən tamamilə müstəqildir




Moldovanın aparıcı "Noi.md" xəbər portalında Azərbaycan Prezidenti İlham Əliyevin yerli televiziya kanallarına verdiyi müsahibədən əsas sitatları əks etdirən daha bir məqalə dərc edilib.

AZƏRTAC xəbər verir ki, rumın və rus dillərində dərc olunan məqalədə Prezident İlham Əliyevin Azərbaycanın iqtisadi vəziyyətinə dair söylədiyi fikirlər yer alıb.

Qeyd olunub ki, Azərbaycan hakimiyyəti iqtisadiyyatın hazırkı vəziyyətindən razı qala bilər, çünki ölkə iqtisadi cəhətdən tamamilə müstəqildir, heç bir dəstək və kreditdən asılı deyil. Dövlət başçımıza istinadla yazılır ki, Azərbaycan borc almağı tamamilə dayandırıb. İndi Azərbaycanın xarici borcu ən aşağı səviyyəyə düşüb. Məqalədə daha sonra Prezident İlham Əliyevin fikirlərinə istinadla qeyd olunur ki, bu gün Azərbaycanda iki investisiya proqramı var: biri ənənəvi, digəri isə Qarabağ və Şərqi Zəngəzur üçün. Hər iki proqram yüksək səmərəliliklə, uğurla həyata keçirilir. Azərbaycan Qarabağ və Şərqi Zəngəzur bölgələrində genişmiqyaslı bərpa və tikinti işləri aparır.

Azərbaycan, həmçinin neft hasilatını sabitləşdirmək, təbii qaz hasilatını artırmaq üçün çalışır. Bu, həm də Azərbaycan iqtisadiyyatının böyüməsi üçün əlavə təkan verəcək.

Məqalədə Prezident İlham Əliyevin iqtisadi islahatlara dair digər fikirləri də yer alıb.

## *Səlim GÜVƏN:* "ACWA Power" Azərbaycanda hədəfi 300 min kubmetr dəniz suyunu duzsuzlaşdırmaq olan yeni layihəyə hazırlaşır"



"ACWA Power" şirkəti Azərbaycandakı ilk layihəsini həyata keçirib. Belə ki, 240 MVt gücündə "Xızı-Abşeron" Külək-Elektrik Stansiyası layihəsi iki hissədən ibarətdir. Stansiya öz gücünün 162,5 meqavatını Xızıdan, 78 meqavatını isə Abşerondan əldə edir".

Bu sözləri AZƏRTAC-a eksklüziv müsahibəsində "ACWA Power" şirkətinin Türkiyə və Azərbaycan ölkələri üzrə müdiri Səlim Güvən deyib. O qeyd edib ki, bu, "ACWA Power" şirkətinin Azərbaycanda həyata keçirdiyi ilk layihə olsa da, yeni layihələr artıq planlaşdırılıb. "Şirkətimiz Azərbaycanda hədəfi 300 min kubmetr dəniz suyunu duzsuzlaşdırmaq olan yeni layihəyə hazırlaşır və 2028-ci ilin iyununda tam hazır olacağı planlaşdırılır. Çünki Prezident İlham Əliyevin də vurğuladığı kimi, Azərbaycanın enerji potensialı çox yüksəkdir. Ölkənin neft və digər konvensional mənbələr üzrə beynəlxalq bazarlarda etibarlı və dayanıqlı təchizatçı kimi çıxış etməsi mövqeyi "yaşıl enerji" sahəsində də davam edəcək. Bu məqsədlə interkonneksiya ixrac xətləri və enerji ötürmə xətlərinin yaradılması üçün bir sıra layihələrin həyata keçirilməsi planlaşdırılır. Layihələr reallaşdıqdan sonra Azərbaycanda mövcud olan külək və günəş enerjisi üzrə qiqavatlarla ölçülən potensialın Avropa kimi bazarlara ötürülməsi mümkün olacaq. "ACWA Power" olaraq biz prosesləri diqqətlə izləyir və dayanıqlı enerji sahəsində investor, texnoloji innovator və operator kimi Azərbaycanla birlikdə bu layihələrdən sonra da yeni layihələri həyata keçirməyi planlaşdırırıq. Çünki Azərbaycan bizim üçün sadəcə bazar deyil, strateji tərəfdaş kimi dəyərləndirdiyimiz ölkədir və bu, bizim üçün son dərəcə önəmlidir", - deyə Səlim Güvən vurğulayıb.

# 907-ci düzəlişin ləğvi ABŞ-Azərbaycan münasibətlərini sağlamlaşdıra bilər

**Yanvarın 5-də yerli televiziyalara müsahibəsində Prezident İlham Əliyevin ifadə etdiyi kimi, 2025-ci il Azərbaycan-ABŞ münasibətlərində dönüş dövrü hesab oluna bilər. Əlbəttə ki, bu status-kvonun təməlində Azərbaycanın hərbi-siyasi zəfərləri nəticəsində yaranan yeni reallıq dayanır. Məlumdur ki, yeni reallıqlara qədər bir sıra güclər, o cümlədən də ABŞ maraqlarını bərabərhüquqlu əsaslarla yox, daha çox müəyyən rıçaqlar əldə edərək təzyiq göstərməklə təmin etməyə çalışırdı və 907-ci düzəliş də məhz bu kursun davamı hesab oluna bilərdi.**



Milli Məclisin deputatı Bəhruz Məhərrəmov "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, 1992-ci ilin oktyabrında Cozef Bayden başda olmaqla, bir qrup senator, o cümlədən ABŞ Dövlət Departamentinin ayrı-ayrı rəsmiləri öz maraqlarını, daha doğrusu, erməni lobbisindən qaynaqlanan muzd maraqlarını üstün tutaraq 907-ci düzəlişi qəbul etmişdilər və sonrakı dövrdə də məhz bu düzəliş ABŞ və Azərbaycan arasında münasibətlərin inkişafında ciddi əngəl yaratmışdır: "Düzdür, ötən dövr ərzində bizim kifayət qədər uğurlu əməkdaşlıq tariximiz olub. ABŞ və Azərbaycan təhlükəsizlik, müdafiə, enerji, kommunikasiya sahələrində ciddi uğurlarla müşahidə olunan əməkdaşlıq ediblər, lakin 907-ci düzəlişin qüvvədə olması ABŞ-nin bu bölgədə səmimi əməkdaşlıq mühitində maraqlı olmasının özünü şübhə altına alıb. Ötən dövr ərzində nə qədər ki Azərbaycan ABŞ ilə təhlükəsizlik konfiqurasiyasının vacib elementi kimi çıxış etdiyi, məsələn, Əfqanıstanda, o cümlədən daha öncə Kosovoda və sairə dünyanın müxtəlif bölgələrində beynəlxalq sülh yaratma missiyalarında iştirak etdiyi zamanlarda ABŞ-nin prezidentləri hər il 907-ci düzəlişin qüvvəsini həmin il üçün ləğv edirdi. Lakin ABŞ qüvvələri Əfqanıstandan çıxdıqdan sonra Bayden beynəlxalq təcrübəyə uyğun olmayan və heç bir siyasətçiyə yaraşmayan formada ikili standartları rəhbər tutaraq həmin aktın qüvvəsini dayandırmadı və bununla da, əslində, hələ də erməni lobbisinin təsiri altında olduğunu birmənalı şəkildə göstərdi. Sonrakı dövrdə də Bayden komandasının digər addımları nəticə etibarilə Azərbaycan-ABŞ münasibətlərinin sıfırlanmasına gətirib çıxarmışdı. Dövlət başçımızın "Əl Ərəbiyyə" telekanalına müsahibəsində də ifadə etdiyi kimi, "907-ci düzəliş 2001-ci ildə dayandırıldı. Niyə? Çünki onların Əfqanıstanda bizə ehtiyacları var idi. Onlara səmamız, dənizimiz lazım idi. Onlara dəmir yolu lazım idi. Biz Amerika logistikasına və daşımalara çox mühüm dəstək verdik. Beləliklə, Bayden Əfqanıstandan qaçan kimi bizə yenidən sanksiya tətbiq etdilər. Axı necə belə nankor olmaq olar?! Beləliklə, onların haqqında nə düşünə bilərdik? Biz onlarla bütün əlaqələri kəsdik. Bayden administrasiyası ilə əlaqələr sıfra enmişdi".

Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmizin özünün ən qüdrətli dönəminə qədəm qoyduğunu qeyd edən deputat deyib ki, siyasi və iqtisadi müstəqilliyi, o cümlədən milli iradə tərəfindən idarə olunması Azərbaycan Respublikasına müasir reallıqları sağlam formada dəyərləndirməyə imkan verir və müstəqilliyini, ərazi bütövlüyünü, konstitusiya quruluşunu, xalqın və ölkənin milli maraqlarını daxili və xarici təhdidlərdən qorumağa yönəlmiş siyasətinin məqsəd, prinsip və yanaşmalarını bütün rakurslardan müəyyənləşdirə bilib. Azərbaycan hər zaman bu strateji problemin həllini güclü olmaqda, eyni zamanda əməkdaşlıq və dialoq mühitinə inamında görüb. Təsadüfi deyil ki, dövlətimiz ümumbəşəri dəyərlərə sadiq olaraq dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamağı və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərməyi altı konstitusion niyyətindən biri kimi müəyyən edib. Eyni zamanda bizim milli maraqların Azərbaycan xalqının fundamental dəyər və məqsədlərini, habelə insan, cəmiyyət və dövlətin tərəqqisini təmin edən siyasi, iqtisadi, sosial və digər tələbatların məcmusundan ibarət olmaqla bərabər, həm də hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsipləri ehtiva etməsi, başqa dövlətlərlə münasibətləri məhz bu prinsiplər əsasında qurması, ölkəmizin başqa



dövlətlərin müstəqilliyinə qəsd vasitəsi kimi və beynəlxalq münaqişələrin həlli üsulu kimi müharibəni rədd etməsi, beynəlxalq öhdəlikləri yerinə yetirmək, qlobal və regional təhlükəsizlik və sabitliyə töhfə vermək üçün dəyərlərini bölüşdüyü beynəlxalq təşkilatlarla inteqrasiyaya yönəlmiş əməkdaşlığın inkişaf etdirilməsi kimi hədəflərimizin səmimiliyinə şübhə yaratmır. "Belə bir şəraitdə 907-ci düzəlişin maliyyə yardımı və yaxud hər hansısa yardım formasında mahiyyəti Azərbaycan üçün o qədər də əhəmiyyətli deyil. Azərbaycanda İqtisadiyyat Nazirliyinin vətəndaşlara geri qaytardığı illik ƏDV-lərin miqdarı 907-ci düzəliş çərçivəsində Azərbaycana ediləcək bütün yardımlardan çoxdur. Əsas olan ABŞ-nin bizə münasibətdə davranışıdır. Keçmiş Ağ Ev rəhbəri Co Baydenin həmmüəlliflərindən olduğu "Azadlığa Dəstək Aktı"na 907-ci düzəliş müstəqilliyinin ilk illərində ağır maliyyə böhranı yaşayan Azərbaycan üçün ciddi iqtisadi zərbə hesab oluna bilərdi. Digər tərəfdən, Azərbaycanı Ermənistanı blokadada saxlamaqda ittiham edən sənədin məzmunu özlüyündə ədalətsiz xarakter daşıyırdı və ölkəmizin qlobal miqyasda mövqelərinə zərbə hesab olunurdu. Lakin Azərbaycanın hərbi-siyasi qələbələri ilə vəziyyəti köklü surətdə dəyişməsi, o cümlədən siyasi və iqtisadi müstəqilliyini təməlli formada möhkəmləndirməsi digər rıçaqlar kimi 907-ci düzəlişi də təsirsiz alətə çevirdi. Nəticə etibarilə, bu gün Azərbaycan dövlətinin 907-ci düzəlişin qüvvədə olacağı təqdirdə daxil olacaq maliyyə yardımlarına faktiki ehtiyacı yoxdur, lakin Azərbaycan və Ermənistan arasında kommunikasiyalar, blokadanın tədricən aradan qalxması, Ermənistana Qazaxıstandan və Rusiyadan buğdanın daşınması, eləcə də Azərbaycan benzininin bu ölkəyə ixracı fonunda ədalətsiz şəkildə hələ də Azərbaycanı Ermənistanı blokadada saxlamaqda ittiham etmək qəbuledilməzdir və ilk növbədə, Vaşinqtonun özünün imici üçün zərbədi", - deyə B.Məhərrəmov əlavə edib.

Deputat vurğulayıb ki, Donald Trampın 4 il sonra yenidən hakimiyyətə qayıtması nəinki ABŞ, bütövlükdə dünyada geosiyasi proseslərə kökündən təsir edəcək yeni bir mərhələnin başlanması üçün əsaslarla müşahidə olunmaqdadır. Sələfindən fərqli olaraq Donald Tramp daha mühafizəkardır, dünyaya daha realistik nöqteyi-nəzərdən yanaşır və ABŞ maraqlarını demokratlar iqtidarı dövründə olduğu kimi, Soros maraqlarına tabe etdirməyib: "Bayden administrasiyası dövründə ABŞ qlobalçılıq kursuna önəm verib, Soros ideologiyasına milli maraqların təmini üsulu kimi baxıb. Eyni zamanda demokratların ənənəsinə uyğun olaraq Bayden hakimiyyəti insan haqları, demokratiya və digər ümumbəşəri dəyərlərə Soros ideologiyasının təcavüzkar niyyətlərinin həyata keçirilməsi üçün bir vasitə kimi yanaşıb, adıçəkilən meyarlardan istifadə edərək digər ölkələrin daxili işlərinə qarışılmasında ehtiva olunan təcavüzkar və təxribatçı davranışları xüsusilə gücləndirib. Nəticədə ABŞ özünün xarici siyasət kursunu dünyanın bir çox bölgələrində dalana dirəmiş və ən azı son 100 ildə ən ciddi mövqe itkiləri ilə üz-üzə qalmışdır. Nəticədə əgər ABŞ əvvəllər hətta təcavüzkar mahiyyət daşısa belə, proseslərdə qalib kimi görünsə də, demokratların, konkret olaraq Bayden-Blinken iqtidarının dövründə Vaşinqton dünyanın bir çox coğrafiyalarında, məsələn Yaxın Şərqdə, Ukraynada, eləcə də Mərkəzi Amerikada bu mövqeyini itirərək daha çox uğursuz katalizator kimi görünməyə başlamışdır. Bundan başqa, demokratların son iqtidarı dönəmində vətəndaş cəmiyyəti institutları və media, o cümlədən yeni nəsil informasiya resursları tam mənada dövlətin əsarətindəki alətlər kimi çıxış edib, dünyaya demokratiyadan və azadlıqlardan dərs keçmək iddiasında olan ABŞ diktator xarakterli media maqnatı kimi görünməyə başlayıb. Habelə demokratlar özlərinin iqtidarlarının gücünü fikir və söz azadlığının boğulmasına yönəltmiş, hətta ABŞ-nin Baydendən əvvəlki prezidenti Trampın fiziki məhvindən imicinin korlanması və cəmiyyətə cinayətkar kimi təqdim olunmasına qədər fəaliyyətlərdən, bu istiqamətdə məhkəmə və hüquq-mühafizə orqanlarının güc və imkanlarından istifadə edilməsindən belə çəkinməmişdilər".

B.Məhərrəmov vurğulayıb ki, Bayden administrasiyası dövründə Azərbaycan-ABŞ münasibətləri öz tarixinin ən pis dövrünə qədəm qoymuş, ölkəmiz davamlı şəkildə Vaşinqtonun qərəz və böhtan kampaniyası ilə üz-üzə qalmış, dövlətimizin iqtisadi-siyasi qüdrətinin, müdafiə qabiliyyətinin azaldılmasına yönəlmiş çoxşaxəli təxribatçı davranışlara şahidlik etmişik. Prezidentin hələ 2025-ci il yanvarın 7-də yerli televiziyalara verdiyi müsahibəsində səsləndirdiyi kimi, Bayden administrasiyası dövründə bir qayda olaraq Azərbaycanla münasibətlərinə Ermənistan prizmasından, eyni zamanda ABŞ-Ermənistan münasibətlərinə isə Azərbaycan prizmasından baxaraq qeyri-adekvat xarici siyasət kursu həyata keçirib. Nəticə isə ilk növbədə elə ABŞ üçün ürəkaçan olmayıb, Vaşinqton Cənubi Qafqazda Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması istiqamətində proses başda olmaqla, bir çox məsələlərdən kənarda qalıb, Cənubi Qafqazda ciddi maraq itkisi ilə üzləşib. Ölkəmizin rəhbərinin ötən il yanvarın 22-də Davosda ABŞ-nin Xristian Liderlər Konqresinin rəhbəri Conni Mur ilə görüşündə qeyd etdiyi fikirlər də məhz bu situasiyanın şərhi idi. Bu tip davranışlar, əslində, Bayden administrasiyasının etibarsız tərəfdaş olmasının təzahürü idi. "Dövlət başçımızın da qeyd etdiyi kimi, Azərbaycan ABŞ ilə birlikdə beynəlxalq təhlükəsizlik tədbirlərinin İraqda və Əfqanıstanda iştirakçısı olan zaman 907-ci düzəlişin qüvvəsini dayandıran demokratlar həmin bölgələr üzrə fəaliyyətlərini dayandırdıqdan sonra Azərbaycanla da nankorcasına tərəfdaşlığa yenidən baxmış və uğursuz konfiqurasiyanın formalaşmasına səbəb olmuşlar. Bakı hələ seçkilərdən öncə açıq formada büruzə verirdi ki, yenidən hakimiyyətə qayıdacağı halda Trampın administrasiyasından gözləntiləri böyükdür. Təbii ki, Azərbaycan üçün hansısa beynəlxalq subyektin patronajlığına ehtiyac yoxdur. Biz beynəlxalq hüququn ümumtanınmış prinsiplərinin rəhbər tutulduğu və milli maraqların uzlaşdırıldığı bir münasibətin qurulmasında maraqlıyıq və haqlı olaraq hesab edirdik ki, Sorosun çətiri altında olan demokratlardan fərqli olaraq Tramp iqtidarı bu prosesdə fərqli davranacaq. Həqiqətən də, hadisələrin gedişatı göstərdi ki, rəsmi Bakı proqnozlarında yanılmır", - deyə deputat bildirib.

Bəhruz Məhərrəmov Prezident İlham Əliyevin amerikalı həmkarı Donald Trampın dəvəti ilə ötən ilin avqustunda ABŞ-yə işgüzar səfəri çərçivəsində ölkələrimiz arasında bir sıra sənədlərin, o cümlədən Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında strateji tərəfdaşlığı hədəfləyən Anlaşma Memorandumunun imzalandığını xatırladaraq, qeyd edib ki, memorandumda münasibətlərimizin yeni mərhələsi üçün normativ bazis rolunu oynayacaq Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması və tərəflərin razılaşmasına əsasən, bu prosesin Bakı və Vaşinqton arasında Strateji İşçi Qrupuna həvalə edilməsi nəzərdə tutulur. Yəni indiki məqamda yaradılan Strateji İşçi Qrupunun əsas hədəfi Azərbaycan və ABŞ arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması olacaq. Bu isə öz növbəsində Vaşinqton və Bakı arasında münasibətlərin, demək olar ki, bütün sferalarını əhatələyir, xüsusən Bayden administrasiyası dönəmində sıfırlanmış əlaqələrin yenidən canlandırılması və strateji səviyyəyə yüksəldilməsi üçün perspektivlər araşdırılacaq. Strateji İşçi Qrupunun yaradılmasının digər önəmi isə ondan ibarətdir ki, ABŞ Cənubi Qafqazın aparıcı dövləti ilə münasibətlərini Azərbaycanın işğal və təcavüzə son qoyan böyük Zəfəri sonrası yaranan yeni hərbi-siyasi konfiqurasiyaya uyğun şəkildə yenidən nizamlayacaq. Bu isə Azərbaycanın yaratdığı yeni reallıqların qəbul edilməsi və Amerika kimi böyük strateji gücün öz maraqlarını bu formata uyğunlaşdırması baxımından Bakının geosiyasi qələbəsidir.

Deputat deyib ki, Azərbaycan Avro-Atlantik strukturlarla tərəfdaşlığı bütövlükdə Avro-Atlantik məkanda ümumi təhlükəsizliyə, iqtisadi inkişafa və demokratiyaya dəstək verəcək vasitə kimi görür: "Bu çərçivədə ölkəmiz hər zaman ABŞ ilə tərəfdaşlığa böyük perspektivə malik istiqamət kimi baxıb və antiterror koalisiyasında, beynəlxalq terrorizm, separatçılıq, kütləvi qırğın silahlarının yayılmasının qarşısının alınması, transmilli mütəşəkkil cinayətkarlıq, narkotik vasitələrin qanunsuz dövriyyəsi, korrupsiya, qanunsuz silah və insan alveri kimi qlobal çağırış və təhdidlərə qarşı mübarizə məsələlərində, ikitərəfli münasibətlər səviyyəsində isə siyasi, hərbi, iqtisadi, enerji təhlükəsizliyi sahələrində, ölkəmizdə demokratik islahatların aparılması istiqamətində uğurla əməkdaşlıq edib. Ötən dövr kifayət qədər mürəkkəb tarixi inkişaf yolu keçmiş ABŞ-Azərbaycan münasibətlərini təhlil etsək, əminliklə deyə bilərik ki, bu gün Azərbaycanın artıq yeni reallıqlar yaratdığı bir şəraitdə ABŞ Prezidenti Donald Trampın məsələyə daha praqmatik yanaşması, bu bölgədə bərabərhüquqlu tərəfdaşlıqda maraqlı olduğunu göstərməsi nəticə etibarilə 907-ci düzəlişin tam ləğvi ilə bağlı məsələnin zərurətini gündəmə gətirib. Xüsusən ABŞ-nin Azərbaycanın yaratdığı yeni reallıqları qəbul etdiyini, həmçinin bu reallıqlarda öz maraqlarını təmin etmək üçün bərabər tərəf kimi, özünə bərabərhüquqlu tərəfdaş kimi Azərbaycanı seçdiyini məhz ABŞ liderinin son ritorikasına istinadən görə bilirik".

O bildirib ki, ABŞ-nin hazırkı administrasiyası Bakı ilə eyni mövqeyi bölüşür. 907-ci düzəliş qəbul edilərkən nə ABŞ-nin milli, nə də dövlətçilik maraqları nəzərə alınıb. 2025-ci ilin avqust ayında Ağ Evdə görüş zamanı Prezident İlham Əliyevin iştirakı ilə Donald Trampın 907-ci düzəlişin birdəfəlik ləğvinə dair simvolik sənədi imzalaması özlüyündə məhz bu mövqenin göstəricisidir. Lakin məlumdur ki, ABŞ qanunvericiliyinə görə Senatın qəbul etdiyi sənəd məhz Senatda ləğv edilə bilər. "Bu mənada, dövlət başçımızın da ifadə etdiyi kimi, hazırda biz ABŞ Senatının sağlam mövqe nümayiş etdirərək 907-ci düzəlişin tam şəkildə ləğv edilməsinə qərar verəcəyini gözləyirik. Artıq hər kəs, o cümlədən ABŞ üçün aydındır ki, Azərbaycan müstəqilliyini yeni əldə etmiş, işğala, təcavüzə məruz qalmış və üzərində təsir formalaşdırıla biləcək dövlət deyil. Bu mənada, Azərbaycanla münasibətlərdə diktə dili ilə danışmağa hüquqi bazis yaradan heç bir sənədin perspektivi yoxdur. İndiki halda isə özünün inkişafının tam yeni mərhələsinə qədəm qoyan ABŞ-Azərbaycan münasibətləri qarşısında əngəl kimi çıxış edən 907-ci düzəlişin ən qısa zamanda aradan qaldırılacağına böyük ümidlərin olduğunu demək üçün ciddi əsaslar var. Təbii ki, 907-ci düzəlişin ləğvi Azərbaycan üçün xüsusi olaraq iqtisadi nəsə vəd etmir, amma bizim üçün əsas olan ABŞ-Azərbaycan münasibətlərinin sağlam, qərəzsiz əsaslarla qurulmasıdır".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

---

*Türk professor:*

## "Azərbaycan regionun gələcəyini formalaşdıran məsuliyyətli aktor kimi çıxış edir"

"Prezident İlham Əliyev müsahibəsində yalnız daxili auditoriya üçün deyil, həm də regionun geosiyasi gələcəyi üçün mühüm mesajlar verib. Prezidentin Türkiyə-Azərbaycan əlaqələri, Zəngəzur dəhlizi və beynəlxalq hüquq barədə səsləndirdiyi fikirlər, regionun yeni reallıqlarını əks etdirir və Bakı-Ankara strateji müttəfiqliyinin möhkəmlənməsinə dair aydın perspektiv təqdim edir".

Bu fikirləri AZƏRTAC-a müsahibəsində Türkiyənin Qars Qafqaz Universitetinin professoru Elnur Hasan bildirib.

Onun sözlərinə görə, Prezident İlham Əliyev bir çox çıxışlarında Azərbaycan və Türkiyə arasında əlaqələrin qarşılıqlı hörmət və strateji maraqlarla formalaşan müttəfiqlik səviyyəsinə yüksəldiyini, regional sabitliyi qorumaq üçün bu əməkdaşlığın daha da gücləndirilməsinin vacibliyini vurğulayıb. Bu baxış, yalnız diplomatik ifadə deyil, 44 günlük Vətən müharibəsindən sonra formalaşan geosiyasi kontekstdə iki ölkə arasında təhlükəsizlik, iqtisadi inteqrasiya və çoxtərəfli əməkdaşlığın əsasını təşkil edir.



Professorun fikrincə, Ankara-Bakı strateji tərəfdaşlığı çərçivəsində Zəngəzur dəhlizi məsələsi xüsusi yer tutur. "Zəngəzur dəhlizi, sadəcə, bir nəqliyyat xətti deyil, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında birbaşa, fasiləsiz əlaqəni təmin edən strateji layihədir. Zəngəzur dəhlizi Avrasiya nəqliyyat xəritəsində həm Qərb-Şərq, həm də Şimal-Cənub dəhlizlərinin birləşdirici hissəsi kimi çıxış edəcək. Bu, təkcə iqtisadi inteqrasiyanın yox, həm də regional təhlükəsizlik və stabilizasiya mexanizmlərinin işləməsi baxımından da böyük əhəmiyyət daşıyır", - deyə E.Hasan bildirib.

Türkiyə-Azərbaycan müttəfiqliyinin hüquqi və strateji cəhətdən yalnız iki ölkənin sərhədləri ilə məhdudlaşmadığına diqqət çəkən ekspert qeyd edib ki, Prezident İlham Əliyev Türk Dövlətləri Təşkilatı çərçivəsində əlaqələrin dərinləşdirilməsinin vacibliyini də vurğulayır və bu çərçivədə təhlükəsizlik sahəsində də daha sıx əməkdaşlıq çağırışı edir. Bu, yalnız regional sabitlik üçün deyil, həm də beynəlxalq sistemdə yeni nizam və qarşılıqlı təhlükəsizlik mexanizmlərinin yaradılması baxımından əhəmiyyətlidir.

Elnur Hasan sonda əlavə edib ki, Prezident İlham Əliyevin açıqlamaları Azərbaycanın balanslı, prinsipial və uzaqgörən xarici siyasət xəttinin məntiqi davamıdır. Azərbaycan bu gün yalnız öz milli maraqlarını deyil, regionun və daha geniş coğrafiyanın ədalətə, əməkdaşlığa və davamlı sülhə əsaslanan gələcəyini də formalaşdıran məsuliyyətli aktor kimi çıxış edir.

---

*Qırğızıstanlı analitik:*

## "Mərkəzi Asiya-Azərbaycan-Türkiyə əməkdaşlığı regional sabitliyə xidmət edir"

"Mərkəzi Asiya ölkələrinin Azərbaycan və Türkiyə ilə hərbi əməkdaşlığı artıq uzun müddətdir ki, təcrübə mübadiləsi, hərbi texnologiyalar sahəsində qarşılıqlı öyrənmə, o cümlədən zabit heyətinin hazırlanması istiqamətində davam etdirilir".



Bunu AZƏRTAC-a açıqlamasında qırğızıstanlı siyasi analitik Almaz Tajıbay bildirib.

Ekspert bu əməkdaşlığın orduların döyüş qabiliyyətinin artırılması baxımından mühüm əhəmiyyət daşıdığını vurğulayıb. Onun sözlərinə görə, xüsusi təyinatlı bölmələr arasında terrorizmə qarşı koordinasiyanın gücləndirilməsi, orduların rəqəmsal modernləşdirilməsi və döyüş dronlarından istifadənin genişləndirilməsi müasir təhlükəsizlik çağırışlarına adekvat cavab vermək baxımından zəruridir.

Almaz Tajıbay bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyevin hərbi-siyasi əməkdaşlığın dərinləşdirilməsi ilə bağlı irəli sürdüyü təşəbbüs həm qlobal, həm də regional miqyasda artan çağırışlar fonunda praqmatik və vaxtında atılmış addımdır. Bu yanaşma region ölkələrinin təhlükəsizlik arxitekturasının möhkəmləndirilməsinə xidmət edir.

Analitikin fikrincə, Mərkəzi Asiya ölkələri, Azərbaycan və Türkiyə arasında iqtisadiyyat, mədəniyyət, təhsil, turizm və təhlükəsizlik sahələrində əməkdaşlıq ortaq mədəni dəyərlər zəminində Türk Dövlətləri Təşkilatı və TÜRKSOY çərçivəsində ardıcıl şəkildə inkişaf edir.

O qeyd edib ki, ötən il Azərbaycanın Mərkəzi Asiya dövlət başçılarının məşvərətçi görüşlərinə qoşulması siyasi dialoqun dərinləşdirilməsi, iqtisadi və ticarət əlaqələrinin genişləndirilməsi, nəqliyyat-logistika imkanlarının artırılması, eləcə də mədəni-humanitar əməkdaşlığın gücləndirilməsi baxımından mühüm mərhələdir. Bu addım regionda təhlükəsizliyin və sabitliyin təmin olunmasına xidmət edir.

"Bu proses Mərkəzi Asiya ölkələrinin əməkdaşlıq coğrafiyasının Cənubi Qafqaza doğru genişləndirildiyini göstərir. Azərbaycan Xəzərin hər iki sahilini birləşdirən strateji körpü rolunu oynayaraq, bu əməkdaşlığı Türkiyəyə və daha geniş geosiyasi məkana bağlayan mühüm aktor kimi çıxış edir", - deyə qırğızıstanlı analitik vurğulayıb.

# Diplomatik nailiyyətlərin zirvəyə çatdığı il

## Bu, Azərbaycanın qətiyyətli xarici siyasətinin bariz göstəricisidir

Yanvarın 5-də Prezident İlham Əliyevin yerli televiziya kanallarına verdiyi müsahibə ölkənin ictimai-siyasi gündəmini müəyyən edən əsas hadisələrdən biri kimi diqqət çəkib. Müsahibə zamanı dövlət başçısı Azərbaycanın daxili və xarici siyasətində baş verən proseslərə ətraflı münasibət bildirib, son illərdə əldə olunan nailiyyətləri təhlil edib və qarşıdakı dövr üçün prioritet istiqamətləri açıqlayıb. Prezidentin səsləndirdiyi fikirlər və verdiyi mesajlar həm cəmiyyət daxilində, həm də beynəlxalq müstəvidə Azərbaycanın strateji xəttinin daha aydın şəkildə dərk olunmasına xidmət edir.



Milli Məclisin deputatı Kamran Bayramov qəzetimizə açıqlamasında bildirib ki, Prezident İlham Əliyev müsahibəsində 2025-ci ili Azərbaycan üçün tarixi mərhələ kimi dəyərləndirib: "Dövlət başçısı qeyd edib ki, məhz həmin il Ermənistan-Azərbaycan münaqişəsinə siyasi baxımdan tam şəkildə son qoyulub və döyüş meydanında qazanılan qələbə beynəlxalq siyasi müstəvidə rəsmiləşdirilib. Avqust ayında ABŞ Prezidenti Donald Trampın dəvəti ilə Vaşinqtona həyata keçirilən səfər, Ağ Evdə aparılan danışıqlar və BMT Baş Assambleyasında səsləndirilən mövqelər bu prosesin kulminasiya nöqtəsi kimi xarakterizə olunub. Prezident vurğulayıb ki, əldə edilən razılaşmalar yalnız Azərbaycanın milli maraqlarına deyil, həm də regionda sülhün və sabitliyin möhkəmlənməsinə xidmət edir. Ölkə rəhbəri bildirib ki, ölkənin sülh şəraitində inkişafı siyasi və iqtisadi sahələrdə öz müsbət təsirlərini açıq şəkildə göstərir".

Deputat qeyd edib ki, Prezident İlham Əliyevin müsahibəsində toxunduğu mühüm xarici siyasət uğurlarından biri də Azərbaycanın Mərkəzi Asiya Məşvərət Şurasına tamhüquqlu üzv seçilməsi olub. Dövlət başçısı bu hadisəni əlamətdar siyasi diplomatik nailiyyət kimi dəyərləndirib. O qeyd edib ki, Azərbaycan coğrafi baxımdan Cənubi Qafqazda yerləşsə də, Mərkəzi Asiya ölkələri ilə həm ikitərəfli, həm də çoxtərəfli formatlarda qurulan sıx münasibətlər və son illərdə həyata keçirilən çoxsaylı birgə layihələr bu qərarın əsasını təşkil edib. Məhz bu ardıcıl və məqsədyönlü siyasətin nəticəsi olaraq Mərkəzi Asiya dövlətləri Məşvərət Şurasına yekdilliklə Azərbaycanın tamhüquqlu üzvlüyünü dəstəkləyiblər. Dövlət başçısı xatırladıb ki, əvvəlki iki Zirvə görüşündə fəxri qonaq qismində iştirak etsə də, üçüncü Zirvə görüşündə Azərbaycanın bu quruma artıq tamhüquqlu üzv kimi qəbul olunması yeni siyasi mərhələnin başlanğıcıdır. Bu gün Mərkəzi Asiya-Azərbaycan birliyi təkcə regional deyil, həm də qlobal miqyasda mühüm əhəmiyyət daşıyır. C5 formatının C6-ya çevrilməsi bağlantılar, nəqliyyat və logistika baxımından dünya üçün yeni imkanlar açır. "Mövcud geosiyasi reallıqlar fonunda Mərkəzi Asiyanı Qərblə etibarlı şəkildə birləşdirə bilən əsas ölkənin məhz Azərbaycan olduğu xüsusi qeyd edilib. Prezident İlham Əliyev bildirib ki, Azərbaycanın "canlı körpü" və etibarlı tərəfdaş rolu artıq praktik nəticələr verir. Ölkəmizin ərazisindən keçən yüklərin həcmi sürətlə artır və ilk dəfə olaraq tranzit konteynerlərin sayı yüz mini ötüb. Bunun yalnız başlanğıc olduğunu deyən dövlət başçısı yaxın illərdə bu rəqəmin dəfələrlə artacağını vurğulayıb. Artan tələbat fonunda Azərbaycan nəqliyyat və logistika infrastrukturunun genişləndirilməsinə əlavə investisiyalar yönəldir. Prezident müsahibəsində 2024-cü ilin noyabrında Azərbaycan, Qazaxıstan və Özbəkistan prezidentləri arasında Bakıda imzalanmış enerji kabeli layihəsini də xüsusi qeyd edib. Bildirilib ki, Xəzərin dibi ilə çəkiləcək enerji və fiber-optik kabellər regional inteqrasiyanı daha da gücləndirəcək. Dövlətimizin başçısının fikrincə, Mərkəzi Asiya ölkələrinin Azərbaycanın bu platformaya rəsmi üzvlüyünü təsdiqləməsi həm ölkəmizə göstərilən yüksək etimadın, həm də regionun gələcəyinə dair uzaqgörən və strateji yanaşmanın bariz nümunəsidir", - deyə K.Bayramov əlavə edib.

Deputat diqqətə çatdırıb ki, Qəbələdə keçirilən Türk Dövlətləri Təşkilatının Zirvə görüşündə Prezident İlham Əliyevin çıxışı türk dövlətləri arasında təhlükəsizlik və hərbi əməkdaşlıq məsələlərinin ön plana çəkilməsi ilə yadda qalıb. Dövlət başçısı bunun məhz öz təşəbbüsü olduğunu təsdiqləyərək, müasir beynəlxalq münasibətlər sistemində hər bir ölkənin ilk növbədə öz təhlükəsizliyini və hərbi potensialını gücləndirməsinin zəruriliyini xüsusi vurğulayıb. Qlobal proseslər göstərir ki, bugünkü dünyada güc, əməkdaşlıq, müttəfiqlik və qarşılıqlı dəstək həlledici amillərə çevrilib. Ölkəmizin rəhbəri beynəlxalq hüququn faktiki olaraq işləmədiyini, real təhlükəsizlik zəmanətinin isə yalnız güclü dövlətlər və etibarlı tərəfdaşlıq əsasında formalaşdığını bildirib. Məhz bu reallıqları nəzərə alaraq Prezident İlham Əliyev Qəbələdə üzv ölkələrin birgə hərbi təlimlərinin Azərbaycanda keçirilməsi təşəbbüsünü irəli sürüb. Dövlət başçısının fikrincə, bu cür təlimlər həm rəmzi baxımdan türk dövlətlərinin birliyini nümayiş etdirər, həm də praktiki müstəvidə qarşılıqlı fəaliyyət və koordinasiyanı gücləndirər. Prezident vurğulayıb ki, Azərbaycan artıq TDT-yə üzv ölkələrlə, xüsusilə Türkiyə ilə ikitərəfli formatda mütəmadi hərbi təlimlər keçirir. Lakin çoxtərəfli, yəni bütün türk dövlətlərini əhatə edən birgə təlimlərin keçirilməsi yeni keyfiyyət mərhələsi ola bilər. Bu, həm təhlükəsizlik sahəsində təcrübə mübadiləsinə, həm də regional və qlobal çağırışlara birgə cavab vermək imkanlarının formalaşmasına xidmət edər.

K.Bayramov xatırladıb ki, dövlət başçısı çıxışında Azərbaycanın hərbi gücdən istifadə məsələsində nümayiş etdirdiyi məsuliyyətli mövqeyə də toxunub: "Ölkə rəhbəri bildirib ki, 2020-ci və 2023-cü illərdə, eləcə də ondan sonrakı dövrdə Azərbaycan kifayət qədər güclü mövqedə olsa da, məqsədyönlü şəkildə mülki əhaliyə və şəhərlərə qarşı dağıdıcı addımlar atmayıb. Prezidentin sözlərinə görə, bu, həm ədalət prinsiplərinə sadiqliyin, həm də uzunmüddətli sülhə yönəlmiş siyasi uzaqgörənliyin göstəricisidir. Hərbi gücün mövcudluğu müharibə aparmaq üçün deyil, məhz müharibənin qarşısını almaq üçündür. Güclü ordu və etibarlı müttəfiqlər ölkənin təhlükəsizliyinin əsas təminatıdır. Heç bir dövlət Azərbaycanı zəif hesab etməməli, heç kim ölkəmizə qarşı hər hansı təhdidin cavabsız qalacağını düşünməməlidir. Məhz bu prinsip Türk Dövlətləri Təşkilatı çərçivəsində hərbi əməkdaşlığın genişləndirilməsinin əsas ideya xəttini təşkil edir.

K.Bayramov vurğulayıb ki, göründüyü kimi, 2025-ci il Azərbaycanın xarici siyasət tarixində mühüm mərhələ kimi yadda qalıb: "Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən ardıcıl və praqmatik diplomatiya nəticəsində ölkəmiz beynəlxalq arenada mövqelərini daha da möhkəmləndirib və strateji tərəfdaşlıqlarını genişləndirib. Çinlə münasibətlərin hərtərəfli strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsi və D-8 kimi nüfuzlu beynəlxalq təşkilata üzvlük Azərbaycanın artan qlobal nüfuzunun və balanslı xarici siyasətinin bariz göstəricisidir. Bu uğurlar göstərir ki, Azərbaycan yalnız regional deyil, həm də qlobal miqyasda etibarlı tərəfdaş kimi qəbul olunur və 2025-ci il ölkəmizin diplomatik nailiyyətlərinin zirvəyə çatdığı il kimi dəyərləndirilə bilər".

***Əsmər QARDAŞXANOVA, "Azərbaycan"***

# "Cənubi Qafqaz böhranların idarə olunması məntiqindən inkişaf idarəetməsi məntiqinə keçir"

Rusiya ardıcıl olaraq Azərbaycan ilə Ermənistan arasında sülh yolu ilə nizamlanmanı dəstəkləyir, çünki bu, Cənubi Qafqazda təhlükəsizliyin təmin edilməsi ilə birbaşa bağlıdır.



AZƏRTAC xəbər verir ki, bu barədə rusiyalı politoloq Aleksey Yaroşenko Azərbaycan Prezidenti İlham Əliyevin yerli televiziya kanallarına verdiyi müsahibəni şərh edərkən bildirib.

Ekspert qeyd edib: "Rusiya, xüsusən də postsovet məkanında və Cənubi Qafqaz kimi vacib bir bölgədə sülh yolu ilə nizamlanmanı alqışlayır və həmişə təqdir edib, çünki bu region Rusiyanın sərhədlərinə birbaşa bitişikdir".

Onun sözlərinə görə, iki Cənubi Qafqaz ölkəsi arasında sülh regionda uzunmüddətli sabitliyin təməlini yaradır.

Prezident İlham Əliyevin müsahibəsində qeyd olunan məqamları şərh edən A.Yaroşenko bildirib ki, Bakı ilə Yerevan arasında münasibətlər prinsipcə yeni səviyyəyə çatır. "Azərbaycan ilə Ermənistan arasında münasibətlər inkişaf etməyə başlayır və artıq birbaşa qurulur. Rusiya üçün bu, yenidən gərginləşmə riskinin azalması deməkdir. Region böhran və hərbi münaqişələrin idarə olunması məntiqindən inkişaf idarəetməsi məntiqinə keçir. Bu, Rusiya üçün aydın və məqbul bir modeldir", - deyə o əlavə edib.

İqtisadi və infrastruktur layihələrinin əhəmiyyətindən danışan politoloq vurğulayıb: "Cənubi Qafqazda uzunmüddətli iqtisadi və infrastruktur layihələri nə qədər çox olarsa, qəfil güc istifadəsi ssenariləri üçün bir o qədər az yer qalar".

Prezident İlham Əliyevin Azərbaycan cəmiyyətinin sülh dövründə yaşamağı öyrəndiyi barədə sözlərinə münasibət bildirən A.Yaroşenko Ermənistanda da oxşar proseslərin baş verəcəyinə ümid etdiyini bildirib: "Ümid edirik ki, Ermənistan cəmiyyəti müharibə və militarist əhvali-ruhiyyəni azaldacaq".

Xarici aktorların roluna gəldikdə, ekspert zamin statusu uğrunda artan rəqabəti qeyd edib. "Rusiya heç vaxt bu roldan imtina etməyib və onu effektiv şəkildə yerinə yetirmək üçün daha böyük resurslara və öhdəliklərə malikdir. Lakin nəticə etibarilə, xarici zamin kimi kimin çıxış edəcəyini Ermənistan və Azərbaycan müəyyən etməlidir", - deyə Yaroşenko bildirib.

Politoloq həmçinin Azərbaycan Prezidentinin müsahibəsində qaldırılan kommunikasiyaların açılması məsələsinə də münasibət bildirib: "Ermənistan kommunikasiyaların açılmasından faydalanacaq və uduzan tərəf hesab olunmasına baxmayaraq, bu ölkə də uzunmüddətli sülhün bərqərar olmasından yararlanacaq".

Onun sözlərinə görə, bu marşrutların açılması Ermənistan üçün yeni iqtisadi imkanlar yaradacaq. Ermənistan Rusiya, İran və Türkiyə bazarlarına daha şaxələnmiş çıxış əldə edəcək və bir neçə marşrutla məhdudlaşmaq əvəzinə, əsas logistika zəncirlərinə inteqrasiya oluna biləcək.

Nəqliyyat dəhlizlərinin əhəmiyyətini şərh edən A.Yaroşenko daha sonra vurğulayıb: "Bu marşrutlar "Şimal-Cənub" nəqliyyat dəhlizi boyunca mövcud logistika marşrutlarının təkrarlanmasına və şaxələndirilməsinə imkan verəcək. Rusiya və dünya üçün bu, malların daşınması baxımından vacib bir dəhlizdir".

Şərhini ümumiləşdirən politoloq regionun yeni bir mərhələyə qədəm qoyduğunu bildirib: "Cənubi Qafqaz bu gün yeni bir mərhələyə qədəm qoyur, bu mərhələdə avtomobil, dəmir yolları, limanlar və logistika mərkəzləri regional dayanıqlıq üçün çərçivə təşkil edəcək". O əlavə edib ki, iqtisadi əlaqələr panaseya deyil, əhəmiyyətli sabitləşdirici amil olaraq qalır.

"Rusiya müharibədən sonrakı yeni dövrdə Ermənistan ilə Azərbaycan arasında sıx iqtisadi əlaqələrin qurulmasını alqışlayır və inanır ki, bu, Cənubi Qafqazda uzunmüddətli kollektiv təhlükəsizlik sisteminə töhfə verəcək", - deyə A.Yaroşenko sözlərini yekunlaşdırıb.

# Ermənistan-Rusiya "qarşıdurma"sı və iqtisadi reallıqlar

## İki ölkə arasında ticarət dövriyyəsinin dəyərinin 12 milyard dollara qədər artması birbaşa reeksportun nəticəsidir

2018-ci ildən etibarən, yəni Ermənistan Baş naziri Nikol Paşinyanın siyasi rəhbərliyə gəlməsi ilə paralel olaraq Moskva-İrəvan arasında bağların zəifləməsi fonu yarandı. 44 günlük Vətən müharibəsindən sonra tərəflərin hətta açıq qarşıdurma müstəvisinə keçməsi görüntüləndi. Hər iki tərəfin rəsmi çıxışlarda, kütləvi informasiya vasitələrində bir-birini hədəf alan tənqidlərinə, ittihamlarına rast gəlməyə başladıq.



Lakin hadisələrin daxilinə dərindən nüfuz etdikcə, Rusiya-Ermənistan gərginliyinin əslində ustalıqla hazırlanmış siyasi tamaşa olduğu ortaya çıxdı. Bəlli oldu ki, bu ssenarinin əsas hədəfi beynəlxalq ictimaiyyəti iki yaxın müttəfiq arasında uçurumların yarandığına inandırmaqdır. Halbuki siyasi səviyyədəki "soyuq müharibə" görüntüsünə rəğmən, iki ölkə arasında iqtisadi göstəricilər tamamilə fərqli mənzərəni göstərirdi. Son 5 ildə iki ölkə arasında ticarət əlaqələri sürətlə inkişaf edərək təxminən 6 qat böyümüşdü.

Maraqlıdır ki, Qərb dairələri İrəvanın qanunsuz fəaliyyətinə səssiz qalmaqla yanaşı, həm də onu hərbi və maliyyə baxımından gücləndirməyə davam edirlər. Qlobal arenada kəskin qarşıdurma yaşayan Rusiya və Qərb, Ermənistan məsələsində qəribə bir şəkildə eyni mövqedən çıxış edirlər. Avropa İrəvanın sözdə "avropayönlü" bəyanatlarını Ermənistana dəstək üçün bəhanə edir, halbuki Ermənistan hələ də KTMT və Aİİ kimi qurumların üzvüdür. Arabir rəsmi şəxslər vasitəsilə ictimaiyyətə ötürülən qarşılıqlı ittihamlar, əslində, münasibətlərin pisləşməsi barədə yanlış təsəvvür yaratmağa xidmət edir. Reallıqda Ermənistan torpaqlarında Rusiya hərbi bazaları və sərhəd qoşunları hələ də mövcudluğunu qoruyur. Avropa dövlətləri isə öz iqtisadi maraqlarını və regiondakı strateji mənafelərini qorumaq naminə Ermənistandan hələ də faydalanırlar.

Rusiya-Ermənistan arasındakı münasibətlərə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 5-də yerli televiziya kanallarına verdiyi müsahibə zamanı diqqət çəkib. Dövlət başçısı Ermənistan-Rusiya ticarət əlaqələrinin genişlənməsinə və bu əlaqələrin Qərbin Rusiyaya qarşı tətbiq etdiyi sanksiyalardan yayınmaq üçün istifadə olunması məsələsinə toxunub: "Rusiya-Ukrayna müharibəsi başlayanda Ermənistan ilə Rusiya arasında ticarət dövriyyəsi təxminən 2 milyard dollar idi. İki il sonra isə bu rəqəm 12 milyard dollara çatdı. Bu artıq hər şeyi açıq şəkildə göstərir. Bu, sanksiyalardan yayınma mexanizmidir. Onların dediyi kimi, paralel idxal və ya "boz zona" idxalıdır".

Dövlət başçısının təqdim etdiyi statistik məlumatlar kifayət qədər aydın və təkzibedilməzdir. İki ölkə arasında dövriyyənin bu dərəcədə yüksəlməsi sırf ticarətin təbii inkişafı ilə izah oluna bilməz. Bu qədər kəskin artım yalnız məqsədli və sistemli mexanizmlər vasitəsilə mümkündür. Rusiyanın Baş nazirinin müavini Aleksey Overçuk da 2024-cü ildə iki ölkə arasında ticarət dövriyyəsinin 12,4 milyard dollar olduğunu etiraf edib. Rusiya rəsmiləri Ermənistanla ticarət dövriyyəsinin 14-16 milyard dollara çatacağını deyiblər. Rusiyanın xarici işlər naziri Sergey Lavrov ölkəsinin Ermənistan üçün əsas ticarət tərəfdaşı olaraq qaldığını deyib. Yəni Rusiya birbaşa idxal edə bilmədiyi məhsulları Ermənistan vasitəsilə alır, bu isə beynəlxalq sanksiyaların mahiyyətcə pozulması deməkdir. Prezident haqlı olaraq bunu "sanksiyalardan yayınma mexanizmi" kimi səciyyələndirir və beynəlxalq diqqətin yetirilməməsinə təəccübünü ifadə edir: "Lakin nə Avropa Komissiyası, nə Avropa Parlamenti, nə də Avropa Şurası Parlament Assambleyasında heç kim bu barədə bir söz belə demədi. Nə Ermənistanı qınadı, nə də ümumiyyətlə, sanksiyalar mövzusuna toxundu. Çünki onlar üçün sanksiyalardan yayınma kanalı olmaq qəbul ediləndir". Bu yanaşma Qərbin Ermənistana münasibətdə ikili standartlardan istifadə etdiyini, regiondakı mövqeyinin qeyri-obyektiv olduğunu, geosiyasi maraqlara əsaslandığını nümayiş etdirir. Prezident İlham Əliyev Azərbaycanın iqtisadi inkişafının tamamilə şəffaf, qanuni və real iqtisadi fəaliyyətə əsaslandığını vurğulayır. Dövlət başçısı qeyd edir ki, Azərbaycan heç bir sanksiya rejimini pozmur, iqtisadi göstəriciləri isə sabit və davamlı artım nümayiş etdirir. Bu, ölkəmizin beynəlxalq arenada etibarlı və məsuliyyətli tərəfdaş olduğunu bir daha sübut edir: "Bizim ÜDM-in artması isə kiməsə sanksiyalardan yayınmağa kömək etdiyimizə görə deyil. Biz bunu etmirik. O, iqtisadi fəaliyyətimizin real nəticələri hesabına artır".

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov "Azərbaycan" qəzetinə açıqlamasında deyib ki, Prezident İlham Əliyev bu məsələyə birbaşa aydınlıq gətirib. Komitə sədrinin sözlərinə görə, dövlət başçısı birmənalı vurğulayıb ki, Rusiya-Ukrayna müharibəsi başlayanadək Ermənistan və Rusiya arasında iqtisadi ticarət dövriyyəsi 2 milyard dollardan çox deyildi, ancaq müharibədən sonra birdən-birə 12 milyard dollar səviyyəsinə yüksəlib: "Ötən müddət ərzində Rusiya-Ermənistan arasında yaradılmış "gərginlik" görüntüsü məhz ona xidmət edirdi ki, Ermənistan vasitəsilə sanksiya altında olan məhsullar Rusiyaya çatdırılsın. Rusiyaya ixracı qadağan edilən mallar birbaşa Ermənistan üzərindən çatdırılırdı. Əks təqdirdə ticarət dövriyyəsinin qısa müddətdə 2 milyard dollardan 12 milyard dollara qədər artmasının səbəbini başqa cür izah etmək qeyri-mümkündür. Bəzi opponentlər bunu qəbul etmirlər və deyirlər ki, müharibədən sonra Rusiyadan Ermənistana qaçanlar çox olub və s. Bu, tamamilə boş söhbətdir. Rusiyadan Ermənistana nə qədər insan axın etsə də, ticarət dövriyyəsini 12 milyard dollara yüksəldə bilməz. Belə bir rəqəmin ortaya çıxması üçün böyük ticari əlaqələr labüddür. Bunu gizlətmək üçün Ermənistanın guya Rusiya ilə konfrantasiya halında olduğu, tərəflər arasında qarşıdurma yaşandığı, İrəvanın Qərbin tətbiq etdiyi sanksiyalara qoşulduğu görüntüsü yaradılmalı idi".

Səməd Seyidov diqqətə çatdırıb ki, Ermənistan Avropa strukturları ilə əlbir olaraq Rusiyaya qadağan olunmuş məhsullar satıb. Ona görə də Qərb strukturları, Avropa təsisatları bununla bağlı heç bir bəyanat verməyiblər: "Cənab Prezident bu məqamı da dilə gətirdi. Amma bunu sadəcə biz görmürük ki? Bütün dünyanın gözü qarşısında bu addımlar atılırdı. Azərbaycan və Rusiyanın ticarət dövriyyəsi Rusiya ilə Ukrayna arasındakı müharibəyədək 4 milyard dollardan yuxarı idi. Müharibə dövründə bir neçə yüz milyon dollar civarında artım var. Azərbaycan-Rusiya arasında ticarət dövriyyəsindəki artım normal məntiqə əsaslanır. Ancaq 2 milyard dollardan 12 milyard dollara qədər yüksəliş birbaşa reeksportun nəticəsidir. Həmçinin Ermənistanın Avropa strukturları ilə birgə fəaliyyətinin göstəricisidir. Avropa özü qadağan etdiyi malların qeyri-qanuni satışını təşkil etmək, əlavə gəlir götürmək üçün Ermənistandan istifadə edir. Nəticədə yenə də beynəlxalq aləmin ikiüzlülüyü, gözdən pərdə asmaq siyasəti, sözdə bir cür, əməldə isə tamam başqa cür addımların şahidi oluruq".

Səməd Seyidov vurğulayıb ki, cənab Prezident müsahibəsində bir daha bəyan edib ki, beynəlxalq qanunlar artıq işləmir. Məhz Ermənistan-Rusiya arasında ticarət dövriyyəsinin artması, yəni sanskiyalar altındakı məhsulların Rusiyaya satılmasının özü də beynəlxalq qanunların işlək olmamasının, qeyri-səmimiyyətin bariz göstəricisidir: "Ermənistanın beynəlxalq qanunlara zidd addımlarını görməmək, Azərbaycanda nəyisə qabarıq şəkildə dünyaya təqdim etmək ikiüzlülüyün təzahürüdür. Çox təəssüflər olsun ki, bugünkü dünyada beynəlxalq qurumların qəbul etdikləri nizam-intizama və davranış prinsiplərinə tamamilə zidd addımlar atılmaqdadır. Dünya artıq fərqlidir və hazırda beynəlxalq qanunlar əvəzinə cənab Prezidentin dediyi kimi, qarşılıqlı əlaqələrə, müttəfiqliyə və iqtisadi gücə əsaslanan siyasət həyata keçirilir".

***İsmayıl QOCAYEV, "Azərbaycan"***

Azərbaycan Vətən müharibəsindəki Zəfərini beynəlxalq və siyasi müstəvidə möhkəmləndirmək və təsdiqləmək üçün ötən müddətdə bu istiqamətdə mühüm işlər həyata keçirib. Prezident İlham Əliyevin siyasi məharəti və uzaqgörən diplomatiyası sayəsində dövlətimiz qarşısına qoyduğu bu prioritetə qətiyyətlə nail olub və bu gün dünya Azərbaycanın tarixə, beynəlxalq hüquqa və ədalətə əsaslanan Zəfərini qəbul edir.



# Haqlı və güclü olmağın Azərbaycan nümunəsi

## 2025-ci il ölkəmizin xarici siyasətində yüksək uğurlarla yadda qaldı

Ötən il 8 avqust tarixli Vaşinqton Sammitində dünyanın supergüc ölkəsi ABŞ-nin rəhbəri Donald Trampın iştirakı ilə sülh sazişi mətninin paraflanması, bölgədə kommunikasiyaların açılması və digər mühüm məsələlərlə bağlı vacib razılaşmaların əldə edilməsi həm də elə Azərbaycanın haqlı zəfərinin beynəlxalq müstəvidə təsdiqi anlamına gəldi.

Dövlətimiz bu tarixi uğuru ilə qlobal arenada söz sahibi olduğunu, müxtəlif güc dairələrinin qərəzli mövqelərinə rəğmən haqlı mövqeyini qətiyyətlə müdafiə edərək qalib gəldiyini və dünya üçün "haqlı və güclü" olmağın unikal Azərbaycan modelini ortaya qoyub.

### Uğurlu diplomatiyanın təzahürü

Ötən ilin 25 sentyabrında Nyu Yorkda keçirilən BMT Baş Assambleyasının 80-ci sessiyasına Prezident İlham Əliyevin Qarabağ məsələsini məhz öz qətiyyəti və uzaqgörən siyasəti sayəsində nizama salan və elə BMT TŞ-nin onilliklərdir kağız üzərində qalan qətnamələrini yerinə yetirən qalib lider kimi yollanması da dünya praktikasında rast gəlinməmiş müstəsna hal idi.

Qısa zaman ərzində Azərbaycanın keçdiyi inkişaf yolu və qazandığı qələbələr barədə danışan Azərbaycan lideri həmin tarixdə BMT kürsüsündən üzünü beynəlxalq aləmə tutub dedi: "Uzun illər ərzində mən bu kürsüdən Azərbaycana qarşı törədilmiş təcavüz, işğal və ədalətsizlik faciələri barədə danışmışam. Bu gün isə qələbəyə və sülhə aparan uzun yolumuzdan, Azərbaycan tarixində yeni dövrdən, Vətən müharibəsi ilə işğala necə son qoyulduğundan, sülhü siyasi vasitələrlə necə təmin etməyimizdən danışacağam".

BMT Baş Assambleyasının 80-ci sessiyasında Prezident İlham Əliyevə göstərilən böyük ehtiram, nüfuzlu tədbir çərçivəsində qarşı tərəflərin istəyi ilə Azərbaycan rəhbəri ilə keçirilən yüksəksəviyyəli görüşlər isə ölkəmizin beynəlxalq nüfuzunun təzahürü idi.

Ümumiyyətlə, hər il olduğu kimi, ötən il də Prezident İlham Əliyevin müxtəlif nüfuzlu platformalardan ölkəmizin həqiqətlərini dünyaya çatdırması, istər Nyu Yorkda BMT Baş Assambleyasının 80-ci sessiyası, istər Azərbaycanın evsahibliyi etdiyi Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının Qəbələdə keçirilən 12-ci Zirvə Görüşü zamanı etdiyi çıxışlar, istərsə də Kopenhagendə keçirilən "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə toplantısındakı mühüm görüşləri zamanı verdiyi mesajlar ölkəmizin xarici siyasətindəki uğurlar silsiləsinə aiddir. Regionda dayanıqlı sülh mühitinin formalaşdırılmasında şəxsi rolu olan Prezident İlham Əliyevin ötən il ABŞ Prezidenti Donald Trampın və Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisinin dəvəti ilə Yaxın Şərq Sülh Sammitində iştirak etməsi də təsadüfi xarakter daşımırdı.

Bütün bu sadalananlar ölkəmizin beynəlxalq mövqeyinin xeyli möhkəmlənməsinin və Azərbaycana olan beynəlxalq etimadın göstəricisidir. ABŞ, Çin kimi dünyanın siyasi, iqtisadi güc mərkəzlərinin, eləcə də aparıcı ölkələrinin Azərbaycanla əməkdaşlıq etməkdə maraqlı olmaları dövlətimizin yürütdüyü çoxşaxəli xarici siyasətin bəhrəsidir. Bu mənada ötən il də Azərbaycanın xarici siyasətində qazanılan bol uğurlarla yadda qaldı.

Yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsində Prezident İlham Əliyev vurğuladı ki, Azərbaycan-Amerika münasibətlərinin kontekstində 2025-ci il tarixi il sayıla bilər: "Azərbaycanla Amerika arasındakı əlaqələr çox praktik və nəticəyə hesablanmış istiqamətdə cərəyan edir. Oktyabr ayından bu yana mənim tərəfimdən Amerikaya nazirlərdən və özəl sektor nümayəndələrindən, digər məsul şəxslərdən ibarət dörd rəsmi heyət ezam edilmişdir".

Ölkəmizin rəhbərinin sözlərinə görə, demək olar ki, əsas istiqamətlər üzrə strateji xartiyanın hazırlanması və qarşılıqlı sərmayə qoyuluşu, onun təşkili və münasibətlərimizin iqtisadiyyat, ticarət, nəqliyyat, hərbi-sənaye istiqamətlərinin əhatə edilməsi məsələləri müzakirə olunur: "Yəni ümidlərimiz böyükdür, nəticələr də kifayət qədər təsirlidir".

Qədim İpək yolunun birləşdirdiyi və tarixi dostluq münasibətlərinə malik Azərbaycan-Çin əlaqələri də gündən-günə inkişaf edir. Ölkəmizlə hərtərəfli əlaqələr qurmağa Pekin də böyük maraq göstərir və bunu ötən il dekabrın 19-da ad günü münasibətilə Prezident İlham Əliyevə ünvanladığı təbrik məktubunda Çin Xalq Respublikasının Sədri Si Cinpin də vurğulayıb: "Məqsədyönlü rəhbərliyimizlə Çin-Azərbaycan hərtərəfli strateji tərəfdaşlıq münasibətləri sürətlə inkişaf edir, ölkələrimiz arasında qarşılıqlı siyasi etimad daim möhkəmlənir, ikitərəfli faydalı əməkdaşlıq durmadan inkişaf edir və beynəlxalq səviyyədə fəaliyyət səmərəli şəkildə reallaşdırılır".

Yuxarıda sözügedən müsahibəsində xarici siyasət sahəsində ötən il baş verən uğurlu hadisə və prosesləri xarakterizə edən Prezident İlham Əliyev də hesab etdiyini söylədi ki, böyük əhəmiyyət daşıyan hadisələrdən biri Azərbaycanın Çinlə olan strateji tərəfdaşlığıdır: "Keçən il mənim Çinə dövlət səfərim zamanı Hərtərəfli strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə imzalanmışdır və bu da çox böyük uğur sayıla bilər. Çünki Çin də dünyada aparıcı ölkələrdən biridir və bu siyasi çərçivə, siyasi platforma, əlbəttə ki, bizim uğurlu diplomatiyamızın təzahürü sayıla bilər".

### Müstəqil siyasətin nəticəsi

Respublikamızın müxtəlif nüfuzlu beynəlxalq təşkilatlara üzv qəbul edilməsi də Azərbaycanın getdikcə artan qlobal nüfuzunun göstəricisidir.

Azərbaycan ötən il D-8 beynəlxalq təşkilatına üzv oldu. 8 böyük müsəlman ölkəsini birləşdirən və 30 ilə yaxın fəaliyyət göstərən bu təşkilata ötən illər ərzində əlavə üzv qəbul edilməmişdi və birinci genişlənmə qərarından sonra qəbul edilən üzv məhz Azərbaycan oldu. Respublikamızın sözügedən təşkilata üzv qəbul edilməsi ölkəmizə göstərilən hörmət və etimadın nəticəsidir.

"Bizim orada artıq rəsmən iştirakımız, əlbəttə ki, bizə olan hörmətin əlamətidir və bizim apardığımız müstəqil siyasətin nəticəsidir və dərhal biz fəal işlərə başladıq. Bizim təşəbbüsümüzlə Azərbaycanda təşkilatın bir neçə mərkəzi yaradılmışdır - media, iqlim, ekologiya, energetika, nəqliyyat və biz də təbii ki, bu təşkilatda fəal üzv kimi iştirak edəcəyik",- deyə müsahibəsində Prezident İlham Əliyev məlumat verdi.

Azərbaycan ötən il Mərkəzi Asiya ölkələrinin Məşvərət Şurasının da tamhüquqlu üzvü seçildi. Bu mühüm hadisə ilə bağlı yanvarın 5-də verdiyi müsahibəsində Prezident İlham Əliyev söylədi ki, bu da nadir hadisə sayıla bilər: "Çünki təbii ki, coğrafi nöqteyi-nəzərdən biz Mərkəzi Asiyada yox, Cənubi Qafqazda yerləşirik. Ancaq Mərkəzi Asiya ölkələri ilə həm ikitərəfli, həm də çoxtərəfli formatlarda o qədər sıx əlaqələrimiz var və son illər o qədər çox layihələr icra edilir ki, artıq bu ölkələr yekdilliklə bizi tamhüquqlu üzv seçdilər. Biz bunu da böyük bir siyasi və diplomatik uğur hesab edə bilərik...

...Azərbaycanı bu qrupa rəsmən qəbul etməklə Mərkəzi Asiya ölkələri, onların rəhbərləri həm bizə böyük hörmət göstərmiş oldular, həm də ki, öz uzaqgörənliklərini nümayiş etdirdilər. Çünki bu, bölgədə olan geosiyasi vəziyyəti tamamilə dəyişir".

Dövlətimizin rəhbəri İlham Əliyevin mütəmadi xarici səfərləri, bir çox xarici dövlət, hökumət başçılarının Azərbaycana gəlmələri, eyni zamanda ölkəmizdə çoxsaylı beynəlxalq tədbirlərin keçirilməsi fonunda da ölkəmizin qlobal siyasi xəritədə tutduğu əhəmiyyətli yer aydın görünür.

Gətirdiyimiz bəzi nümunələr də təsdiq edir ki, Cənubi Qafqazın lider ölkəsi Azərbaycanın xarici siyasət kursu çoxşaxəliliyi, düzgün müəyyənləşdirilmiş və gələcəyə hesablanmış strategiyası ilə xüsusi seçilir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Zəngəzur dəhlizi - regional və qlobal miqyasda yeni əməkdaşlıq imkanları yaradan layihə

XXI əsrin dəyişən siyasi və iqtisadi reallıqları nəqliyyat-kommunikasiya dəhlizlərinin strateji əhəmiyyətini daha da artırıb. Bu kontekstdə Zəngəzur dəhlizi (TRIPP) regional və qlobal miqyasda yeni əməkdaşlıq imkanları yaradan mühüm layihələrdən biri kimi dünyanın maraq dairəsindədir. Xüsusilə Şərq ilə Qərb, Şimal ilə Cənub arasında əlaqələrin gücləndirilməsində əsas mərkəz olaraq ticarət, logistika və investisiya axınlarını sürətləndirəcək, regionun iqtisadi inteqrasiyasına və sabitliyinə töhfə verəcək.

Azərbaycan, Türkiyə və Mərkəzi Asiya ölkələrini birləşdirən bu dəhliz təkcə nəqliyyat layihəsi deyil. TRIPP həm də regionda sabitliyin, təhlükəsizliyin və davamlı inkişafın təmin olunmasına xidmət edən strateji təşəbbüs və yol xəritəsidir. Məhz bu reallıq regionun gələcək iqtisadi və siyasi mənzərəsini müəyyənləşdirən mühüm layihə kimi diqqət mərkəzindədir. Bu dəhliz Azərbaycanın əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə birləşdirməklə yanaşı, Türkiyə üzərindən Avropa bazarlarına birbaşa çıxışı da təmin edəcək. TRIPP çərçivəsində Zəngəzur dəhlizi Şərq-Qərb və Orta dəhlizin əsas komponentlərindən birinə çevrilərək yük və sərnişin daşımalarının daha sürətli, təhlükəsiz və səmərəli həyata keçirilməsinə imkan yaradacaq.

Bu gün Zəngəzur dəhlizinin (TRIPP) tikintisi region üçün yeni mərhələnin başlanğıcı kimi qiymətləndirilir. Uzun illər bağlı qalmış nəqliyyat-kommunikasiya xətlərinin bərpası texniki məsələ olmaqla yanaşı, iqtisadi və siyasi baxımdan da mühüm addımdır. Layihənin reallaşması yük və sərnişin daşımalarını sürətləndirəcək, tranzit imkanlarını genişləndirəcək və regionu beynəlxalq ticarət marşrutlarının vacib halqasına çevirəcək. Logistika xərclərinin azalması, tranzit vaxtının qısalması və alternativ marşrutların formalaşması nəticəsində region ölkələri üçün yeni iqtisadi imkanlar yaranacaq. Mütəxəssislərin fikrincə, bu layihə qarşıdurmadan daha çox inkişaf və inteqrasiya vəd edir. Azərbaycanın bu istiqamətdə mövqeyi isə yalnız siyasi bəyanatlarla tamamlanmır, konkret və ardıcıl addımlarla təsdiqlənir.

Rəsmi Bakı dəhlizin reallaşması üçün öz üzərinə düşən öhdəlikləri yerinə yetirdiyini və infrastruktur hazırlığının böyük ölçüdə tamamlandığını açıq şəkildə ortaya qoyur. Bu reallıqlar Prezident İlham Əliyevin yanvarın 5-də yerli televiziya kanallarına verdiyi müsahibədə səsləndirdiyi fikirlərdə də aydın ifadəsini tapıb: "Bizim Ermənistan sərhədinə gedən yollarımız - həm dəmir yolu, həm avtomobil yolu, demək olar ki, tezliklə hazır olacaq. Avtomobil yolunun hazırlığı təxminən 95 faizdir. Dəmir yolunun fiziki hazırlığı 70 faizdir. Biz işi sürətləndirə də bilərik. Amma Ermənistan ərazisində hələ heç bir iş görülmədiyi üçün buna da böyük ehtiyac görmürük. Çünki Ermənistan ərazisində 42 kilometr yol inşa edilməlidir. Paralel olaraq Naxçıvan ərazisində - bildiyiniz kimi, yolun uzunluğu təxminən 190 kilometrdir - onun böyük hissəsi var. Düzdür, vəziyyəti o qədər də yaxşı deyil, ancaq bu gün mövcud ola biləcək yükləri aparmaq üçün o yol kifayət edir. Həm Ordubad, həm də Sədərək istiqamətində olmayan hissələr də var. İndi biz orada olmayan dəmir yollarını tikməyə başlamışıq və hesab edirəm ki, bir-iki ilə o da başa çatacaq".

Dövlət başçısı yolun qalan hissəsi ilə bağlı fikirlərini bölüşərkən bildirib ki, Zəngəzur dəhlizi (TRIPP) xarici investorlar üçün açıqdır və bu istiqamətdə sərmayə qoymaq istəyən hər kəs dəvət olunur. Layihə tam başa çatdıqdan sonra dəhlizin illik yükötürmə qabiliyyətinin 15 milyon tona çatacağı gözlənilir ki, bu da TRIPP yolunun qlobal ticarət baxımından nə qədər önəmli olduğunu açıq şəkildə nümayiş etdirir. Zəngəzur dəhlizi (TRIPP) Şərq-Qərblə yanaşı, Şərq-Cənub və Şimal-Cənub marşrutlarının da mühüm qollarından birinə çevriləcək. Bu dəhlizin açılması ilə sovet dövründə mövcud olmuş Rusiya-Azərbaycan-İran nəqliyyat xəttinin bərpası mümkün olacaq. Beləliklə, Şimal-Cənub marşrutu üzrə yeni alternativ yol formalaşacaq. Naxçıvandan çıxan yolun bir istiqaməti Türkiyə və Avropaya, digər istiqaməti isə İran, Fars körfəzi və Yaxın Şərqə uzanacaq. Yolun reallaşması artıq həll olunmuş məsələdir və bu layihədən kənarda qalmaq Ermənistan üçün ciddi strateji itki demək olar. "Mən inanmıram ki, Ermənistan bu məsələdən boyun qaçırsın, bu, özünəqəsd kimi qiymətləndirilə bilər. Xüsusilə nəzərə alsaq ki, Amerika Prezidenti Tramp bu yola öz adını verib, artıq bu, onun yoludur. Ermənistandan da gələn xəbərlər onu göstərir ki, bu il bu yolun fiziki tikintisi nəzərdə tutulur", - deyə Prezident fikirlərini bildirib.

Dənizlərə çıxışı olmayan Ermənistan uzun illər davam etdirdiyi işğalçı siyasət nəticəsində regional enerji və nəqliyyat layihələrindən kənarda qalaraq öz iqtisadi inkişaf perspektivlərini bilərəkdən məhdudlaşdırıb. Azərbaycan isə bu boşluğu doldurmaq üçün genişmiqyaslı infrastruktur layihələrini reallaşdıraraq tikintini sürətləndirir. Dövlət başçısı bəhs olunan müsahibədə yolun perspektivini Ermənistanın gələcəyi ilə belə əlaqələndirib: "Ermənistan indiki dalan vəziyyətindən çıxa bilər və çıxacaq. Azərbaycanla Ermənistan arasında yollar açılacaq. Türkiyə ilə Ermənistan arasında yollar açılacaq. Ermənistan Naxçıvan vasitəsilə İranın dəmir yollarına, Azərbaycan vasitəsilə Rusiyanın dəmir yollarına çıxış əldə edəcək. Yəni bu, Ermənistan üçün də faydalıdır".

Hazırkı reallıqlar göstərir ki, əməkdaşlıqdan imtina deyil, inteqrasiya region üçün yeganə çıxış yoludur. Qeyd edək ki, dəhlizə maraq yalnız Azərbaycanla məhdudlaşmır, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan, Çin və Rusiya bu marşrutu Orta dəhlizin əsas halqalarından biri kimi dəyərləndirir. Bu da layihənin qlobal əhəmiyyətini aydın şəkildə ortaya qoyur. Xüsusilə Çin yüklərinin Avropa bazarlarına daşınmasında Zəngəzur dəhlizi strateji əhəmiyyət daşıyır. Bu marşrut yüklərin daha qısa vaxtda və təhlükəsiz şəkildə çatdırılmasına imkan yaradaraq Orta dəhlizin rolunu gücləndirir. Çindən Avropaya uzanan Orta dəhliz TRIPP vasitəsilə daha da güclənəcək və Azərbaycan bu strateji yolun həm coğrafi, həm də iqtisadi mərkəzinə çevriləcək. Bakı-Tbilisi-Qars dəmir yolu ilə birləşən marşrut ölkəmizi Qafqazın əsas nəqliyyat qovşağına çevirir, ticarətin canlandığı və strateji marşrutların kəsişdiyi region mərkəzini formalaşdırır.

Göründüyü kimi, Zəngəzur dəhlizinin (TRIPP) fəaliyyətə başlaması üçün Azərbaycan genişmiqyaslı infrastruktur layihələrini ardıcıl şəkildə həyata keçirir. Horadiz-Ağbənd dəmir yolunun tikintisi sürətlə davam edir və bu xətt təkcə nəqliyyat marşrutu deyil, uzun illər blokadada qalmış Naxçıvanı Azərbaycanın əsas hissəsi ilə birləşdirən can damarıdır. Paralel olaraq avtomobil yolları salınır, körpülər və tunellər inşa olunur, müasir mühəndis texnologiyaları ilə yeni infrastruktur formalaşdırılır. Bu proseslər ilk baxışda texniki xarakter daşısa da, əslində, regionun iqtisadi dirçəlişinə xidmət edir. Hava limanlarının, sərhəd-keçid və gömrük məntəqələrinin qurulması dəhlizin logistika və ticarət mərkəzinə çevriləcəyini təsdiq edir. Və bütün bunlar onu deməyə əsas verir ki, yaxın illərdə bu marşrut üzrə tranzit axınlarının artması Azərbaycanın regionda nəqliyyat liderliyini daha da möhkəmləndirəcək.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*




# yashat.gov.az portalının və 8110 Çağrı Mərkəzinin fəaliyyətə başlamasından 5 il ötür

Yanvarın 8-də "YAŞAT" Fondunun yashat.gov.az portalı istifadəyə verilib. Həmin tarixdə həmçinin fondun 8110 Çağrı Mərkəzi fəaliyyətə başlayıb.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, bu günə qədər Çağrı Mərkəzinə 291 min 169 vətəndaş zəngi daxil olub, şəhidlərimizin ailə üzvlərinin və yaralıların ümumilikdə 93 min 16 müraciəti qeydiyyata alınaraq aidiyyəti üzrə yönləndirilib. Bunlardan 58 min 263-ü şəhidlərimizin ailə üzvlərinin, 34 min 753-ü isə yaralılarımızın müraciətləridir. 8110 Çağrı Mərkəzinə zənglər tam ödənişsizdir.

Xatırladaq ki, "YAŞAT" Fondu Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 8 dekabr tarixli 1203 nömrəli Fərmanına əsasən yaradılıb. Fond Azərbaycanın ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş hərbi qulluqçuların və şəhid olmuş şəxslərin ailə üzvlərinin sosial müdafiəsi sahəsində dövlət tərəfindən həyata keçirilən tədbirlərə əlavə dəstək verilməsi üçün şəffaf, effektiv və əlçatan platformanın formalaşdırılması məqsədilə təsis edilib.

# İqtisadiyyat və sosial həyat

## Azərbaycanın iqlimi də işıqdır

### "Xızı-Abşeron" KES-in açılışını edən Prezident İlham Əliyev yaxın zamanda bu cür "yaşıl" stansiyaların ölkənin digər regionlarında da istifadəyə veriləcəyini açıqladı



**Azərbaycanın "yaşıl enerji" gündəliyi artıq bütün dünyaya bəllidir. Hələ 2020-ci ildə ölkəmiz növbəti 10 ildə, yəni 2030-cu ilə qədər elektrik enerjisinin qoyuluş gücündə bərpaolunan enerji mənbələrinin (BOEM) payını 30 faizə çatdırmağı hədəfləyib. Gələn il BOEM-in payının artıq 25 faizə çatdırılacağı nəzərdə tutulur. Azərbaycan bu məqsədlərə doğru inamla irəliləyir.**

Ölkəmizdə "yaşıl enerji" mənbələrinin texniki potensialı böyükdür - quruda 135, dənizdə isə 157 qiqavat təşkil edir. İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikası Prezident İlham Əliyev tərəfindən "yaşıl enerji" zonaları elan olunub. Bunun da əsası var. Çünki bərpaolunan enerji resurslarının texniki potensialı Qarabağ və Şərqi Zəngəzurda 10 qiqavat, Naxçıvanda isə 5 qiqavat həcmində qiymətləndirilir.

İşğaldan azad edilmiş ərazilərdən söz düşmüşkən, qeyd edək ki, keçən ilin avqust ayında Kəlbəcərdə istifadəyə verilən üç yeni kiçik su-elektrik stansiyasının (KSES) açılışı ilə Qarabağ və Şərqi Zəngəzurda bu cür enerji obyektlərinin sayı ümumilikdə 38-ə, ümumi gücü isə 307 MVt-a çatdı.

İndi bu ərazilərdə daha böyük bərpaolunan enerji layihələri icra olunmaqdadır. Bakıda COP29-un davam etdiyi günlərdə Cəbrayıl rayonunda BP şirkəti ilə birlikdə tikiləcək 240 meqavatlıq "Şəfəq" Günəş-Elektrik Stansiyasının (GES) təməli qoyuldu və hazırda layihə qrafikə uyğun irəliləyir.

Ümumiyyətlə, "yaşıl enerji" layihələri artıq digər şəhər və bölgələrimizə də "addımlayır". Bu istiqamətdə ən böyük uğurlarımızdan biri 2023-cü ildə Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti ilə tikilən 230 meqavatlıq "Qaradağ" Günəş-Elektrik Stansiyası istifadəyə verilməsi oldu. Yeri gəlmişkən, onu da deyək ki, "Masdar" bərpaolunan enerji sahəsində ən yaxın tərəfdaşlarımızdandır. Bu şirkətlə sıx əməkdaşlıq əlaqələri yaranıb və bir sıra layihələr gerçəkləşməkdədir. Məsələn, 2024-cü il iyunun 4-də "Bakı-Ekspo" Mərkəzində Bakı Enerji Həftəsi çərçivəsində keçirilən 29-cu Beynəlxalq Xəzər Neft və Qaz və 12-ci Xəzər Beynəlxalq Energetika və "Yaşıl Enerji" sərgilərinin açılışı zamanı Prezident İlham Əliyev və Birləşmiş Ərəb Əmirliklərinin sənaye və yüksək texnologiyalar naziri Sultan Əhməd əl-Cabir Neftçala, Biləsuvar günəş-elektrik stansiyalarının və "Abşeron-Qaradağ" Külək-Elektrik Stansiyasının (KES) təməlini qoymuşlar. İndi bu layihələr öz icrasının müxtəlif mərhələlərindədir.

Bir sözlə, 2030-cu ilə qədər ölkəmizdə təxminən 6 qiqavatlıq günəş, külək və hidroenerji stansiyalarının tikilməsi planlaşdırılır. Lakin bu, planlarımızın hamısı deyil, çünki 10 qiqavatlıq bərpaolunan enerji layihələri üzrə müqavilələr və anlaşma memorandumları imzalanıb.

Prezident İlham Əliyevin cari il yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsində bərpaolunan enerjiyə aid bu və digər məsələlərdən geniş bəhs olunub. Dövlətimizin başçısı deyib: "Günəş və külək-elektrik stansiyalarının xəritəsi təsdiqlənib, həm quruda, həm də dənizdə, o cümlədən azad edilmiş torpaqlarda. Hazırda bizim əsas vəzifəmiz enerji mənbələrini qəbuletmə imkanlarını genişləndirməkdir. Çünki mövcud olan planlara görə, 2030-cu ilə qədər 6000 meqavat, 2032-ci ilə qədər isə 8000 meqavat günəş, külək və su enerjisi bizim sistemimizə daxil ediləcək. Yəni bunu qəbul etmək, həzm etmək üçün biz enerji sistemimizi gücləndirməliyik. Buna "Energy Grid" deyirlər. Bununla paralel olaraq batareya saxlanc sistemləri də qurulmalıdır. Biz ilkin mərhələdə xarici şirkətlərə müraciət etdik ki, onlar investor kimi bu işi görsünlər. Amma gördük ki, böyük maraq yoxdur. Yəni dövlət xətti ilə təxminən 250 meqavat gücündə birinci batareyalar artıq quraşdırılır, amma daha da çox olacaq. Çünki bizim, yenə də deyirəm, qısamüddətli planlarımız 8 giqavat enerji əldə etməkdir. Əminəm ki, biz bunu edəcəyik. Çünki artıq kontraktlar imzalanıb, anlaşma memorandumları yox, kontraktlar, bu, artıq hüquqi öhdəlikdir".

Bəs bunlar ölkəmizə nə verəcək? Prezidentimiz bildirib ki, əlbəttə, enerji üçün istehlak edilən qaza qənaət və mövcud qazın ixracı üçün imkanlar yaranacaq. Bunun üçün də Azərbaycandan kənarda mövcud olan qaz infrastrukturumuzu genişləndiririk. Bu, imkan verəcək ki, təmiz enerjini ixrac edə bilək.

"Bildiyiniz kimi, Qara dəniz kabel layihəsi var. Onun texniki-iqtisadi əsaslandırması hazır olsa da, maliyyə mənbələri hələlik aydın deyil. Bizim mövqeyimiz belədir ki, biz enerjini burada istehsal edirik, yeni ötürücü xətləri Gürcüstan sərhədinə qədər çatdırırıq. Çünki yeni xətlər lazımdır. Qalanı isə artıq o biri ölkələrin maliyyə öhdəliyi olmalıdır. Bunu nəzərə alaraq, qeyd etdiyim kimi, Qazaxıstan və Özbəkistan ilə Xəzər dənizinin altı ilə kabelin tikintisini də razılaşdırdıq. Burada da indi texniki-iqtisadi əsaslandırma gedir. Üçüncü mümkün olan variant, ya da hər bir variant birlikdə də mümkündür, bu, enerjini burada istehlak etməkdir. Burada da yenə də deyirəm, süni intellekt və data mərkəzləri ən çox enerji tələb edən layihələrdir. Yenə də nə Cənubi Qafqazda, nə Orta Asiyada, nə yaxın qonşuluqda bizim qədər sərbəst enerji gücü ola biləcək ikinci ölkə yoxdur. Çünki bəzi ölkələr elektrikə çevirmək üçün xaricdən təbii qaz alır, bəzi ölkələr xaricdən elektrik enerjisi alır, çünki özləri üçün çatmır", - deyə dövlətimizin başçısı sözügedən müsahibədə jurnalistin bu mövzuya aid verdiyi sualı cavablandırıb.

Azərbaycan isə həm elektrik enerjisi, həm də neft, qaz, neft məhsulları, neft-kimya məhsulları, təbii qaz gübrələri ixrac edir. Prezidentin sözləri ilə desək, bizdə bütün sikl tam formalaşıb: həm daxili istehlak, həm ixrac.

Ötən hər gün ölkəmizi özünün "yaşıl enerji" hədəflərinə də yaxınlaşdırır. Dünən investoru Səudiyyə Ərəbistanının "ACWA Power", tikintisinin baş podratçısı Çinin "Power China" şirkətləri olan 240 meqavat gücündə "Xızı-Abşeron" Külək-Elektrik Stansiyası istismara verildi. Stansiyanın açılışında çıxış edən Prezident İlham Əliyev Azərbaycan energetiklərinin əməyini qiymətləndirdiyini bildirib: "Çünki son illər ərzində ölkəmizdə yeni generasiya güclərinin istismara verilməsi həm çox mürəkkəb, həm məsuliyyətli bir prosesdir. O cümlədən bərpaolunan enerji növlərinin böyük həcmdə ümumi enerji sistemimizə inteqrasiya etməsi də, əlbəttə ki, böyük peşəkarlıq tələb edir, böyük vəsait tələb edir. Nəzərə alsaq ki, bundan sonrakı illərdə bərpaolunan enerji stansiyalarının Azərbaycanda tikintisi çox geniş vüsət alacaq, əlbəttə, Azərbaycan energetiklərinin fəaliyyəti daim yüksək səviyyədə olmalıdır. Yəni burada biz çox uğurlu beynəlxalq əməkdaşlıq nümunəsini görürük. Onu da bildirməliyəm ki, bundan sonra bərpaolunan enerji növlərinin yaradılması ilə daha çox xarici investorlar məşğul olacaqlar. Halbuki Azərbaycan şirkətləri də bu məsələyə maraq göstərməyə başlamışlar və artıq bir neçə günəş-elektrik stansiyasının tikintisinə də başlanılmışdır".

Növbəti "yaşıl enerji" stansiyalarımız Naxçıvanda, Biləsuvarda, Neftçalada, işğaldan azad edilmiş ərazilərdə və digər bölgələrdə açılacaq.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## SOCAR "TotalEnergies" ilə "Abşeron" yatağının tammiqyaslı işlənməsini müzakirə edib

**SOCAR-ın prezidenti Rövşən Nəcəf "TotalEnergies" şirkətinin baş vitse-prezidenti Martina Oppizi ilə görüşüb.**



Görüşdə SOCAR ilə "TotalEnergies" şirkətinin birgə iştirakı ilə reallaşdırılan layihələrin icra vəziyyəti, o cümlədən "Abşeron" qaz-kondensat yatağının tammiqyaslı işlənməsi istiqamətində atılan addımlar müzakirə edilib.

Tərəflər enerji sahəsində qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparıblar.

## Azərbaycan neftinin qiyməti 65 dollardan aşağı düşüb

**AZƏRTAC xəbər verir ki, dünya bazarında Azərbaycan nefti ucuzlaşıb.**

"Azeri Light" markalı neftin bir barelinin qiyməti 1,13 dollar və ya 1,72 faiz azalaraq 64,6 dollar olub. Qeyd edək ki, "Azeri Light" neftinin ən aşağı qiyməti 2020-ci il aprelin 21-də (15,81 ABŞ dolları), maksimal qiyməti isə 2008-ci ilin iyulunda (149,66 ABŞ dolları) qeydə alınıb.

## Evdə sosial xidmət göstərilən daha bir ahıl vətəndaşın 100 illiyi qeyd edildi

**DOST Agentliyinin 5 saylı Bakı DOST Mərkəzinin əməkdaşları evində sosial xidmət göstərilən daha bir ahıl vətəndaşın - Gilə Novruzovanın 100 illik yubileyini onunla birlikdə qeyd ediblər.**



Gilə Novruzovanı evində ziyarət edən mərkəzin əməkdaşları onu doğum günü münasibətilə təbrik edib, agentliyin rəhbərliyi və kollektivi adından ən xoş arzularını çatdırıblar.

Ziyarətdən məmnun qalan G.Novruzova ona göstərilən diqqətə görə təşəkkür edib.

1926-cı ildə Qərbi Azərbaycanda anadan olan Gilə Novruzova İkinci Dünya müharibəsində arxa cəbhədə göstərdiyi xidmətlərə görə medal və ordenlərlə təltif edilib. Ona 2023-ci ildən 5 saylı Bakı DOST Mərkəzi tərəfindən sosial-məişət xidməti göstərilir.

Qeyd edək ki, DOST Agentliyi tərəfindən sosial baxımdan həssas əhali qrupundan olan şəxslər üçün bu cür tədbirlər mütəmadi olaraq təşkil olunur.

## ASCO gəmiləri ilə yükdaşımaların həcmi artıb

**"AZCON Holding"in şirkətlərindən olan "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) gəmiləri ilə 2025-ci il ərzində 9,085,935 ton yük daşınıb. Bu da 2024-cü illə müqayisədə 5,38 faiz artım deməkdir.**

ASCO-dan AZƏRTAC-a bildirilib ki, ən yüksək artım quru yük gəmiləri ilə daşımalarda qeydə alınıb. Ötən il ərzində bu tip gəmilərlə 1,324,999 ton yük daşınıb. Bu, 2024-cü ilin eyni göstəriciləri ilə müqayisədə 45 faizdən çoxdur.

Ötən il tankerlərlə daşınan yükün həcmində də artım müşahidə olunub. Belə ki, 2024-cü ildə 4,216,243 ton yük daşındığı halda, 2025-ci ildə bu göstərici 4,310,046 tona çatıb. Beləliklə, bu seqment üzrə daşımalarda 2 faizdən çox artım qeydə alınıb.

Bundan başqa, ötən il ASCO-nun gəmiləri ilə daşınan konteynerlərin sayı 22,030 TEU olub. Bu isə 2024-cü illə müqayisədə 203 faiz artım deməkdir.

## Avropadan Şərq istiqamətinə Orta dəhliz üzərindən yükdaşımaların həcminin artması gözlənilir

**Orta dəhliz dünya ticarətində yükaşırma imkanlarını ildən-ilə genişləndirir. İndi bu marşrutla yüklər, əsasən, Şərqdən Qərbə daşınır. Amma dəhlizdə iştirakçı ölkələr Avropadan da yüklərin Şərq istiqamətinə daşınmasında maraqlıdır və bununla bağlı Avropadakı tərəfdaşları ilə danışıqlar aparırlar.**

"Azərbaycan Dəmir Yolları" (ADY) QSC sədrinin müşaviri Emil Məmmədovun sözlərinə görə, bu il Avropadan Şərq istiqamətinə daşıma Orta dəhlizin (Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu, TBNM) inkişafında növbəti mərhələ olacaq. E.Məmmədov bildirmişdir: "Qərb istiqamətində daşımalar ildən-ilə artır və bu artım artıq konkret addımlara əsaslanır. "Middle Corridor Multimodal" birgə müəssisəsi (MCM) vasitəsilə koordinasiya, Bakı-Tbilisi-Qars dəmir yolu üzrə buraxılış qabiliyyətinin genişlənməsi, vaqon və konteyner parkının artırılması, Xəzər dənizi üçün yeni konteyner gəmilərinin inşasına başlanması, eləcə də liman və infrastrukturun davamlı şəkildə təkmilləşdirilməsi sayəsində mümkün olub".

2026-cı il dəhlizlə yükdaşımalara baxışda əsas çağırış artıq Avropa istiqamətinin miqyası deyil, sabit və proqnozlaşdırıla bilən Şərq istiqamətli daşımaların formalaşdırılmasıdır. "Məhz bu mərhələdə Avropa tərəfdaşlarının rolu həlledici olacaq. Beynəlxalq sərgilər, beynəlxalq səfərlər və HHLA, "Rhenus Logistics", "DB Cargo", MSC və "Rail Cargo Group" kimi aparıcı şirkətlərlə aparılan mütəmadi işgüzar dialoq Orta dəhlizə olan real və artan marağı açıq şəkildə göstərir. 2026-cı il bu marağı Şərq istiqamətli real həcmlərə çevirməyin ilidir. Əsasən, biristiqamətli dəhlizi ikiistiqamətli tələbat modelinə gətirmək zamanıdır", - deyə E.Məmmədov açıqlamışdır.

Qeyd edək ki, 2027-ci ilə qədər Orta dəhlizin ötürücülük qabiliyyətinin illik 10 milyon tona çatacağı proqnozlaşdırılır. Bu isə Azərbaycanın tranzit potensialını daha da gücləndirəcək və infrastruktura yeni investisiyaların cəlb edilməsinə imkan yaradacaq. Amma bu da son rəqəm deyil. 2030-cu il üçün TBNM ilə yükdaşımaların həcmi artaraq 11,4 milyon ton səviyyəsinə çatacağı proqnozlaşdırılır.

Gürcüstanın Baş naziri İrakli Kobaxidze dəmir yollarının modernləşdirilməsi layihəsinin başa çatmasına həsr olunmuş tədbirdə çıxışı zamanı bildirmişdir ki, hədəfləri Gürcüstanda dəmir yolu infrastrukturunun modernləşdirilməsidir. Hökumətin vəzifəsi isə nəticə etibarilə Orta dəhlizi regionun ən etibarlı və təhlükəsiz marşruta çevirməkdir. "Hazırda dünya geosiyasi və iqtisadi transformasiya dövrünü yaşayır. Təchizat zəncirləri dəyişir, təhlükəsiz, proqnozlaşdırıla bilən və etibarlı nəqliyyat marşrutlarının əhəmiyyəti artır. Bu kontekstdə Gürcüstanın rolu düşünülmüş və strateji qərarlarla gücləndirilməlidir", - deyə İ.Kobaxidze vurğulamışdır. Onun sözlərinə görə, Gürcüstan hökumətinin təşəbbüsləri, Anaklia limanı, dəmir yolu və Şərq-Qərb avtomobil infrastrukturlarının modernləşdirilməsi bu siyasətin əsas məqsədidir: "Bizim gələcəyimiz bütün nəqliyyat növlərini vahid ekosistemə birləşdirəcək intermodal tranzit funksiyasıdır. Bu kontekstdə logistika proseslərinin rəqəmsallaşdırılması da mühüm




əhəmiyyət kəsb edir və hazırda aktiv şəkildə həyata keçirilir".

Baş nazirin sözlərinə görə, Orta dəhliz sadəcə alternativ marşrut deyil, həm də Avropa ilə Asiya arasında yeni əlaqə standartıdır: "Dəmir yolunun modernləşdirilməsi bu konsepsiyanın bir hissəsidir. Bu bizim rəqabət qabiliyyətimizi gücləndirir, tranzit potensialımızı artırır və Avropa ilə Asiya arasında yaxın illərdə daha da artacaq ticarət axınlarını qəbul etmək üçün möhkəm əsas yaradır. Hökumətimizin vəzifəsi nəticə etibarilə Orta dəhlizi regionun ən etibarlı, təhlükəsiz və səmərəli dəhlizinə çevirməkdir".

Cənubi Qafqazdan keçən nəqliyyat marşrutları təkcə region ölkələrinə deyil, həm də Yaponiyaya fayda gətirə bilər. Bu barədə Yaponiyanın "Nikkei" nəşrinin Avrasiyanın perspektivli nəqliyyat dəhlizlərinə həsr edilmiş analitik məqaləsində yazılıb. Məqalədə həmçinin qeyd olunur ki, regionun əsas marşrutlarından biri - Tokionun da inkişafına maraq göstərdiyi Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (TBNM, Orta dəhliz) bu ölkə üçün xüsusi əhəmiyyət kəsb edə bilər. "Yaponiya da Orta dəhlizə böyük ümidlər bəsləyir. 2025-ci ilin dekabrında ölkənin baş naziri Sanae Takaiti Mərkəzi Asiyanın beş ölkəsinin liderləri ilə görüşüb və Tokionun bu marşrutun inkişafına dəstəyini ifadə edib", - məqalədə belə yazılıb. Üstəlik də bildirilib ki, Cənubi Qafqaz regionunu Avropanı və Asiyanı birləşdirən "müasir İpək yolu" adlandırmaq olar, çünki region mühüm nəqliyyat qovşağı kimi diqqət çəkir.

Yaponiya nəşri Orta dəhlizdən əlavə, TRIPP - "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" layihəsinin perspektivliyinə də xüsusi diqqət yetirib: "Bu marşrutun inkişafı, Azərbaycan və Türkiyə ilə əhatə olunmuş və uzun müddət ciddi ticarət məhdudiyyətləri ilə üzləşmiş Ermənistana da əhəmiyyətli faydalar gətirəcək".

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

# REGİONLAR

## I Qarabağ müharibəsi şəhidinin ailəsi ziyarət olunub



**Masallıda şəhid ailələri, müharibə əlilləri və iştirakçılarının qayğıları daim diqqətdə saxlanılır, onları rahatsız edən problemlər operativ həll olunur.**

Bu günlər rayon rəhbərliyi Allahyarlı kəndində I Qarabağ müharibəsi şəhidi Ağayev Ələddin Bahaddin oğlunun ailəsini ziyarət edib. Ziyarət zamanı vurğulanıb ki, dövlətimiz şəhid ailələrinə yüksək diqqət və qayğı göstərir, Vətənimizin azadlığı və suverenliyi uğrunda canından keçən şəhidlərimizin xatirəsini daim uca tutur.

Şəhid ailəsi onlara verilən hər cür dəstəyə görə Prezident İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya, rayon rəhbərliyinə minnətdarlığını bildirib, bəzi problemlərinin həlli ilə bağlı kömək göstərilməsini xahiş edib. Rayon rəhbərliyi həmin məsələlərin operativ həlli üçün tapşırıqlar verib.

***S.CAVADOV, "Azərbaycan"***

## 2025-ci ildə fermerlərə dəymiş zərərə görə 9 milyon manatdan çox sığorta ödənişi edilib

**2025-ci ildə ölkənin müxtəlif ərazilərində fəaliyyət göstərən fermer təsərrüfatlarına 9 milyon 147 min manat məbləğində aqrar sığorta ödənişi həyata keçirilib.**

Bu göstərici əvvəlki ildə həyata keçirilmiş ödənişlərlə müqayisədə 2,7 milyon manat və ya 43 faiz çoxdur.

2025-ci ildə həyata keçirilən sığorta ödənişlərinin 8 milyon 753 min manatı bitkiçilik, 394 min manatı isə heyvandarlıq sığortasının payına düşüb. Bu il ödənişlərin əsas hissəsi şaftalı, nektarin, badam bağlarına, eləcə də taxıl, qarğıdalı və digər əkinlərə aid olub.

Ümumilikdə, 2020-ci ildə fəaliyyətə başlayan Aqrar Sığorta Fondu tərəfindən indiyədək



22,6 milyon manat sığorta ödənişi həyata keçirilib. Fond fermerlərə və təsərrüfatlara 2021-ci ildə 200 min manat, 2022-ci ildə 2,4 milyon manat, 2023-cü ildə 4,4 milyon manat, 2024-cü ildə isə 6,4 milyon manat məbləğində sığorta ödənişi həyata keçirib.

**Texniki tərəqqi başlanan son 250 ildən bəri yaşadığımız Yer kürəsi hələ indiki kimi qlobal miqyasda fəlakətli risklərlə üzləşməmişdir. Planetimizdə karbon dioksidinin və ya istilikxana qazlarının görünməmiş səviyyədə artması quraqlıq, su qıtlığı, səhralaşma, daşqın, sel, torpaq sürüşməsi, qasırğa, sunami, ərzaq qıtlığı və s. fəlakətlərlə insanı üz-üzə qoymuşdur.**

Halbuki uca Tanrı təbiətdə nə varsa, hamısını bir-biri ilə tarazlaşdıraraq yaratmışdır. Bu tarazlığı pozan isə insandır. Təbiətə müdaxilələr etməklə, sürəti və məhsuldarlığı artırmaq istəyi, sərvətlərə hərisliyi ilə, odlu silahlarla, dağıdıcı müharibələrlə. O üzdən dünyanı tarazlığına qaytarmaq da insanın öhdəsinə düşür.

Azərbaycan elmi-texniki tərəqqinin nailiyyətlərindən vaxtında və uğurla istifadə etməyi bacaran ölkələrdəndir. Vətənimizin bir hissəsi - gözəlliklər məskəni Qarabağ və Şərqi Zəngəzur 30 il idi ki, düşmən tapdağı altında idi. Ermənilər bu torpaqları özününküləşdirmək, Ermənistana ilhaq etmək və ya ayrı bir "respublika" yaratmaq üçün hər cür çirkin əməllərə əl atırdılar. Təəssüflər olsun ki, bəzi Avropa təşkilatları və parlamentariləri demokratiya pərdəsi altında gizlənərək onların bu qanunsuz niyyətlərini müdafiə edir, uydurulmuş konfliktin ədalətlə həll edilməsinə mane olur, bizi isə reallıqla barışmağa, dədə-baba torpaqlarımızdan əl çəkməyə təhrik edirdilər. Lakin Prezident İlham Əliyev münaqişənin sülh yolu ilə çözülməsə, hərbi yolla həll ediləcəyini ATƏT-in Minsk qrupunun həmsədrlərinə və problemin həllinə mane olan hər kəsə dönə-dönə bildirirdi. Və belə də oldu. 2020-ci il sentyabrın 27-də Azərbaycan Ordusu əks-hücuma keçərək 44 gün ərzində 30 illik işğala son qoydu. İndi Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad olunmuş ərazilərdə möhtəşəm yenidənqurma işləri gedir.

## Biləsuvar GES-in inşası qrafik üzrə gedir



### Bu il şəbəkəyə qoşulacaq stansiya gələn il tam gücü ilə fəaliyyətə başlayacaq

Bu işlərin tərkib hissələrindən biri də Qarabağ və Şərqi Zəngəzurda, eləcə də bütün ölkə ərazisində "yaşıl enerji"yə üstünlük verilməsidir. Bu gün Azərbaycanın bir sıra regionlarında günəş və küləklə işləyən, yeni günəş və külək enerjisini elektrik enerjisinə çevirən stansiyalar tikilir. Belə stansiyalardan biri də Biləsuvar rayonu ərazisində inşa edilir.

Stansiya Ələt-Astara magistral şose yolunun Biləsuvara dönən hissəsindən təxminən bir kilometr kənardakı boş, əkinə və otlağa yararsız ərazidə inşa olunur. İnşaat işlərinə yola saldığımız ilin aprel ayında başlanılmışdır. Stansiyanın ərazisi 1454 hektardır. Tikintidə işlər gündən-günə sürətlənir. Qeyd edək ki, BƏƏ-nin "Masdar" şirkəti və "SOCAR Green" tərəfindən icra edilən bu layihə Azərbaycanda ən böyük günəş-elektrik stansiyasıdır. Rəsmi proqnozlara görə, pik tikinti dövrü üçün ümumi investisiya 2025-2027-ci illər üzrə 652,9 milyon manatdan çox təşkil edəcək.

Hazırda obyektdə işlər təməl hazırlığından aktiv montaj mərhələsinə keçib. Ərazinin hazırlanması, habelə hamarlanması işləri başa çatıb. Planlaşdırılan 138 min 677 dirəkdən 29 min 909-u artıq quraşdırılıb. Günəş infrastrukturuna gəldikdə isə, avadanlıqların gətirilməsi sürətlənir. 80 MVt gücündə olan üzləyicilər artıq ərazidədir. Elektrik bağlantısında əhəmiyyətli irəliləyiş əldə edilib. 137,3 kilometr LVDC və rabitə kabelləri çəkilib. Çoxlu miqdarda günəş və MV kabellərinin gətirilməsi nəticəsində quraşdırma işləri mərhələsində heç bir gecikmənin olmaması təmin ediləcək. Yüksək Gərginlikli HV transformatorunun bu ilin mart ayında stansiyaya gətirilməsi nəzərdə tutulur ki, bu da şəbəkə bağlantısının növbəti əsas mərhələsini asanlaşdıracaq.

Stansiyanın inşasında hazırda 800 nəfərə yaxın işçi çalışır. Pik vaxtda bu rəqəm 2 min nəfərə çatdırılacaq. Stansiyanın bu il şəbəkəyə qoşulması, 2027-ci ildə isə tam gücü ilə işləməsi nəzərdə tutulur. MDB ölkələri arasında 2-ci olacaq bu stansiyanın tam gücü dəyişən cərəyanla 445 miqavata çatacaq.

***Seyran CAVADOV, "Azərbaycan"***

## Təqvimdə qış, sahələrdə yaz tarla işləri

### Ağstafa

**Etibarlı ərzaq təminatı hər bir ölkənin iqtisadi sabitliyinin və sosial dayanıqlılığının başlıca şərtidir. Bu baxımdan, ölkəmizdə əhalinin ərzaq təminatının daxili imkanlar hesabına ödənilməsi indi hökumətin prioritet fəaliyyət istiqamətlərindən biridir. Odur ki, aqrar sektor üzrə həyata keçirilən tədbirlər, imzalanan qərar və sərəncamlar, ilk növbədə, həmin hədəfə yönəlib.**



Hər il kənd təsərrüfatı məhsulları istehsalında yüksək göstəricilərə nail olan rayonlardan biri də Ağstafadır. Rayonda məhsul istehsalı üzrə davamlı inkişafa nail olmaq üçün müxtəlif tədbirlər həyata keçirilir. Xüsusən mövcud əkin sahələrindən səmərəli istifadə olunması, torpağın əkilib becərilməsində qabaqcıl texnologiyalara üstünlük verilməsi diqqət mərkəzində saxlanılır.

Keçən il rayonda qiymətli əzaq məhsulu olan taxıl istehsalında müsbət irəliləyişlər olmuşdur. 7916 hektarda taxıl əkən fermerlər buğda sahələrinin hər hektarından 34,5, arpa sahələrindən 25 sentner məhsul götürərək əvvəlki illərin göstəricilərini üstələmişlər.

Təsərrüfat sahibləri artıq cari ilin yaz tarla işlərinə başlamışlar. Bu il taxıl əkini sahələri bir qədər genişləndirilərək 8178,2 hektara çatdırılmışdır. Onun 4812,3 hektarı buğda, 3374,9 hektarı arpa sahələridir. Rayonda səpin işlərinə 90-na yaxın texnika cəlb edilmişdir. Səpindən sonra 5339 hektarda suvarma aparılmışdır. Bitkinin inkişaf fazasında 2-ci və 3-cü suvarma ilə yanaşı, sahələrə yemləmə gübrəsi verilmiş, alaq otlarına qarşı mübarizə tədbirləri görülmüşdür.

Əvvəlki illərdə olduğu kimi, bu il də rayonun Göyçəli, Köçəsgər, Eynallı, Dağ Kəsəmən, Qıraq Kəsəmən kəndlərinin sakinləri yaz tarla işlərində fərqlənirlər. Onlar günəbaxan bitkisi əkiləcək sahələrdə arat işlərinə start vermiş, kartof sahələrini səpinə hazır vəziyyətə gətirmişlər. Bununla yanaşı, 1619,3 hektar meyvə bağına lazım olan üzvi və mineral gübrələr verilmiş, ağacların dibi yumşaldılaraq budama işləri görülmüşdür.

Yeri gəlmişkən, qeyd edək ki, rayonda intensiv bağların salınmasına maraq getdikcə artır. Kolxəlifəli kəndində Səxavət Binnətov 55, Aşağı Göyçəli kəndində Nazim Əhmədov 6, Zəlimxan kəndində Elfaq Mamayev 1,49 hektarda intensiv fındıq bağı salmışlar. Fermerlər bağlara yüksək səviyyədə qulluq göstərməklə 100 faiz bitiş əldə etmişlər. İndi bağ sahibləri xəstəlik və ziyanvericilərə qarşı kimyəvi mübarizə tədbirləri görməyə hazırlaşırlar.

Hazırda Ağstafada 508 hektar üzüm bağı var. Keçən il hər hektardan orta hesabla 153 sentner məhsul əldə edən fermerlər bu il bağlardan daha çox üzüm götürmək üçün bütün imkanlardan istifadə etməyə çalışırlar. Poylu kəndindən Səməndər Vəliyev, Qurban Aslanov, Kolxəlifəli kəndindən Yuləti Kərimov keçənilki göstəricilərini artırmağı qarşılarına məqsəd qoymuşlar. Hazırda üzüm bağlarında budama işləri aparılır.

### Qazax

**Rayon icra hakimiyyətində yaz tarla işlərinə hazırlıqla bağlı müşavirə keçirilmişdir. Müşavirədə rayon icra hakimiyyətinin başçısı Rəcəb Babaşov çıxış edərək qarşıdan gələn yaz tarla işlərinə hazırlığın vəziyyəti barədə məlumat vermişdir.**

Bildirmişdir ki, ölkəmizdə qeyri-neft sektorunun inkişafı dövlət siyasətinin prioritet sahələrindən biridir: "Prezident İlham Əliyev bu sahənin inkişafını daim diqqət mərkəzində saxlayır. Dövlət başçısının rəhbərliyi ilə kənd təsərrüfatının inkişafı istiqamətində həyata keçirilən çoxsaylı tədbirlər iqtisadiyyatda böyük pay sahibi olan aqrar sektorun inkişafına müsbət təsir göstərir". Müşavirədə qeyd edilmişdir ki, kənd təsərrüfatının inkişafı həm də ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsində aparıcı rola malikdir. Bu baxımdan, son illər Qazaxda digər sahələrlə yanaşı, kənd təsərrüfatının inkişafı diqqət mərkəzində saxlanılır.

Sonra yaz tarla işlərinə hazırlığın vəziyyəti geniş təhlil edilmişdir. Əkin sahələrinin vaxtında suvarılması üçün qabaqlayıcı tədbirlərin görülməsinin vacibliyi qeyd edilmiş, xüsusən sudan qənaətlə istifadə edilməsi üçün kəndlərdə tərtib olunmuş növbəlilik cədvəlinə riayət edilməsinin vacibliyi vurğulanmışdır. Bildirilmişdir ki, məhsuldarlığın artırılmasında başlıca rol oynayan suvarma suyu ilə təminata diqqətlə yanaşılmalıdır. Bunun üçün suvarma arx və kanalların təmir olunması, kol-kosdan və lildən təmizlənməsi istiqamətində görülən işlər diqqət mərkəzində saxlanılmalıdır. Sonra Qazax Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru Elxan Vəkilov çıxış edərək 2026-cı ilin məhsulu üçün rayonda 6880 hektarı arpa, 4740 hektarı buğda olmaqla 12023 hektarda taxıl səpilməsinin nəzərdə tutulduğunu demişdir. Məlumat vermişdir ki, bu günə kimi 6850 hektarda arpa, 4752,8 hektarda buğda səpini başa çatdırılmışdır.



Qarşılıqlı müzakirə və geniş fikir mübadiləsi şəraitində keçən müşavirədə əkin sahələrinin vaxtlı-vaxtında suvarma suyu ilə təmin olunması üçün görüləcək işlərin vacibliyi vurğulanmış, əvvəlki illərdə olduğu kimi, bu il də yaz tarla işlərinin mütəşəkkil keçirilməsi üçün tapşırıqlar verilmişdir.

***Sabir ƏLİYEV, "Azərbaycan"***



## Quba: görüləcək işlər çoxdur

**Regionlarda müasir infrastrukturun qurulması ölkəmizdə qarşıya qoyulan vacib məsələlərdəndir. Bu baxımdan Quba da istisna deyil. Daim qonaqlıqaralı rayon olduğu üçün buradakı yeniliklər daha aydın görünür.**

Rayonda ilin 12 ayı geniş tikinti-quruculuq işləri həyata keçirilir, sosial-iqtisadi layihələr icra edilir, yol-nəqliyyat infrastrukturu yaxşılaşdırılır. Əhalinin kommunal xidmətlərlə, o cümlədən elektrik enerjisi, qaz və su ilə təchizatı, təhsil müəssisələrinin tikintisi istiqamətində tədbirlər görülür, parklar, küçə və prospektlər abadlaşdırılır.

Bütün bu işlərin sırasında qubalıların şəhidlərimizin əziz xatirəsinə bəslədiyi ehtiram özünü aydın büruzə verir. Yola saldığımız 2025-ci ilin son bir neçə ayı ərzində Şəhidlər xiyabanında vətən və torpaq fədailərinin müqəddəs adlarına və unudulmaz xatirələrinə layiq yeni layihə əsasında işlər aparılıb. Burada müasir üslubda genişmiqyaslı tikinti, yenidənqurma, təmir, bərpa, abadlıq, yaşıllaşdırma və işıqlandırma işləri həyata keçirilib. Ayrı-ayrı guşələr yaradılıb, şəhidlərin fotoşəkilləri xatirə lövhəsi formasında hazırlanıb. Xiyabanın ərazisində Ulu Öndər Heydər Əliyevin və dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin şəhidlik, şəhidlər haqqında dəyərli kəlamları öz əksini tapıb, mühüm məna kəsb edən simvollar qoyulub. Onlardan biri şəhidlərimizin uğrunda canlarından keçdikləri doğma ərazilərimizdən gətirilmiş, bir növ o torpaqların rəmzi olan qaya parçasıdır.

Son vaxtlar Quba şəhərinin bir sıra küçələri, o sıradan Mərkəzi Xəstəxana yolu yenidən qurularaq asfaltlanıb, əsaslı və ya cari təmir olunub. Yeri gəlmişkən, qeyd edək ki, son 2 il ərzində şəhərin 50-dən artıq küçəsinə 160 min kvadratmetr astalt döşənib, bəzi küçələrin başlanğıc hissəsində yeni səkilər salınıb, dağılmış səkilər təmir olunub. Paralel olaraq mərkəzi küçələrdə yeni işıqlandırma sistemi qurulub, ətraf mühitin qorunması və ekoloji vəziyyətin yaxşılaşdırılması məqsədilə ağacəkmə aksiyaları keçirilib, yeni yaşıllıq zolaqları salınıb. Yeni müəssisələrin ərazisində də ağaclar əkilib. Eləcə də Nizami adına Mədəniyyət və İstirahət parkında əsaslı təmir işləri görülüb, o cümlədən "Tağlı körpü" istiqamətində enən pilləkənlər aqlay örtüyü döşənərək tam təmir olunub, parkdakı piyadaların gəzinti yerlərində sıradan çıxmış aqlaylar yeniləri ilə əvəz olunub, müasir işıqlandırma sistemi qurulub, ərazi yaşıllaşdırılıb. Həmçinin oturacaqlar təmir olunaraq rənglənib. Dədə Qorqud parkında da bu qəbildən bir sıra işlər görülüb, o sıradan memarlıq üslubunda simvolik heykəl kompozisiyaları quraşdırılıb.

2025-ci il ərzində təkcə rayon mərkəzi deyil, kəndlər də xeyli abadlaşıb. Alekseyevka kəndinin ərazisində "Frutena" MMC tərəfindən meyvə konsentratı, meyvə şirəsi istehsalı və doldurulması müəssisəsinin tikintisi qısa müddətdə başa çatdırılıb, yollarda əsaslı təmir işləri həyata keçirilib, yeni yollar çəkilib. Prezident İlham Əliyevin sərəncamına əsasən, Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi (137 kilometr) - Çiçi-Səbətlər-Qənidərə-Sırt Çiçi-Təngəaltı avtomobil yolunun əsaslı təmiri ilə bağlı işlərə başlanıb. Əhalinin mavi yanacaq, elektrik enerjisi, suvarma və içməli su ilə təchizatının, eləcə də rabitə xidməti ilə təminatının yaxşılaşdırılması istiqamətində də tədbirlər həyata keçirilib.

Hazırda Quba Peşə liseyi və Hacıhüseynli kənd tam orta məktəbi üçün binalar, Quba DOST və peşə hazırlığı mərkəzləri tikilir. Bu il habelə rayonun bir sıra yaşayış məntəqələrində yeni modul tipli məktəblərin quraşdırılması və digər layihələrin icrası nəzərdə tutulur. Bir sözlə, bu il də görüləcək işlər çoxdur.

***Akif ƏLİYEV, "Azərbaycan"***





# Mədəniyyət





● "Şəhərsalma və Memarlıq İli"

**Tarix yalnız yazılanlar deyil. Onun nişanələrini həm də gözlərimizlə görə bilməyimizdir. Qədim Bakının küçələrində dolaşarkən bu həqiqəti, bu əzəməti bir daha yəqinləşdiririk. Və uzun illərdir ki, bu şəhərin hüsnünə xüsusi yaraşıq verən, tarixlərin şahidi olan tikililərdən birinin qarşısında ayaq saxlayırıq...**



# Taleyi keşməkeşli olan "Səadət Sarayı"

Bu şəhərə bələd olanlardan soruşsan, dərhal onun yerini göstərər: "Bax, ora "Səadət Sarayı"dır", - deyər.

Paytaxtın mərkəzində yerləşən, şəhərin memarlıq ansamblında özünəməxsus yeri olan "Səadət Sarayı" uzun illər Bakıda nikah mərasimlərinin keçirildiyi əsas məkan kimi tanınıb, burada yeni-yeni ailələrin bünövrəsi qoyulub. Elə bu sarayın təməli də məhəbbət üzərində qurulub.

Bu binanın ilk sahibi məşhur milyonçu, xeyriyyəçi, Azərbaycan neft sənayesinin görkəmli nümayəndəsi Murtuza Muxtarov olub.

Neft sənayesində podratla qazma işinin xeyli hissəsinin sahibkarı olan Murtuza Muxtarovu tanıdan yalnız var-dövləti deyildi, həm də nəcibliyi, xeyirxahlığı idi. O, kömək əlini yardıma ehtiyacı olanlardan, təhsil almaq istəyənlərdən əsirgəməyib. Ömür yoluna arabaçı oğlu kimi başlayan milyonçu bəlkə də uşaqlıq illərində ona nəsib olmayan səadəti başqalarına yaşatmağa çalışıb...

1865-ci ildə Bakı yaxınlığındakı qədim Xilə kəndində (indiki Əmircan qəsəbəsi) arabaçı ailəsində dünyaya gələn, mollaxanada ibtidai təhsil alan Murtuza Muxtarovu gün-güzəran, dolanışıq qayğıları uşaqlıq həyatını yaşamağa qoymayıb, onu kiçik yaşlarından çalışmağa vadar edib. Uşaqlıqdan qardaşı Bala Əhmədlə birlikdə arabayla çəlləkdə mədənlərdən şəhərə xam neft gətirib satıb. Hələ dəmir yolu olmayanda, payız və qış aylarında araba karvanı ilə Bakıdan Tiflisə yük daşıyıblar.

1874-cü ildə qazanc yeri olan arabasını satan Murtuza Muxtarov Balaxanı Zabrat kəndləri ətrafında salınan qazma kontorunda fəhlə işləməyə başlayıb. O, "yoruldum" demədən çalışıb. İşgüzarlığı və iradəsi gələcəyinə işıq salıb. Qazma baltasını təkmilləşdirib. İşə marağı, yenilik axtarışı ilə diqqətini cəlb etdiyi kontorun sahibi Markovdan alət və cihazların sirrini öyrənib. Bir müddət buruq ustası olub. Qoca sahibkar Markov Rusiyaya gedəndə Zabratdakı qazma avadanlığını, emalatxanasını ona satıb. Murtuza 1890-cı ildə "Muxtarov podratı" adlandırdığı kontorunu zaman keçdikcə genişləndirib. Qazma avadanlığını təkmilləşdirərək Abşeronda ilk dəfə 1100 metrlik quyu qazdırıb. Qroznıda, Maykopda kontorunun filiallarını açıb. Zavod, mədən, konstruktor büroları ilə qurduğu texniki və işgüzar əlaqələr səbəbindən teztez Şimali Qafqaza gedib.

Uşaqlıq illərində kasıblıq, ehtiyac ona ali təhsil almaq imkanı verməmişdi. Buna baxmayaraq, istedadlı, bacarıqlı ixtiraçı idi. Elə buna görə də adı Azərbaycanın neft sənayesi tarixinə ixtirası ilə yazılıb.

Dövrünün ayıq-sayıq adamlarından olan Murtuza Muxtarov savadını artırmaq, texniki biliklərə yiyələnmək üçün mühəndislərə maaş verib. 1895-ci ildə dünyada ilk dəfə metal ştanqlarla zərbə qazıma dəzgahını quraşdırıb. "Bakı qazıma sistemi" adı verdiyi bu ixtirası üçün dövlət patenti alıb. Murtuza Muxtarovun ixtira etdiyi qazma aləti bütün dünyada "Muxtarov" adı ilə tanınıb. Bir çox ölkəyə satılıb. Bakının Balaxanı, Suraxanı, Ramana və Sabunçu neft quyularının əksəriyyəti onun 1890-cı ildə yaratdığı "Podrat qazma" kontoru tərəfindən qazılıb. O, 1917-ci ildə ilk dəfə taxtayonan dəzgah ixtira edib. Zavodunun istehsal etdiyi dəzgah və avadanlığı xarici ölkələrə satıb. Özü də xaricdən çoxlu avadanlıq alıb.

Neft milyonçusu Murtuza Muxtarov XIX əsrin axırlarında ovaxtkı çar Rusiyasında ilk dəfə Bibi-Heybətdə konstruktor bürosu olan neft avadanlıqları istehsal edən böyük zavod tikdirib. O dövdə ilk neft avadanlığı müəssisəsi sayılan zavodun məhsulları yalnız Rusiyaya yox, xarici ölkələrə də ixrac olunub. Murtuza Muxtarov fəhlə və qulluqçular üçün üçmərtəbəli yaşayış binaları da inşa etdirib.

Murtuza Muxtarov xeyriyyəçiliyi ilə də ad qazanıb. Bakıda xeyriyyə cəmiyyətlərinin əksəriyyətinin fəaliyyətində iştirak edib. Təhsilin, mətbuatın inkişafına böyük maddi dəstək göstərib. Bakı Real Məktəbinin, Temirxan-Şuranın Qadın Gimnaziyasının hamisi olub. Ali və orta ixtisas məktəblərinin tələbələrinə təqaüd verib. Bakıda "Tərəqqi" qəzeti onun maddi köməyi ilə nəşr edilib. Murtuza Muxtarov həm də "Şimali Qafqaz xalqları arasında savadın və texniki biliklərin yayılması" cəmiyyətinin və Peterburq Müsəlman Xeyriyyə Cəmiyyətinin fəxri üzvü olub.

Onun Bakı şəhərində və ətraf kəndlərində, eləcə də Rusiyanın şəhərlərində, Avropanın bir sıra ölkələrində tikdirdiyi əzəmətli binalar bu günədək qalır.

Çoxlarının dərdlərinə əlac etsə də, qəlbinə taleyinin vurduğu yaraları sağaltmaqda aciz idi. İlk evliliyi faciə ilə bitmişdi. Bir gün həyat yoldaşı Qönçənaz xanımı və iki qızını evdə qoyub səfərə yollanan neft sahibkarı geri qayıdanda dəhşətli xəbərlərlə qarşılaşmışdı. O, səfərdə ikən qızları xəstələnmiş, vaxtında müalicə edilməyən uşaqlar vəfat etmişdilər. Başlarına gələn faciədən sarsılan Murtuza Muxtarov Qönçənaz xanımdan ayrılmışdı.

Milyonçu Rusiyanın müxtəlif quberniyalarına işgüzar səfərlər edirdi. Növbəti səfərində, Vladiqafqazda məşhur general Hambi Tuqanovla tanış olur. General onu evinə qonaq çağırır. Dəvəti qəbul edən Murtuza Muxtarov generalın gözəl qızı Liza xanımla tanışlığını taleyinin lütfü sayır. İlk görüşdən bir-birilərinə vurulurlar. Əslən osetin zadəganlarından olan, Vladiqafqazda doğulub boya-başa çatan Liza xanımla aralarında yaş fərqi böyük idi. Ona görə də qızın atası bu evliliyə etiraz edir. Ancaq Murtuzanın ağayanalığı, mədəniyyəti generalı bu izdivaca razı salır. Milyonçunun elçilik və toy mərasimləri çox dəbdəbəli keçir.

Həyat yoldaşı Liza xanımı çox sevən Murtuza Muxtarov onu teztez Avropaya səyahətə aparıb. Gəzdikləri şəhərlərin memarlıq abidələrini, arxitekturasını maraqla seyr ediblər. Venesiyada gəzərkən əzəmətli bir bina Liza xanımı xüsusilə valeh edib. Onun heyranlığına Murtuza Muxtarov sükutla cavab verib. Ancaq elə oradaca qərara gəlib ki, bu binanın bənzərini Bakıda tikdirsin.

Geri döndükdən sonra milyonçu Avropaya mütəxəssis göndərib həmin binanın dəqiq surətini əks etdirən layihəni əldə edib. Sonra istedadlı və tanınmış memar - polşalı İosif Ploşkoya müraciət edib.

1911-ci ildə başlanan tikinti 1912-ci ildə başa çatıb. Bircə il ərzində İosif Ploşkonun layihəsi əsasında, "Qasımov qardaşları" şirkəti tərəfindən mürəkkəb fransız qotik üslubunda möhtəşəm saray inşa olunub.

Murtuza Muxtarov bir gün gənc həyat yoldaşını gəzinti adı ilə evdən çıxarıb. Faytonla yeni tikilmiş sarayın qarşısına gətirib. Liza xanım sevincindən, heyrətindən deməyə söz tapmayıb.

Onların bu gözəl sarayda, xoşbəxtlik, firavanlıq içində keçən illəri səkkiz il çəkib. O illər ərzində bu tarixi bina çox hadisələrin şahidi olub...

Liza xanımın övladı olmayıb. O, öz analıq sevgisini kasıb ailələrdən olan uşaqlara qəyyumluq etməklə, təhsil verməklə göstərib. "Murtuza Muxtarov" səhmdar cəmiyyətinin idarə heyəti üzvü olan Liza xanım Muxtarova böyük maarifçilik işi aparıb. O, 1913-cü ildə təşkil edilən "Uşaq xəstəxanası" xeyriyyə cəmiyyətinin fəal üzvlərindən biri olub. Bakıda xüsusi uşaq xəstəxanasının yaradılmasına yardım göstərib. Bakının ən hörmətli xanımları sırasında yer alan Liza xanım Muxtarova keçirdiyi xeyriyyə məclislərindən toplanan vəsaiti də kasıb və yetim uşaqların ehtiyacına sərf edib.

1920-ci ilin aprelində bolşeviklərin XI Ordusu Azərbaycanı işğal ediblər. Silahlı bolşeviklər Muxtarovun sarayının qapısını sındırıb zala daxil olublar. Həyatı boyu mərdliklə yaşamış, bacarıqlı, istedadlı, zəhmətsevər, xeyirxah olduğu qədər də məğrur, qətiyyətli, sərt, qorxmaz insan olan Murtuza Muxtarov elə qəzəblənib ki, dərhal tüfəngə əl atıb. Bolşeviklərdən birinə atəş açaraq öldürüb, ikinci gülləni isə özünə vurub.

Murtuza Muxtarov Əmircanda, özünün tikdirdiyi məscidin həyətində torpağa tapşırılıb. Liza xanımı bolşeviklərin qəzəbindən qorumaq üçün qulluqçular onu gizlədiblər. Həyat yoldaşının ölümündən sonra o, bir müddət möhtəşəm sarayının qonşuluğundakı evlərdən birinin zirzəmisində yaşayıb. Məcburiyyət qarşısında qalan Liza xanım xaricə qaçmaq üçün saxta da olsa, bir türk paşasına ərə gedib. O, Bakını tərk edərək Türkiyənin İstanbul şəhərinə gedib. Ancaq orada bəxti gətirməyib. Onu aldadaraq son varidatını da əlindən alan yol yoldaşı aradan çıxıb. Liza xanım sonralar Berlinə köçüb.

Liza xanım xaricə köçdükdən sonra yaxınları ilə əlaqə saxlamayıb, hətta məktub da yollamayıb. Bəzi mənbələrdə Liza xanım Muxtarovanın 1950-ci illərdə Parisdə, bəzi mənbələrdə isə 1956-cı ildə Almaniyada dünyasını dəyişdiyi qeyd olunub. Məzarının yeri bilinmir.

Liza xanıma həyat yoldaşı Murtuza Muxtarovun ən böyük hədiyyəsi, Azərbaycan memarlığının isə incilərindən sayılan "Səadət Sarayı" 1911-1912-ci illərin tarixi abidəsi kimi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli qərarı ilə "Ölkə əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısı"na daxil edilib.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

● Ədəbi simalar

# Gözəllik nəğməkarı

**Şair olmaq təkcə şeir yazmaq deyil, insanın daxili aləmini, yaşadığı hissləri, gördüyü dünyanı sözlərin incə harmoniyasında bərpa etməkdir. İstedadlı şair isə adi sözlərə belə nəfəs verə, ən sadə duyğunu yeni bir baxışın işığında təqdim edə bilən sənətkardır. Onun qələmi həm zamanın ritmini tutur, həm də insan qəlbinin ən gizli guşələrinə işıq salır.**



Filosof-estetik, şair, içtimai xadim Aslan Məmməd oğlu Aslanov belə insanların önündə olan şəxsiyyətlərdəndir. Aslan Aslanovun yaradıcılığında Vətənin, xalqın, milli dəyərlərimizin, təbiət gözəlliklərinin, hətta gülün-çiçəyin belə tərənnümü özünəməxsus yer tutur. Şairin poeziyası həyatla insan arasında körpü rolunu oynayır - bəzən bir kəlməni bütöv bir duyğuya, bir misranı isə insanın iç səsi olan etirafa çevirir. Onun söz dünyası yalnız emosional təsir gücü ilə deyil, həm də bədii dərinliyi, dilinin təmizliyi və poetik baxışının orijinallığı ilə seçilir.

Aslan Aslanov 1926-cı ildə şairlər vətəni Qazax mahalında - Ağstafada anadan olub. Atası Məmməd kişi, anası Zeynəb xanım el yaradıcılığının, sazın-sözün vurğunu idilər. Evlərində tez-tez aşıq məclisləri olardı. Aslan uşaqlıqdan onlara heyranlıqla qulaq asardı. Hələ orta məktəbdə oxuyarkən qələmini şeirdə, nəsrdə sınamışdı. O, Ağstafa dəmiryol orta məktəbini bitirdikdən sonra ADU-nun (indi BDU) fizika-riyaziyyat fakültəsinin qiyabi şöbəsinə daxil olmuşdur. Fəlsəfə üzrə namizədlik dissertasiyası müdafiə etmiş (1958), dosent vəzifəsinə təyin edilmişdir. M.A.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun rektoru (1977-1987) olmuşdur. İsveçrədə (1968), Almaniyada (1970), Ruminiyada (1972), Moskvada (1979) keçirilən beynəlxalq elmi konqreslərdə məruzə ilə çıxış etmişdir. Böyük Britaniya və Almaniya Federativ Respublikasında (1978-1979) keçirilən sovet elmləri günlərinin iştirakçisi olmuşdur. Aslan Aslanovun estetika sahəsində dərin elmi axtarışları onu bu fənnin tanınmış tədqiqatçıları sırasına çıxarmışdır. Xüsusən "İncəsənət və tərbiyə" (1967) kitabı məşhur idi. A.Aslanovun bu kitab əsasında yazdığı doktorluq dissertasiyası fəlsəfi içtimaiyyətin yüksək elmi qiymətini qazanmışdır.

Filosof və ictimai xadim Aslan Aslanov düşüncəsi ilə zamanın ritmini dəyişən, sözü ilə cəmiyyətə yol göstərən nadir şəxsiyyətlərdən olmuşdur. Onun həyatı bir kitab kimi oxunur. Aslan müəllim ictimai fikir məkanına girəndə sanki ağır bir qapı açılırdı: orada səslər susur, məna danışmağa başlayırdı. Alim-şair cəmiyyətin ağrılarını oxumağı, zamanın güzgüsündə insanın taleyini görməyi bacarırdı.

Aslan Aslanov cəmiyyəti bir canlı orqanizm kimi hiss edirdi. Hansı tərəfin ağrıdığını, nəyin dəyişməyə ehtiyacı olduğunu duyan bir şəxsiyyət idi. Onun çıxışları, yazıları, görüşləri təkcə analitik düşüncənin məhsulu deyildi, həm də səmimiyyətin, fədakarlığın, insanı özünə qaytaran bir ruhun ifadəsi idi.

Aslan müəllim həm də zamanının yaddaşı - keçmişi unutmadan gələcəyi qurmaq istəyən bir düşüncə adamı idi. Onun sözündə tarix danışır, baxışında gələcək görünürdü. Müdrikliyi sadə sözlərlə, mürəkkəb həqiqətləri aydın fikirlərlə çatdırmağı bacarırdı.

*Qurban göylərində saysız sayrışan,*
*Sonsuz ulduzların zər naxışına.*
*Pərişan Arazı Kürə qarışan*
*Ana torpağının hər qarışına*

misraları ilk baxışda sadə bir təbiət təsviri kimi görünür. Lakin bu sətirlərin dərin qatlarına endikcə, müəllifin kainatla və torpaqla bağlı varoluş fəlsəfəsinin, milli yaddaşın və insan taleyinin kosmik ölçüdə dərk edilməsinin şahidi oluruq.

Aslan Aslanovun "qurban göylərində" ifadəsi, sadəcə, dini bir metafora deyil. O, min illərin inamının, xalqın öz taleyini göylərlə bağlama ənənəsinin poetik təcəssümüdür. Buradakı "qurban" həm də fədakarlıq, insanın öz varlığını daha böyük bir dəyər uğrunda fəda etməsi deməkdir.

Bu göylərdə "saysız sayrışan" ulduzlar isə xalqın yaddaşı kimi əbədi işıldayan ruhları, tarix boyu torpaq uğrunda can verənlərin izlərini, bəşər varlığının sonsuzluğa uzanan taleyini simvolizə edir. Şair burada insanın yer üzündəki ömrünü ulduzlarla birləşdirərək həm faniliyi, həm də əbədiliyi bir an içində yanaşı göstərir.

"Pərişan Arazı Kürə qarışan" - sərhədlərin kədəri və təbiətin fəlsəfəsidir. Çünki şairə görə, Araz və Kür təkcə çay deyil, həm də həsrətin, bölünmüş talelərin, parçalanmış Vətən yaddaşının simvoludur. "Pərişan Araz" ifadəsi yüzillik ayrılıqların, qürbətlərin, həsrətlərin poetik təsviridir. Son misra isə Aslanov poetikasının mərkəzidir.

Nəticə olaraq bu şeir yalnız təbiət təsviri deyil - xalq yaddaşının, torpaq sevgisinin, həsrətlərin, birliyin və kosmik fəlsəfənin poetik harmoniyasıdır. Aslan Aslanov burada insanın iç dünyasını kainatla qovuşduran bir poetik körpü yaradır və oxucunu həm özünə, həm də Vətənə daha dərin bir baxışa dəvət edir.

*Gəldim ki, boylanım gur bulaqlara,*
*Görüm qocalmışam, qocalmamışam.*
*Baxım qürur dolu yaşıl dağlara*
*Görüm ucalmışam, ucalmamışam.*

Sadəlik ən böyük müdriklikdir və böyük müdriklik də özünün sadə izahını tapmalıdır. Ən gözəl harmoniya da elə bu vaxt yaranır. Şair səsi oxucu ürəyində öz əks -sədasını tapır...

*Şeir müəllimim olmayıb mənim,*
*Bircə ustadım var - o da sevgidir.*
*Dünyada ən böyük eşqim- Vətənim,*
*Məni şair edən onun şövqüdür...*

Misal gətirdiyimiz "Olmayıb" adlı şeirin sonundakı iki misranı xüsusi qeyd etmək istərdik:

*Sərvət müəllimim olmayıb mənim.*
*Sərvətim - bir kiçik söz diyarımdır...*

Müəllif digər bir şeirində yazır:
*Önümdə bir dəstə gül,*
*Üstündə şeh damcısı*
*Kirpiyimdə parlayır,*
*Sevincimdən göz yaşı.*

Bu misralar ilk baxışda çox sadə, zərif bir duyğunu ifadə etsə də, Aslan Aslanovun poetik təbiəti burada həm simvolik, həm də emosional qatlarla zəngin bir mənzərə yaradır. Şair duyğunu təmtəraqsız, səmimi, təbii təqdim edir. Lakin bu sadəlik arxasında dərin bir mənəvi hal dayanır.

Gül - Azərbaycan poeziyasında sevginin, gözəlliyin, ümidin ən qədim rəmzlərindən biridir. "Üstündə şeh damcısı" - təbiətin göz yaşı və saflıq rəmzidir. Şeh damcısı poetik baxımdan təbiətin öz göz yaşı, səhərin saflığı, həyatın ilk nəfəsi, paklığın işıltısı kimi dərk olunur. Aslanovun şeirlərində şehin olması duyğunun təmizliyini göstərir.

Şeir üç mənbəli emosional bir tablo yaradır:

*Gül - gözəllik, təbiət, sevgi*
*Şeh - saflıq, təbiətin duyğusu*
*Göz yaşı - insanın öz duyğusunun ifadəsi...*

Bu üç hal birləşərək duyğunun təbiətdən insana, insandan poetik ifadəyə keçdiyi bir harmoniyanı yaradır.

İstedadlı şair A.Aslanovun poeziyasında məhz təbiətin özündən, dumanlı dağlardan, meşələrdən, səhər-səhər kirimişcə puçurlayan ağaclardan, narın-narın yağan yağışlardan, mavi gözlü bulaqlardan, dan yerinin ilk şəfəqləri ilə işıqlanan şumlardan, otlaqlardan və insan qəlbinin incə çırpıntılarından gələn təravətli duyğuları hiss edirsən. Şair təbiəti, insanı həssaslıqla duyub ifadə etməyi bacarırdı. O, heç zaman mədhiyyəçilik etmirdi. Sadəlövh heyranlığına aludə olmurdu. O, təbiəti həssas bir rəssam kimi duyurdu:

*Keçdi gecə, ay dolandı, səma aydın, doğdu ülkər,*
*Əsdi külək güzgü suya yarpaq atdı səhər-səhər.*
*Silkindilər ağ ördəklər, göy göllərdə üzdülər, bax,*
*Ala gözlü nazlı qızlar saçlarına çəkdi daraq.*

Təbiilik, zərif və sadəlik, aydınlıq, təbiətə nüfuz etmək həssaslığı Aslan Aslanovun şeirinin gözəl xüsusiyyətlərindəndir. Onun dilində xalqdan gələn bir şirinlik vardı. Onda ürəyə yatmayan süni ifadəyə rast gəlmək çətindir.

*Azərbaycan dili anamın dili,*
*Nənəmin sevdiyi xananın dili,*
*Böyük Füzulinin, Vaqif, Vurğunun,*
*Elimin, obamın, komamın dili.*

və ya

*Əgər bütün lalələr yığılsaydı bir yerə,*
*Sahilləri görünməz qızıl ümman olardı.*
*Dağlar - onun dalğası, göylər - onun aynası,*
*Hər dağ üstə ağ bulud bir ərməğan olardı.*

Deyilənə görə, ömrün mənası müdriklikdə cəmləşir, onda öz tacını tapır. Aslan Aslanovun şeirlərində bu müdriklik aydın nəzərə çarpır. O, həyatda ən böyük mənanı yaratmaqda duyur. Təbiətin qanunu öz hökmünü verəcək. Həyat davam edəcək, dünya yenə gözəlliklər yaradacaq.

*...Yerimdə bir ömür açacaq çiçək,*
*Dünya bir çiçək də gözəlləşəcək -*

deyən şairin şeirləri sətir-sətir, varaq-varaq oxunduqca yaşayacaq, var olacaq.

***Aynur ƏLİYEVA,***
***"Göy Qurşağı" jurnalının redaktoru***

# Amerika trilleri Nizami Gəncəvinin misraları ilə başlayır

**2025-ci ilin dekabrında nümayişə çıxan "Sağ qalan" (Not Without Hope) adlı Amerika trilleri Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin sitatı ilə başlayır.**

AZƏRTAC xəbər verir ki, "Sınaq anında ümidinizi itirməyin, çünki büllur yağış qara buludlardan doğur" (In our hour of adversity, be not without hope, for crystal rain falls from the black clouds), - deyə sitatda bildirilir. Bu, filmin əsas mövzusunu - ölümcül təhlükə şəraitində sağ qalmağı və ümidi dərhal ön plana çıxarır.



Rejissor Co Karnahanın ekran işi 2010-cu ildə nəşr olunmuş Şuyler və Ceri Lonqmanın "Ümidsiz deyil" (Not Without Hope) kitabı əsasında çəkilib. Süjetin mərkəzində Meksika körfəzində güclü fırtına zamanı balıqçı qayığının qəzaya uğramasından sonra açıq dənizdə qalan dörd dostun real hekayəsi dayanır. Əlverişsiz hava şəraiti səbəbindən axtarış-xilasetmə əməliyyatı nəticəsiz qalır və həmin şəxslər həyat uğrunda mübarizəni özləri aparmalı olurlar.

# "Azərbaycan gözəli"

**Yaratdığı təkrarsız obrazlarla öz adını Azərbaycan sənət tarixinə yazdırmağı bacaran milli kino sənətimizin bənzərsiz simalarından biri də Leyla Bədirbəylidir.**

O, fitri istedada malik teatr ustası kimi ifa üslubundakı səmimiyyət, məlahət və təbiilik sayəsində dramaturqlarımızın və dünya ədəbiyyatı klassiklərinin çox sayda qadın qəhrəmanına zəngin boyalarla parlaq səhnə həyatı verib. AZƏRTAC xəbər verir ki, dünən Xalq artisti, Dövlət mükafatı laureatı Leyla Bədirbəylinin anadan olmasının 106 ili tamam oldu. Görkəmli aktrisanın fəaliyyəti dövlətimiz tərəfindən hər zaman yüksək qiymətləndirilib. Prezident İlham Əliyev 2019-cu il dekabrın 29-da imzaladığı sərəncamla ölkəmizdə Leyla Bədirbəylinin anadan olmasının 100 illiyi ilə əlaqədar silsilə tədbirlər keçirilib.

Rəqsə böyük marağı olan gələcəyin məşhur aktrisasının istedadını üzə çıxardığı ilk sahə də məhz rəqs olur. Filarmoniyada çalışdığı illərdə "Ayna" və "Bakının işıqları" filmlərində rol alıb. Fəaliyyətinin sonrakı illərində Azərbaycan Dövlət Akademik



Milli Dram Teatrında 33 il bir-birindən fərqli qadın obrazları yaradıb. Kinoda isə Leyla Bədirbəylinin parlamağında Üzeyir bəy Hacıbəylinin böyük rolu olub.

"Azərbaycan gözəli" adını almış aktrisa 1999-cu il noyabrın 23-də vəfat edib və Fəxri xiyabanda dəfn olunub.

# Donald Tramp 2027-ci il üçün ABŞ hərbi büdcəsinin 50 faiz artırılmasını tələb edir



ABŞ Prezidentinin dediyinə görə, 1,5 trilyon dollarlıq hərbi büdcə Vaşinqtona "xəyal ordusu" yaratmağa imkan verəcək. Artım ölkə Konqresi tərəfindən təsdiqlənməlidir.

ABŞ-nin 2027-ci il üçün hərbi büdcəsinin 1,5 trilyon dollara çatacağı gözlənilir. Prezident Donald Tramp "TruthSocial" sosial media platformasında buna əmin olduğunu bildirib. "Reuters" agentliyinin yaydığı məlumata görə, bu məbləğ Konqres tərəfindən 2026-cı il üçün təsdiqlənmiş 901 milyard dollardan xeyli çoxdur.

D. Tramp bildirib ki, o, bu qərarı senatorlar, Konqres üzvləri, katiblər - icra departamentlərinin rəhbərləri və digər siyasi nümayəndələrlə uzun və çətin danışıqlardan sonra verib.

Ağ Ev rəhbəri bu addımın Vaşinqtona "xəyal ordusu" yaratmağa, habelə təhlükəsizlik və mühafizəni təmin etməyə imkan verəcəyini iddia edib. O, həmçinin ABŞ-nin milli borcun azaldılmasına davam edərək orta gəlirli amerikalılara dividend ödəyə biləcəyinə inandığını bildirib. Amma təklif ABŞ Konqresi tərəfindən təsdiqlənməlidir.

AFP-nin məlumatına görə, ABŞ artıq hərbi ehtiyaclara digər ölkələrdən daha çox pul xərcləyir. Daha əvvəl isə D.Tramp sosial mediada Vaşinqtonun NATO müttəfiqlərinin sədaqətinə şübhə ilə yanaşdığını açıqlamışdır.

"Politico"nun yazdığına əsasən, "böyük artım" ehtimal ki, Donald Trampın "Qızıl günbəz" hava hücumundan müdafiə sistemindən tutmuş Hərbi Dəniz Qüvvələrinin modernləşdirilməsi üçün "Qızıl donanma" layihəsinə qədər bir neçə proqramının yüksək qiyməti ilə əlaqədardır. Ağ Evin məlumatına görə, ABŞ hərbi dəniz qüvvələrinin yaxın illər inanılmaz dərəcədə genişmiqyaslı imkanlara malik yeni nəsil döyüş gəmiləri ilə təchiz edilməsi gözlənilir.

Xatırladaq ki, rekord səviyyədə 901 milyard dollarlıq hərbi xərcləri nəzərdə tutan 2026-cı maliyyə ili üçün ABŞ müdafiə büdcəsi ilə bağlı qanun layihəsi Konqres tərəfindən 17 dekabr 2025-ci ildə qəbul edilib. Sənəddə digər məsələlərlə yanaşı, hərbi qulluqçuların əməkhaqqının 3,8 faiz artırılması, hərbi texnikanın alınması və ABŞ-nin əsas rəqibləri Çin və Rusiyaya qarşı rəqabət qabiliyyətini gücləndirmək üçün tədbirlər nəzərdə tutulur.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***


# OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** ***qəzetinə abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**


AZƏRBAYCAN
Güclü lider güclü dövlət qurur
Xalqa arxalanan, xalqın inandığı
Vətənə və xalqa sevginin örnəyi
Prezident İlham Əliyevin proqnozları növbəti dəfə də özünü doğrultdu
Azərbaycan dilini qorumaq borcumuzdur
Böyük qayıdış həm də azad edilmiş ərazilərin ölkə iqtisadiyyatına inteqrasiyasıdır

## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# İnfeksion xəstəliklər üzrə epidemioloji vəziyyət stabildir

Qış mövsümündə hava temperaturunun kəskin dəyişməsi, günəşli saatların azalması və insanların daha çox qapalı məkanlarda vaxt keçirməsi kəskin respirator virus infeksiyalarının yayılması üçün əlverişli şərait yaradır. Bu dövrdə qrip və digər mövsümi virus xəstəlikləri hər il olduğu kimi yenidən gündəmə gəlir.



Son zamanlar isə kəskin respirator virus infeksiyalarına, xüsusilə də qripə yoluxan şəxslər xəstəliyin daha uzunmüddətli və ağır keçdiyini bildirirlər. Bir çoxları qeyd edir ki, aradan həftələr keçməsinə baxmayaraq, öskürək tam kəsilmir, halsızlıq və tez yorulma halları isə davam edir. Sosial şəbəkələrdə və qeyri-rəsmi mənbələrdə yayılan əsassız məlumatlar isə vəziyyətin olduğundan daha ciddi kimi təqdim edilməsinə səbəb olur.

### Dekabr-fevral ayları fəsli qripin pik dövrü hesab olunur

Səhiyyə Nazirliyi Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin məlumatına görə, hazırda mövsümi kəskin respirator virus infeksiyalarının yayılması müşahidə olunur ki, bu da payız-qış dövrü üçün xarakterik haldır.

Mərkəzdən bildirilib ki, ölkəmizdə infeksion xəstəliklər üzrə epidemioloji vəziyyət stabildir və müvafiq qurumlar tərəfindən daim nəzarətdə saxlanılır. Əhali üçün əlavə narahatlıq doğuran vəziyyət mövcud deyil.

Mövzu ilə bağlı qəzetimizə açıqlama verən Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, infeksionist Təyyar Eyvazovun sözlərinə görə, qrip və kəskin respirator virus infeksiyaları üçün epidemioloji fəsillilik xarakterikdir: "Hər il payız və qış aylarında qrip də daxil olmaqla bu tip infeksiyalara yoluxma hallarında təbii artım müşahidə edilir. Dekabr-fevral ayları fəsli qripin pik dövrü hesab olunur. Bu infeksiyaların yayılmasını nisbətən azaltmaq məqsədilə artıq sentyabr ayından başlayaraq zəruri profilaktik tədbirlər görülür. Bu tədbirlər spesifik və qeyri-spesifik olmaqla iki əsas istiqamətdə aparılır".

İnfeksionist bildirib ki, qrip infeksiyası digər respirator viruslarla müqayisədə bəzi hallarda, xüsusən risk qruplarına daxil olan şəxslərdə daha ağır gedişə və fəsadlara səbəb ola bilər: "Məhz buna görə qripə qarşı peyvəndləmə işlərinə onun geniş yayılması başlamazdan əvvəl start verilir. Sentyabr ayından etibarən Səhiyyə Nazirliyinin dəstəyi ilə ölkəyə gətirilmiş Avropa istehsalı olan yüksək effektiv və təhlükəsiz qrip peyvəndləri ambulator-poliklinik yardım göstərən tibb müəssisələrində əhaliyə ödənişsiz, müraciət əsasında tətbiq olunur. Paralel olaraq, əhalinin, ilk növbədə risk qruplarının peyvəndləmə prosesində könüllü və aktiv iştirakını təmin etmək məqsədilə bütün vasitələrdən, o cümlədən mediadan istifadə olunmaqla geniş maarifləndirmə işləri aparılır".

Peyvənd olunmuş şəxsin xəstəliyi əksər hallarda əlamətsiz və ya yüngül formada keçirdiyini bildirən Təyyar Eyvazov, xüsusilə həssas qruplarda infeksiyanın gedişinin daha mülayim olduğunu qeyd edib. Qripə qarşı peyvəndləmənin əsas məqsədi və hədəfi məhz risk qrupuna daxil olan şəxslərin qorunmasıdır ki, onlar yoluxaraq səhiyyə sisteminə əlavə yük yaratmasınlar. Bu yanaşma beynəlxalq təcrübəyə əsaslanır və inkişaf etmiş ölkələrdə olduğu kimi, Azərbaycanda da tətbiq edilir. Qrip vaksini vurulduqdan sonra virusa qarşı immunitetin formalaşması üçün azı 2 həftə vaxt tələb olunur. Buna görə də peyvəndləmə üçün əsasən sentyabr-oktyabr ayları daha münasib hesab edilir. Bununla yanaşı, bütün epidemioloji mövsüm ərzində vaksinasiyanın aparılması məqsədəuyğundur və hazırda bu proses ölkə üzrə davam etdirilir.

### Effektivliyi sübut olunmuş gigiyena qaydalarına riayət olunmalıdır

Viruslarla mübarizədə ikinci istiqamət qeyri-spesifik tədbirlərdir ki, bu da hava-damcı yolu ilə yayılan bütün infeksiyalar üçün universaldır. "Bunlara respirator və əl gigiyenası qaydalarına riayət olunması daxildir. Əhali bu barədə mütəmadi şəkildə maarifləndirilir. Yaxın təmaslardan çəkinmək, zərurət olduqda maskadan istifadə etmək, qapalı məkanları tez-tez havalandırmaq, xəstə şəxslərin vaxtında aşkarlanaraq izolyasiya edilməsi, asqırdıqda və öskürdükdə burnu salfet və ya dirsəklə örtmək, çirkli əllərlə ağız və gözlərə toxunmamaq, xüsusilə qida qəbulundan əvvəl əlləri ən azı 20 saniyə sabunla yumaq bu tədbirlər sırasındadır. Bu sadə qaydalar yalnız o zaman effektiv nəticə verir ki, əhali tərəfindən kütləvi şəkildə icra olunsun", - deyə infeksionist qeyd edib.

Təyyar Eyvazov onu da qeyd edib ki, aparılan maarifləndirmə işlərinin əsas məqsədi ilk baxışdan bəsit görünən, lakin effektivliyi sübut olunmuş bu qaydalara hər bir vətəndaşın ciddi yanaşmasını təmin etməkdir. Bu məsələdə əhalinin məsuliyyəti və tövsiyələrə əməl etməsi həlledici rol oynayır. Qeyd olunan tədbirlərə riayət etməklə qrip və digər kəskin respirator virus infeksiyalarının qarşısını almaq mümkündür.

Mövcud epidemioloji vəziyyətin stabil qalması üçün vətəndaşların məsuliyyətli davranışı həlledici amil olaraq qalır. Hər kəs sağlamlığına diqqət və məsuliyyətlə yanaşmalı, fərdi gigiyena qaydalarına riayət etməli, özünü və ətrafındakıları infeksiyalara yoluxmaqdan qorumalıdır.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# *Nikol PAŞİNYAN:* "II Qaregini istefa verməyə məcbur edəcəyik"

"Bütün ermənilərin katolikosu II Qaregini istefa verməyə məcbur edəcəyik". AZƏRTAC xəbər verir ki, Ermənistanın Baş naziri Nikol Paşinyan bunu yerli televiziyada yayımlanan brifinqdə deyib.



"Siz deyirsiniz ki, Ktriç Nersisyanın (II Qaregin) getmək niyyəti yoxdur. Biz onu fikrini dəyişməyə məcbur edəcəyik. Heç kimin getmək niyyəti olmur. Serj Sarkisyanın (sabiq prezident) da getmək niyyəti yox idi, amma getdi. Bu Ktriç Nersisyana da aiddir: o, getməyə məcbur olacaq", - deyə Nikol Paşinyan bildirib. Baş nazirin sözlərinə görə, bu proses heç bir təlatüm olmadan, "xristian təvazökarlığı ilə" həyata keçiriləcək.

2025-ci il dekabrın 8-də Nikol Paşinyan ömürlük seçilən bütün ermənilərin katolikosu II Qareginin vəzifədən kənarlaşdırılmasından sonra "Erməni Apostol Kilsəsinin yenilənməsi" planını təqdim edib. Bu plan cari il yanvarın 4-də hökumət başçısı və 10 yepiskop tərəfindən imzalanıb.

# Ermənistanda hökumət-kilsə qarşıdurması şiddətlənir

## Erməni kilsəsi postmünaqişə dövrünün reallıqlarına qarşı çıxır, revanşist mövqe ortaya qoyur

Azərbaycan-Ermənistan sülh sazişi iki dövlət arasında uzunmüddətli münaqişəyə son qoymaq və qarşılıqlı dövlətlərarası münasibətlərin hüquqi əsaslarını formalaşdırmaq məqsədi daşıyan sənəd kimi nəzərdə tutulur. 2025-ci il avqustun 8-də tərəflər sazişin mətnini paraflayaraq razılaşma əldə ediblər.

Azərbaycan Prezidentinin və Ermənistanın Baş nazirinin Vaşinqton şəhərində keçirilmiş görüşünə dair Birgə Bəyannamə, ABŞ Prezidenti tərəfindən 907-ci düzəlişin dayandırılması, Minsk qrupunun ləğvi, Zəngəzur dəhlizinin açılmasına dair razılaşma postmünaqişə dövründə regional sabitliyin və qarşılıqlı etimadın möhkəmləndirilməsi baxımından mühüm mərhələ kimi qiymətləndirilə bilər. Lakin sülh prosesinin institusional və davamlı xarakter alması yalnız rəsmi sənədlərlə deyil, eyni zamanda siyasi və ictimai ritorikanın da bu reallıqlara uyğunlaşmasını tələb edir. Lakin sülh gündəliyinin irəlilədiyi bir mərhələdə erməni kilsəsi reallıqlara qarşı çıxır, revanşist mövqe nümayiş etdirir. Bu mənada Erməni Apostol Kilsəsinin rəhbərliyi tərəfindən səsləndirilən antisülh fikirləri xəstə erməni təfəkkürünün göstəricisi kimi qiymətləndirmək olar. Erməni Apostol Kilsəsinin rəhbəri, bütün ermənilərin katolikosu II Qareginin yanvarın 6-da səsləndirdiyi fikirlər onilliklərdir formalaşdırılan işğalçı narrativin davamıdır.

II Qareginin çıxışında "Arsax" ifadəsinin işlədilməsi ayrıca diqqət cəlb edir. Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış ərazisi ilə bağlı qondarma ifadənin işlədilməsi bir daha göstərir ki, kilsə yeni reallıqlara və sülhə qarşı çıxır. Bu kontekstdə Ermənistanın daxili siyasi həyatında baş verən son proseslər də Erməni Apostol Kilsəsinin mövqeyinin nə dərəcədə destruktiv xarakter daşıdığını aydın şəkildə üzə çıxarır. Baş nazir Nikol Paşinyanın son çıxışları faktiki olaraq onu göstərir ki, rəsmi İrəvan sülhün mifik çağırışlar və ritorika ilə deyil, konkret siyasi qərarlar, hüquqi öhdəliklər və real davranış modeli ilə mümkün olduğunu qəbul edir. Paşinyanın "sülh yalnız dualarla yaradılmır" fikri də birbaşa kilsənin revanşist ideoloji xəttin iflasını etiraf etmək deməkdir. Bu yanaşma kilsənin özünü "milli maraqların qoruyucusu" kimi təqdim etməsinin, əslində, siyasi manipulyasiya vasitəsi olduğunu göstərir.

Xüsusilə diqqətçəkən məqam Paşinyanın Erməni Apostol Kilsəsinin müəyyən dairələr tərəfindən Ermənistana qarşı siyasi alətə çevrilməsi ilə bağlı səsləndirdiyi açıq ittihamlardır. Bu fikirlər göstərir ki, erməni kilsəsi ictimai rəyin radikallaşdırılmasına xidmət edən ideoloji mərkəz rolunu oynayır. Sülh prosesinin aktiv mərhələsində kilsə rəhbərliyinin, o cümlədən II Qareginin ritorikası Ermənistan cəmiyyətini reallıqlarla barışmağa yox, keçmişin mifoloji və işğalçı təsəvvürlərinə geri qaytarmağa hesablanıb. Bu isə nə dini missiya ilə, nə də regionda sabitliyin təmin olunması təşəbbüsləri ilə uzlaşır. Əksinə, bu mövqe Ermənistanın beynəlxalq öhdəliklərinə, eləcə də öz siyasi rəhbərliyinin müəyyən etdiyi kursa açıq müqavimət formasıdır.

Paşinyanın din və dövlət münasibətlərinin sərt şəkildə ayrılması ilə bağlı verdiyi mesajlar, əslində, Ermənistan daxilində dərin ideoloji transformasiyanın getdiyini göstərir. "Real Ermənistan" konsepsiyası çərçivəsində kilsənin ictimai rolunun azaldılması xətti erməni siyasi şüurunda dönüş yaratmağa yönəlib. Məhz buna görə də Erməni Apostol Kilsəsi sülhə qarşı aqressiv mövqe ortaya qoyur. Bu isə Ermənistanın gələcəyi üçün ciddi risklər yaradır. Kilsə bu davranışı ilə sülhün qarşısında maneə rolunu oynadığını və regionu yeni gərginliklərə sürükləmə niyyətini bir daha nümayiş etdirir.

Ancaq görünən odur ki, Azərbaycan qətiyyətli siyasəti ilə erməni kilsəsinin revanşizm niyyətini gözündə qoyacaq.

***Təhminə VERDİYEVA,***
***"Azərbaycan"***

# Hava fasilələrlə yağıntılı olacaq, dağlıq ərazilərdə qar yağacaq

Azərbaycanda yanvarın 9-na gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, sabah Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər bəzi yerlərdə arabir duman olacaq. Mülayim cənub-qərb küləyi əsəcək, arabir güclənəcək, axşam mülayim şimal-qərb küləyi ilə əvəzlənəcək.

Havanın temperaturu gecə 3-6, gündüz 10-15 dərəcə isti olacaq. Atmosfer təzyiqi 759 millimetr civə sütunundan 750 millimetr civə sütununa enəcək. Nisbi rütubət gecə 80-90, gündüz 60-70 faiz təşkil edəcək. Azərbaycanın rayonlarında səhər dağlıq ərazilərdən başlayaraq bəzi yerlərdə havanın fasilələrlə yağıntılı olacağı, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Gecə və axşam ayrı-ayrı yerlərdə yağıntıların intensivləşəcəyi ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi gündüz arabir güclənəcək.

Havanın temperaturu gecə 1 dərəcə şaxtadan 4 dərəcəyədək isti, gündüz 11-16 dərəcə isti, dağlarda gecə 0-5 dərəcə şaxta, gündüz 7-12 dərəcə isti olacaq.

## ALLAH RƏHMƏT ELƏSİN!

"Azəralüminium" MMC-nin rəhbərliyi və kollektivi müəssisənin istehsalat direktoru, Azərbaycan Texnologiya Universitetinin Kimya və metallurgiya kafedrasının professoru, texnika elmləri doktoru

**CƏMİL SƏFƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Gəncə Kommersiya Məhkəməsinin kollektivi hakim Əbülfəz Məmmədliyə atası

**NAMİQ MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 3113**
**Sifariş 4**

**Qiyməti 60 qəpik**